AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
AĞCABƏDİ FİLİALI





**100**

**1923 ∞ 2023**

***ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN***

# 100

***İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ***

# "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİ"

***mövzusunda***

# *ELMİ-PRAKTİKİ KONFRANSININ MATERİALLARI*

**AĞCABƏDİ – 06 DEKABR 2023**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**
**AĞCABƏDİ FİLİALI**



***ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN***

***100***

***İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ***

# "Heydər Əliyev və Azərbaycan elmi"

***mövzusunda***
***elmi - praktiki konfransının***

# MATERİALLARI

***Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda elmi-praktiki konfransının materialları ADPU-nun Ağcabədi filialının Elmi Şurasının 14 mart 2024-cü il tarixli iclasının (Protokol № 06) qərarı ilə çap olunur.***

**AĞCABƏDİ – 06 DEKABR 2023**




***Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür.***

***Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.***

***Heydər Əliyev***

**AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN “HEYDƏR ƏLİYEV İLİ” ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu,

nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***29 sentyabr 2022-ci il***

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Sədr:** | |
| Mobil Məcidov | ADPU-nun Ağcabədi filialının direktoru, dosent |
| **Üzvlər:** | |
| Seymur Süleymanov | ADPU-nun Ağcabədi filialının tədris və elmi işlər üzrə direktor müavini, dosent |
| Mahir Səlimov | ADPU-nun Ağcabədi filialının tərbiyə işləri üzrə direktor müavini, dosent |
| Baxış Ələsgərov | ADPU-nun Ağcabədi filialının "İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Vaqif Allahverdiyev | ADPU-nun Ağcabədi filialının "Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Sahib Zeynalov | ADPU-nun Ağcabədi filialının "Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Tahir Kərimli | ADPU-nun Ağcabədi filialının "Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müdiri, b/m |
| Qərənfil Rzayeva | ADPU-nun Ağcabədi filialının "Keyfiyyətin təminatı" şöbəsinin müdiri, "Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi |
| Xəyyam Bədəlov | ADPU-nun Ağcabədi filialının "Pedaqoji" fakültənin dekan v.i.e., baş müəllim |
| Bahar Mustafayeva | ADPU-nun Ağcabədi filialının Kitabxana müdiri |
| Sahibə Nəsirova | ADPU-nun Ağcabədi filialının "Kompüter mərkəzi"nin müdiri |
| Səbuhi Quliyev | Filialın "Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müəllimi, TEC-in sədri |
| Səlimə Ağamirova | ADPU-nun Ağcabədi filialının direktor köməkçisi |
| Fatma Əliyeva | ADPU-nun Ağcabədi filialının "Kompüter mərkəzi"nin mütəxəssisi |

## MÜNDƏRİCAT


**GİRİŞ SÖZÜ:**
*Məcidov Mobil Kamil oğlu*........................................................................................ **5**

**PLENAR İCLAS**

**HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN ELM VƏ TƏHSİL KONSEPSİYASININ YARADICISIDIR**
*Süleymanov Seymur Elman oğlu*........................................................................................ **6**

**AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ELM VƏ TƏHSİLİN İNKİŞAFINDA YERİ**
*Səlimov Mahir Məhəmmədəli oğlu*........................................................................................ **9**

**BÖLMƏ I**
**"HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TƏHSİLİNİN VƏ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA ROLU"**

**MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU**
*Kərimli Tahir Mehdixan oğlu*........................................................................................ **15**

**AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİ DANILMAZDIR**
*Ələsgərov Baxış İslam oğlu* ........................................................................................ **19**

**TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR**
*Məmmədov Sabir Rüstəm oğlu, Cəfərov Fazil Tatarxan oğlu*........................................ **23**

**HEYDƏR ƏLİYEV AZƏRBAYCAN TƏHSİLİNİN HAMİSİDİR**
*Hüseynov Məhəmməd Allahverdi oğlu* ........................................................................ **26**

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL STRATEGİYASI**
*Mikayılova Fəridə Mürşüd qızı* ........................................................................................ **30**

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ELM VƏ TƏHSİLƏ AİD DƏYƏRLİ KƏLAMLARI**
*Nuriyev Kamal Bəhrəm oğlu* ........................................................................................ **33**

**TƏHSİLİMİZİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ TÜKƏNMƏZDİR**
*Ələsgərov Baxış İslam oğlu, Bayramzadə Gülsanə Baxış qızı*........................................ **35**

**HEYDƏR ƏLİYEV VƏ "KİTABI-DƏDƏ QORQUD" EPOSU**
*Səmədov Yaqub Abbasqulu oğlu* ........ **38**

**HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MÜASİR TƏHSİL SİSTEMİNİN QURUCUSUDUR**
*Abbasova Şəbnəm Qinyaz qızı*........ **40**

**HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİ**
*Məmmədova Sara Muradxan qızı* ........ **42**

**AZƏRBAYCANIN TƏHSİL SİSTEMİNİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ**
*Zeynalova Səbinə Cəfər qızı, Zeynalova Sevil Cəfər qızı*........ **46**

**HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ SÖNMƏYƏN GÜNƏŞİDİR**
*Quliyev Səbuhi Vaqif oğlu* ........ **50**

**HEYDƏR ƏLİYEV VƏ YÜKSƏLƏN GƏNCLİK**
*Həsənova Nərmin Seymur qızı* ........ **52**

**BÖLMƏ II**
**"HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA ROLU"**

**HEYDƏR ƏLİYEVİN FƏRMANI İLƏ YARADILMIŞ XANKƏNDİ PEDAQOJİ İNSTİTUTUNUN AZƏRBAYCAN ELMİNƏ VƏ TƏHSİLİNƏ VERDİYİ TÖHFƏLƏR**
*Zeynalov Sahib Adıgözəl oğlu* ........ **55**

**ELM VƏ TƏHSİLİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU**
*Məmmədov Sabir Rüstəm oğlu, Cəfərov Fazil Tatarxan oğlu*........ **58**

**HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI**
*Allahverdiyev Vaqif Saleh oğlu* ........ **61**

**HEYDƏR ƏLİYEVİN ƏDƏBİYYATIMIZA DİQQƏT VƏ QAYĞISI**
*Rzayeva Qərənfil Zeyqəm qızı* ........ **64**

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA ELM VƏ TƏHSİLİN İNKİŞAFINDAKI ROLU**
*Bədəlov Xəyyam Əli oğlu* ........ **67**

**AZƏRBAYCAN ELMİNİN İNKİŞAFI HEYDƏR ƏLİYEV ZƏKASININ TƏNTƏNƏSİDİR**
*Süleymanova Lətafət Nəsib qızı, Hüseynova Sevinc Sərxan qızı*........ **69**

**HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA VƏ TƏHSİLDƏ ROLU**
*Orucova Nuridə Şəfa qızı* ........................................ **76**

**HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİ**
*Cəfərova Sevil Raqif qızı* ........................................ **78**

**AZƏRBAYCAN TƏHSİLİNİN GƏLƏCƏK İNKİŞAFINA ZƏMİN YARADAN İŞLAHATLAR**
*Səfərov Səbuhi Allahverdi oğlu* ........................................ **81**

**ÜMUMMİLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN ELM SİSTEMİ**
*Süleymanov Seymur Elman oğlu, Nəsirova Sahibə İsmayıl qızı*........................................ **85**

**HEYDƏR ƏLİYEVİN ELM VƏ TƏHSİL SİYASƏTİ**
*Quliyeva Ülviyyə İnqilab qızı* ........................................ **87**

**AZƏRBAYCANIN ÜMUMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV MÜASİR ELM VƏ TƏHSİL SİSTEMİNİN YARADICISIDIR**
*Qurbanov Qurban Fikrət oğlu* ........................................ **92**

**HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİX ELMİ**
*Səmədov Yaqub Abbasqulu oğlu* ........................................ **94**

## GİRİŞ SÖZÜ:

***Məcidov Mobil Kamil oğlu, dosent***
***ADPU-nun Ağcabədi filialının direktoru***

Hörmətli konfrans iştirakçıları!

Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş, "Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda təşkil olinmuş elmi-praktiki konfransda xoş gördük Sizləri. Hər bir dövlətin, xalqın gələcəyi və inkişaf səviyyəsi həm də onun malik olduğu elmi potensialla ölçülür. Bəşər tarixində əbədilik qazanmış dahi şəxsiyyətlərin elmə və elmin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən birinə çevrilmişdir. Bu baxımdan Ümummilli Lider Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri də misilsizdir. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində elm sahəsinə diqqət və qayğısını əsirgəməmiş, daim milli elmimizin qüdrətli hamisi kimi çıxış etmişdir. O, Azərbaycan elminə, ziyalılara həmişə yüksək qiymət vermiş, diqqət və qayğı göstərmişdir. Azərbaycan elmi XX əsrdə çox sürətlə inkişaf etmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər isə bu cəhətdən xüsusilə seçilir. Azərbaycan elminin ən çox inkişaf etdiyi dövr bu dahi şəxsiyyətin hakimiyyəti illərinə təsadüf edir. Elmin, elm ocağının yeni yüksəlişi məhz ulu öndərin adı ilə bağlı idi.

Ümummilli Lider dünyada tanınan və qəbul edilən görkəmli siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də böyük bir elm adamı idi. Onun müdrik siyasətinin uzaqgörənliyi və dərinliyi məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala arxalanmasında idi. Azərbaycan elminə və elm adamlarına göstərdiyi qayğı və dəstək elə bundan qaynaqlanırdı. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. O, cəmiyyətin, xalqın inkişafını elmdə, intellektdə görürdü.

Heydər Əliyev respublikamıza rəhbərliyə gəldiyi ilk günlərdən elmin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş, ona daim qayğı göstərmiş, elmin sürətli inkişafı üçün mühüm qərarlar vermişdir. Azərbaycan aliminə və elminə elə ilk gündən yüksək qayğı göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini də ardıcıl və sistemli şəkildə həyata keçirirdi. Onun diqqət və qayğısı nəticəsində elmi-tədqiqat institutlarının və elmi işçilərinin sayı artır, elmi-tədqiqat institutları üçün yeni korpuslar tikilir, Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərilir, elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlir, elmin tətbiq sahələri genişlənir, elm adamlarına yaradıcılıq şəraiti yaradılır, görkəmli alimlərin fəaliyyətləri təqdir olunur, onlar mükafatlandırılırdı.

Ulu Öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət eyni zamanda Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.

Hörmətli konfrans iştirakçıları! Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş, "Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda elmi-praktiki konfransı açıq elan edir, konfransın işinə uğurlar arzulayıram.

## PLENAR İCLAS

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN ELM VƏ TƏHSİL KONSEPSİYASININ YARADICISIDIR

***Süleymanov Seymur Elman oğlu, dosent***
***Tədris və elmi işlər üzrə direktor müavini***
**seymursuleymanov71@mail.ru**

***Xülasə:*** *Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, ocümlədən elm və təhsilə diqqət və qayğı daha da artırıldı. Bu təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.*

*Ümummilli Liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövrü Azərbaycanın tarixinə elmin və təhsilin tərəqqi dövrü kimi daxil oldu.*

***Acar sözlər:*** *Heydər Əliyevin təhsil siyasəti, təhsil strategiyası, Heydər Əliyev irsi, elmi-pedaqoji, elm-təhsil sahəsi*

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən Ümummilli Lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu Öndərin öz sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Müşahidələr göstərir ki, həqiqətən də belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. Son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır [Abbasov Ə. 2008, Mərdənov M. və Quliyev Ə. 2002].

Məlumdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar

aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Bu mənada Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dünəninə və bugününə diqqət yetirmək kifayətdir [Mərdənov M.C., Quliyev Ə. 2002].

Bir faktı qeyd etmək kifayətdir ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Belə ki, Ulu Öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Ümummilli Lider öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

Qeyd olunduğu kimi, Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür [Mərdənov M.C. 2006., Mərdanov M.C., Şahbazlı F.Ş. 2005].

Bu da danılmaz faktdır ki, Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində Ümummilli Lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması

qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq, elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, Ümummilli Lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu Öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir.

Ulu Öndər Heydər Əliyevin elm və təhsil siyasətinin prioritetlərindən biri də hər iki sahənin idarə edilməsinə yeni yanaşmanın olmasıdır. Belə ki, əgər güclü təhsil sistemi gələcəyin elmi tədqiqatçılarının hazırlanmasına xidmət edirsə, elmi araşdırmalar da, öz növbəsində, ölkənin ayrı-ayrı sahələrinin müasir tələbata və qabaqcıl təcrübəyə uyğun inkişafını təmin etməlidir.

Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Bu baxımdan qanunların və digər normativ sənədlərin qəbul edilməsində, dövlət proqramlarının hazırlanmasında və s. elm adamlarının yaxından iştirak etməsi, müvafiq mütəxəssislərin iştirakı ilə geniş müzakirələrin aparılması xüsusi qeyd olunmalıdır [Mərdanov M.C.2009.]

Günümüzün reallıqları sübut edir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Eyni zamanda, bütün bunlar elm adamlarının daha da fəallaşmasını, ölkədə həyata keçirilən islahatların elmi əsaslarının işlənib hazırlanmasında xüsusi fəallıq göstərilməsini tələb edir.

**Ədəbiyyat:**

1. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. "Kurikulum" jurnalı, 2008.
2. Mərdənov M. və Quliyev Ə. Heydər Əliyev Təhsil millətin gələcəyidir. Bakı,"Təhsil", 2002.
3. Mərdanov M.C. "Azərbaycan təhsili dünən, bu gün, sabah". Bakı, "Təhsil", 2006.
4. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. Bakı, "Çaşıoğlu", 2005.
5. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, "Çaşıoğlu", 2009.

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ELM VƏ TƏHSİLİN İNKİŞAFINDA YERİ

***Səlimov Mahir Məhəmmədəli oğlu, dosent***
***Tərbiyə işləri üzrə direktor müavini***
***mahir.0707@mail.ru***
***Həziyev Əzizağa Əkbər oğlu, b/m.***
***"Tələbə və məzunlarla iş" şöbəsinin pedaqoji təcrübə rəhbəri***

***Xülasə**: Məqalədə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Azərbaycanda müstəqilliyin möhkəmləndirilməsi, azərbaycançılıq məfkurəsinin bərqərar olması istiqamətində fəaliyyətinə nəzər salınmış, eyni zamanda azərbaycançılıq ideologiyasının Azərbaycanda elm və təhsilin inkişafında oynadığı rol araşdırılmışdır. Məqalədə Ulu Öndər Heydər Əliyevin milli elmimizin və təhsilimizin inkişafında rolu, onu Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bu sahəyə diqqətin artırılmasında verdiyi töhfələr qeyd olunmuşdur.*

***Açar sözlər:** Azərbaycançılıq, dövlətçilik, lider, Heydər Əliyev, elm, təhsil, şəxsiyyət*

Azərbaycançılıq müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır.

Hələ sovet dövründə Azərbaycana yeni təyin olunan rəhbər olmaqla Heydər Əliyevin ilk addımlarından biri respublikada mənəviyyatın saflaşdırılması, təhsilin inkişaf etdirilməsi, mədəniyyət və əxlaq dəyərlərinin milli adət-ənənələrin təməli kimi qorunub saxlanması sahəsində işlərlə bağlı idi. Hələ o zamanlar sovetlər ittifaqı daxilində azərbaycançılıqla bağlı hər hansı bir fəaliyyətin aparılması çox təhlükəli idi. Lakin bu ideologiyanın təməlinin qoyulması istiqamətində Ulu Öndər kifayət qədər işlər görə bilmişdir. Məhz təməli o zamanlardan qoyulan fəliyyətin nəticəsində müasir müstəqil Azərbaycanın əsas mövcudluq idelogiyası yarandı. Belə ki, bəzi qonşu dövlətlərdən fərqli olaraq Azərbaycan öz zəngin multicultural ənənələri ilə fərqlənir. Bu baxımdan azərbaycançılıq ideologiyasının ölkəmizdə bərqərar olması, Azərbaycan türkləri ilə yanaşı yaşayan digər xalqları bir amal uğrunda Vahid Azərbaycan uğrunda birləşdirir. Məhz bunun sayəsində xalqımız 2020-ci ildə 44 günlük Vətən savaşında öz birliyini bird aha sübut edərək erməni-faşist qüvvələrinin başını azdi, ərazi bütövlüyünü bərpa etdi.

Azərbaycançılıq məfkurəsinin formalaşması bu istiqamətdə qəbul edilmiş hər hansı bir qərardan asılı deyil, Heydər Əliyev kimi bir şəxsiyyətin yorulmadan həyata keçirdiyi fəaliyyətdən asılı olduğunun nəticəsi idi.

Azərbaycançılığın mühüm tərkib hissələrindən biri Azərbaycan dilidir, ona adekvat dövlət münasibətinin formalaşmasıdır.

Hər hansı bir dili ilk növbədə onun daşıyıcısı olan xalq yaşadır. Azərbaycan dilinin gözəl bilicisi və böyük təəssübkeşi olan Heydər Əliyev özünəməxsus müdrikliklə demişdir: "Biz öz

əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, ən çətin vaxtlarda dilimiz itməyib, yaşayıb. Onu xalq yaşadıbdır, eyni zamanda onu xalqımızın böyük şəxsiyyətləri yaşadıblar" [2]. Bəli, dilin hərtərəfli inkişafı, zənginləşməsi, işlək və mütəhərrik hala gəlməsi, beynəlxalq səviyyəyə çıxması, nüfuz qazanması təkcə xalqdan asılı deyil. Burada bütün zamanlarda doğma dilin keşiyində duran, söz sərrafları kimi tanınan yaradıcı ziyalılar da öz-özlüyündə həlledici rol oynaya bilməzlər. Tarixin təcrübəsi dönə-dönə göstərmişdir ki, dilin inkişafı milli müstəqillik ideyaları, dövlətçilik ənənələri ilə, habelə bu ideya və ənənələri öz fəaliyyətində gerçəkləşdirən qüdrətli dövlət başçılarının, öz xalqlarının tarixinə islahatçı kimi daxil olmuş böyük siyasi liderlərin adı ilə sıx bağlıdır.

Azərbaycan rəhbərliyinin ilk günlərində əgər Ulu Öndər respublikada mənəviyyatın saflaşdırılması, təhsilin inkişaf etdirilməsi, mədəniyyət və əxlaq dəyərlərinin milli adət-ənənələrin təməli kimi qorunub saxlanması ilə əlaqədar idisə, artıq 1978-ci ildə o zamanki SSRİ-də həyata keçirilən konstitusuya islahatları prosesində respublikanın yeni qəbul edilmiş konstitusiyasında məhz onun təşəbbüsü ilə Azərbaycan dili dövlət dili kimi təsdiq olundu.

Ulu Öndərin növbəti addımları sırasında respublikanın iqtisadi potensialının gücləndiliməsi məqsədi ilə ağır sənayenin inkişaf etdirilməsi, yeni-yeni müəssisələrin tikilməsi və əsasının qoymaqla bu sahədə güclü maddi-texniki baza yaratmaq, peşəkar milli kadrlar yetişdirmək idi.

Azərbaycanın zəngin yerüstü və yeraltı sərvətlərə malik olduğunu gözəl anlayan Ulu öndər hələ o zamanlar Azərbaycanı qarış-qarış gəzərək yerində vacib qərarlar qəbul edirdi. Onun tərəfindən keçirilən hər bir görüş, yığıncaq səmimi anları yaşlı nəsil əziz bir xatirə kimi yad edirlər. Bununla da O, əsl azərbaycanlı-rəhbər obrazını yaratdı. Respublikanın hər bir guşəsinə səfər edən, inkişafla maraqlanan, insanların həyat tərzi ilə tanış olan Heydər Əliyev bu siyasəti yorulmadan həyata keçirirdi. Bununla da O, Azərbaycan insanını daha yaxından tanıdı, onların ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək toplayıb bu ideologiyanın əsasını qoydu [3].

Sovetlər hakimiyyəti dövründə Heydər Əliyev, həmçinin, sənətdə uğurlar qazanan yaradıcı insanlarımızı, şairləri, yazıçıları, elm adamlarını dövlətin yüksək mükafatları ilə təltif etdirməklə hamıya öz rəhbər qayğısını göstərdi.

Müstəqilliyimizin ilk illərində respublikanın başının üstünü qara buludlar alanda, az qala vətəndaş müharibəsinin başlanması ərəfəsində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Ötən zamanlar göstərdi ki, müstəqillik yolumuz Ümummilli Lider Heydər Əliyevin parlaq zəkasının, Onun Azərbaycan torpağına, Azərbaycan insanına olan sevgisinin təzahürü kimi meydana çıxdı.

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olmuşdur. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilmişdir. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, onun demokratik inkişafını təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın

məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir [2].

Ona görə də "azərbaycançılığın" mahiyyəti müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir. O, ənənəvi mifləri və rəmzləri özündə birləşdirir, lakin bunlardan milli dövlətin simasında yeni fenomenlərin qorunması və əsaslandırılması üçün istifadə edir. "Azərbaycançılığın" gücü ondadır ki, o, xalqın milli-mədəni eyniyyətini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyllərini üzvi şəkildə birləşdirməyə qadirdir. Şübhəsiz ki, öz birliyinə mənsubiyyət hissi həyatın özünə də məna və əhəmiyyət verir, qarşılıqlı məsuliyyət və qarşılıqlı əlaqə hissini möhkəmləndirir və beləliklə, tənhalıq və qəriblik hissini azaldır. Bu ideologiya Azərbaycanda vahid birlik, vahid sosium formalaşdırır. Görünür, bu baxımdan bir sıra Qərb tədqiqatçılarının dəlilləri əsassız deyildir. Onlar hesab edirlər ki, insan "möhkəm köksalma və demək olar ki, tayfa mənsubiyyəti duyğulan doğuran tarixi ənənələrin mövcudluğu şəraitində özünü müdafiə olunmuş kimi hiss edə bilər" [1]. Üstəlik, cəmiyyətin mürəkkəbləşməsi, modernləşməsi, kosmopolitləşməsi, simasızlaşması və buna müvafiq surətdə köklərin itirilməsi ilə bu ehtiyac nəinki azalmır, əksinə, müəyyən şəraitdə qat-qat güclənir. Belə vəziyyətdə məhz dövlət - insan cəmiyyətinin bu özünütəşkil forması öz növbəsində, tam olmasa da, bir çox, bəlkə də bütün sosial fenomenlərin formalaşması və institusionallaşmasının amilinə çevrilir.

Ulu Öndərin respublikamızda əzəldən yaşayan müxtəlif xalqların, etnik qrupların, dini-konfessional qurumların fəaliyyətlərinin nizamlanması istiqamətində görüdyü işlər, məhz bu ideologiyanın reallaşmasının təməl prinsipləridir. Bu qurumların nümayəndələri ilə hər bir görüşündə H.Əliyev, onların hüquq və azadlıqlarının qorunması üçün zəruri şəraitin yaradılması üçün əlindən gələni edəcəyini vurğulaması, zəruri hüquqi-normativ sənədlərin tez bir zamanda qəbul edilməsi bu istiqamətdə vacib addımlardandır.

Ulu Öndər Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında dövlətin siyasətini səciyyələndirərkən onun ən üstün hissəsini vurğulamışdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Bu baxımdan, dövlət siyasətinin strategiyası olan "azərbaycançılıq" Azərbaycan cəmiyyətinin bugünü və gələcəyinin müasir ideoloji qavrayışı ilə sıx çulğaşır.

Azərbaycan xalqı, ictimaiyyətin nümayəndələri çox haqlı olaraq bu illər ərzində ölkədə bütün sahələrdə uğurlara aparan yolun parlaq bir yol olduğunu qeyd edir və bu yol Heydər Əliyev yolu adlandırılır. Bu gün ölkəmiz Ümummilli Liderin ideyaları – Heydər Əliyev yolu əsasında inkişaf edir. Azərbaycanın mövcudluğunun qorunub saxlanması, inkişafı, ölkəmizdə sabitlik və həmrəyliyin təmin olunması bilavasitə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır [3].

Demək lazımdır ki, neokonservatorlar dövlətin şəxsi həyata müdaxilə etməməsi fikrinə tərəfdardırlar, lakin onu da etiraf edirlər ki, xüsusi olmadan ümumi mövcud deyildir. Xalqın həyatının, onun formalaşmasının ali forması dövlətdir. Məhz buna görə də dövlətçilikdən məhrum

olmuş xalqlar çox vaxt ya tarix səhnəsindən silinib getmiş, yaxud da sərgərdan həyat sürmüşlər. Bu gün Azərbaycan öz vətəndaşlarının təhlükəsizliyini və sosial rifahını təmin etməyə qadir olan unitar, demokratik və hüquqi dövlətdir.

Milli-fəlsəfi fikrin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün milli-mənəvi abidələrin, bədii ədəbiyyatın rolu həqiqətən böyükdür. Bir millət üçün canlı tarix haradasa qırılanda, onun inkişafının daxili hərəkətverici qüvvələri məhdudlaşdırılanda, inkişaf kənar qüvvələrlə məqsədyönlü surətdə başqa səmtə istiqamətləndiriləndə milli genin heç olmazsa başqa ampluada, fövqəltarixi formalarda; fikirlərdə, xatirələrdə, ədəbiyyatda, incəsənətdə yaşadılması zərurəti yaranır. Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əqidələrin rəsmi təsir dairəsinə düşdükdə milli ruhu öz şəxsi həyatı bahasına, diri-diri yandırılması, dərisinin soyulması hesabına da olsa yaşadan və bir əmanət kimi yeni nəsillərə ötürən həqiqi böyük ziyalılar estafeti öz əllərinə almalı olurlar. Dövlət xadimləri, siyasətçilər, sərkərdələr öz tarixi ziyalılıq missiyasını yerinə yetirə bilməyəndə, milli ruh milli varlığın himayəsindən məhrum olanda, qılınc qələmlə vaxtında birləşməyəndə bütün ağırlıq qələmin, yaradıcı ziyalıların üzərinə düşür. Milli dövlətçilik kəsilməz bir proses kimi davam etsin deyə dövlətlərarası dövrdə kəsilməzliyi milli-mənəvi körpülər təmin etməli olur [1].

Milli dövlət isə bununla səciyyələnir ki, kimlərinsə milli dəyərləri öz qanı bahasına qoruyub-saxlamasına ehtiyac qalmır. Çünki o, ellikcə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və inkişaf etdirilir. Yəni dövlətçiliklə millilik birləşmiş olur. Bu bütün xalqların ən böyük arzusu, idealıdır. Biz bu gün məhz potensial milli birlik dövrümüzü yaşayırıq. Onun əsasını isə Heydər Əliyev qoymuşdur. Ona görə də, o, hər cür daxili qarşıdurmanın, habelə iqtidar-müxalifət qütbləş- məsinin fövqündə durur. Mənə belə gəlir ki, bunu həm YAP, həm də müxalifət partiyaları nəzərə almalıdır. Heydər Əliyev özü milli birlik ideyasının hər cür siyasi ambisiyalardan yüksəkdə durmalı olduğunu dəfələrlə qeyd etmişdir. "Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın" [3]. "Siyasi baxışından və cəmiyyətdə mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır. Mən xalqımızı dəfələrlə buna dəvət etmişəm, bütün vətəndaşlarımızı buna dəvət etmişəm. Bu gün mən bütün siyasi partiyaları, qurumları, təşkilatları - hamısını, bax bu yola dəvət edirəm" [4].

Dövlət hüquqi və siyasi aktlarla, dövlətçilik isə mənəviyyat və mentalitetlə bağlıdır. Dövlətçilik düşüncənin alt qatında, təhtəl şüurda, psixologiyada təzahür edir. Dövlətçilik siyasi müstəvidə milli özünütəsdiq prosesinin mahiyyəti, dövlət isə onun hansı isə konkret formada reallaşdırılması vasitəsidir [1].

Azərbaycançılıq ideologiyasının inkişafı Azərbaycanda elm və təhsilin inkişaf etməsində xüsusi rol oynamışdır.

Azərbaycanda elm və təhsilin inkişafı həmişə böyük şəxsiyyətlərin sayəsində irəliyə bilmişdir. Ulu Öndər Heydər Əliyevin böyük təşkilatçılığı sayəsində Azərbaycan Elmlər Akademiyası dünyada şöhrət qazandı, güclü elmi kadr potensialını yaratdı, maddi-texniki bazasını möhkəmləndirdi. Heydər Əliyevin özünün qeyd etdiyi kimi, akademiyanın əlli ilinin yarısından çoxu onun həyatı, rəhbərliyi ilə bağlı idi. Onun uzaqgörənliyi məhz elmi prinsiplərə, intellektual

potensiala arxalanmasında idi.

Heydər Əliyev Azərbaycana rəhbərliyə gəldiyi ilk günlərdən, 1969-cu ilin avqustundan respublika elmində cərəyan edən neqativ hallardan narahatçılığını qeyd edərik bildirmişdi ki, …Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər [1].

1997-ci ilin 31 yanvarında Ümummilli Lider Elmlər Akademiyasının rəhbərləri, həqiqi və müxbir üzvləri, aparıcı alimləri ilə görüşündəki çıxışında Elmlər Akademiyasına və onun alimlərinin əməyinə yüksək qiymət verməsi Azərbaycan elminin sabahına inamını və ümidini artırdı.

Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ənənəyə sadiq olaraq Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyinə həsr edilmiş təntənəli yığıncaqdakı çıxışında … Bütün dövrlərdə – 70-ci illərdə, ondan sonra, 90-cı illərdə Heydər Əliyevin elmə diqqəti və qayğısı çox yüksək səviyyədə idi. O, çox gözəl bilirdi ki, hər bir ölkənin, hər bir xalqın tərəqqisində elmin inkişafı müstəsna rol oynamasını bir daha vurğuladı [2].

1972-ci ildə gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında [2] və 1973-cü ildə kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında [3] qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılıb. Bu da öz növbəsində yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsində xüsusi rol oynadı.

Heydər Əliyevin keçmiş SSRİ-nin ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxuması üçün göstərdiyi fəaliyyət xüsusi vurğulanmalıdır [4]. Bu istiqamətdə əsaslı dönüş 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gəncin sovetlər ittifaqının o zamankı nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmələri idi ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə geniş imkanlar yaratdı.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymayıb, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşıb. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirib, mühüm tarixi fərman və sərəncamlar imzalayıb [5].

Ulu Öndər Heydər Əliyev təhsilin cəmiyyətin inkişafındakı rolundan danışarkən … Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycan yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir kimi fikrini dəfələrlə səsləndirmişdir [7].

1982-ci ilin sonunda Heydər Əliyevin keçmiş SSRİ-nin təhsil islahatlarına rəhbərlik etməsi ilə ümumtəhsilin inkişafında da müəyyən keyfiyyət dəyişmələrinə gətirib çıxartdı.

Heydər Əliyev 70-80-ci illərdə Azərbaycandan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirmişdir [1].

Azərbaycan müstəqillik qazandıqdan sonra cəmiyyətimizin hər bir sahəsində olduğu kimi,

təhsil sahəsində də bir canlanma, yeniləşmə nəzərə çarpmağa başladı. Ümummilli Liderimiz Heydər Əliyev siyasətin büyük təsiri nəticəsində irəliləyişlər olmuş, orta, orta-ixtisas və ali məktəblərdəə struktur dəyişiklikləri baş vermiş, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmış, problemin həlli üçün effektiv üsul və metoların tətbiqi önə çəkilmişdir.

Ümumiyyətlə, Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına və beynəlxalq standartlara cavab verən hazırkı səviyyəyə çatmasında Ümummilli Lider Heydər Əliyevin xidmətləri az olmamışdır. Əvvəldədə qeyd edilmişdir ki, Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibah dövrü 1970-ci ildən başlanılır. İndi ölkəmizdə faliyyət göstərən ümumi, texniki-peşə, orta ixtisas, ali eləcədə əlavə təhsil müəssələrinin geniş şəbəkəsi, güclü elmi-pedoqoji kadr korpusu öz mənbəyini məhz keçən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu işi gələcək inkişafın güclü təməlini qoymuşdur.

**Ədəbiyyat:**


1. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. — Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2002 — 232 səh.
2. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, səh.8.
3. Mosse G. Masses and Man. Nationalist and Fascist Perceptions. N.Y. 1980.
4. HeydərovF. "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir". https://sesqazeti.az/news/politics/651625.html
5. Heydər Əliyev. "Azərbaycan " qəzeti, 30 dekabr, 2000-ci il.
6. Xalq qəzeti. 11 may 2016-cı il
7. "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" Bakı, 1972
8. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyinə həsr edilmiş təntənəli yığıncaqdakı çıxışı. Bakı 2015.
9. Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında, Bakı, 1973.
10. Qasımlı M.C. Heydər Əliyev - istiqlala gedən yol: 1969-1987-ci illər; Nəşr ili, 2006; ISBN, 5-8025-001-00; Səhifə, 608.
11. Heydər Əliyev. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı , Bakı, 2002.
12. Heydər Əliyev. Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı
13. Heydər Əliyev milli təhsil nəzəriyyəsinin və yeni təhsil islahatının yarıdıcısıdır / Xəbərlər ADPU, № 5, 2007, s.21-27
14. Azərbaycan Respublikasının təhsil siyasıtinin əsas prinsipi / «Pedaqoji tədqiqatlar" I Buraxılış, 2000, s. 169-175

## BÖLMƏ I
## "HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TƏHSİLİNİN VƏ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA ROLU"

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

***Kərimli Tahir Mehdixan oğlu, b/m.***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
**tahir.kerimli52@mail.ru**

***Xülasə:*** *Məqalədə milli-mənəvi dəyərlərin qorunmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri işıqlandırılır. Bu məqsədlə dilimizin inkişaf etdirilməsi və qorunması ilə bağlı həyata keçirilən tədbirlərdən, dini dəyərlərimizin mühafizəsindən,yazıçı və şairlərimizin, mədəniyyət və incəsənət xadimlərinin mühafizə edilməsindən, dilimizin inkişaf etdirilib siyasət diplomatiya və dövlət dili səviyyəsinə qaldırılmasından, azərbaycançılıq məfkurəsindən bəhs edilir.*

***Açar sözlər:*** *Milli-mənəvi dəyər, azərbaycançılıq, dil, din, özünüdərk, milli məfkurə*

Əsrlər boyu milli cəmiyyətin sosial nizamını qoruyub saxlayan, fərdlərarası münasibətləri nizamlayan, cəmiyyətin üzləşdiyi ən müxtəlif problemlərin həllində açar rolunu oynayan milli-mənəvi dəyərlər həm də sərt sınaqlardan çıxaraq cilalanmış, möhkəmlənmişdir. Bu mənada Ulu Öndər Heydər Əliyev də Azərbaycanın milli-mənəvi dəyərlər sistemini qoruyan, inkişaf etdirən və onu özünüdərkin həlledici amilinə çevirən fenomenal lider kimi xalqımızın qəlbində yaşayır.

Tarixi təkamül prosesi göstərir ki, hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyətləri ilə bağlı olmuşdur. Nəcib əməllər sahibi olan belə insanlar həmişə ali məqsədlər uğrunda mübarizənin önündə dayanmış, əlverişli siyasi şansdan böyük məharətlə, siyasi ustalıqla bəhrələnmiş, xalqın düşüncə sistemini, özünəməxsus xüsusiyyətlərini istənilən ictimai-iqtisadi formasiyada hifz edərək möhkəm mənəvi təməl üzərində gələcəyə doğru inamla addımlamışlar.

Sovet imperiyasının süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini - əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq əsrin sonlarına doğru - müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Sağlığında Ümummilli Liderlik ucalığına qovuşmuş bu müdrik şəxsiyyət böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir. Bəli, əgər ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ötən əsrin 70-80-ci illərində Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən böyük işlər olmasaydı, biz bu gün Azərbaycanın suveren dövlət kimi mövcudluğundan danışa bilməzdik.

Hər bir millətin tarixi inkişafı, qarşıya qoyduğu hədəflərə yetişmək əzmi, ilk növbədə, onun

malik olduğu milli-mənəvi potensialdan, dəyərlər sistemindən qaynaqlanır. Zəngin milli-əxlaqi keyfiyyətlərini, milli "Mən"ini, heysiyyatını qorumağı bacaran xalq gələcək yaşam fəlsəfəsini düzgün müəyyənləşdirir, dünya miqyasında layiqli yerini, mövqeyini təmin edir. Bu həqiqəti hər zaman ciddiliklə nəzərə alan böyük strateq Heydər Əliyev Azərbaycanı qoruyub inkişaf etdirmək, hansısa mərhələdə milli müstəqilliyə qovuşdurmaq üçün ilk növbədə xalqın zəngin milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu şərtləndirən dəyərlərini qorumağa çalışmışdır.

1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Ulu Öndər xalqda milli heysiyyatı gücləndirmək, onu şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin mədəni irsini yaşatmaq üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Tarixi faktlara istinad etsək görərik ki, böyük strateq Heydər Əliyevin respublikaya rəhbərliyinin bütün fəlsəfəsi yalnız xalqın milli dirçəlişi, milli qürur hissinin oyanışı məramına hesablanmışdı. İdarəçilikdə bütün addımlar, o cümlədən iqtisadi inkişafın strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin etibarlı təməlinə çevrilməli idi. Bu məqsədə yetişmək üçün Heydər Əliyev azərbaycançılıq məfkurəsinin rejimin ideoloji represiya maşını ilə boğulmasına nəinki imkan verməmiş, eyni zamanda milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuş, nəticədə respublikada dissident yazarlar olmamışdır. XX əsrin70-ci illərində Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin, klassik yazıçı və şairlərinin xatirəsini əbədiləşdirən, onların əsərlərinin təkrar nəşrini təmin edən Heydər Əliyev milli ədəbi düşüncənin inkişafına da əsaslı təkan vermişdir.

Həmin dövrdə milli düşüncəli vətənpərvər ziyalılarımızın imperiyanın xüsusi xidmət orqanlarının təqiblərindən qurtulması, milli dövlətçilik hissinin güclənməsinə xidmət edən sanballı əsərlər yazıb-yaratması da Heydər Əliyevin xalqına necə bağlı şəxsiyyət olduğunu təsdiqləyir. Vaxtı ilə azərbaycançılıq məfkurəsini əsərlərində təbliğ etdiklərinə görə şovinizmdə, millətçilikdə günahlandırılan, təqiblərə məruz qalan Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Anar, Ziya Bünyadov kimi şəxsiyyətləri ən çətin məqamlarda qoruyan Heydər Əliyev milli kökə bağlı şəxsiyyət olduğunu bir daha sübuta yetirmişdir.

Tarixi zərurətin diktəsi, xalqın təkidli istəyi ilə 1993-cü ilin iyununda – taleyülkü bir zamanda müstəqil Azərbaycanın rəhbərliyinə qayıdan, məsuliyyətli bir missiyanı çiyinlərinə götürməkdən çəkinməyən Ulu Öndər Heydər Əliyev qısa zamanda dövlətçiliyin xilasına, ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının bərpasına, iqtisadi tənəzzülün qarşısının alınmasına nail olmaqla yanaşı, həm də milli-mənəvi, əxlaqi dəyərlərin deqradasiyası təhlükəsinin qarşısını almışdır. Bakıya qayıdandan sonra ilk görüş yerlərindən biri kimi məhz Azərbaycan Elmlər Akademiyasını seçən Ümummilli Lider Azərbaycanın humanitar və ictimai elmlərinin yeni dövrün tələblərinə uyğunlaşdırılması, azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin inkişafı ilə bağlı alimlər qarşısında yeni tələblər müəyyənləşdirmişdir.

Hələ sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənələri müstəqillik illərində inamla davam etdirən Ulu Öndər Azərbaycanın görkəmli şair və yazıçılarının,

elm və incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev muzeylərinin yaradılmasına xüsusi qayğı ilə yanaşmışdır. Heydər Əliyevin bu sahədəki mədəni quruculuq siyasəti nəticəsində milli-mənəvi dəyərlərimiz qorunmuş, adət-ənənələrimiz yaşadılmış, klassiklərimizin yüz illərin sınağından günümüzə gəlib çatmış mənəvi irsinin gələcək nəsillərə itgisiz çata bilməsi üçün lazım olan bütün zəruri addımlar atılmışdır.

Tarix sübut edir ki, hər bir xalqın vahid məqsəd uğrunda toparlanması üçün zəruri olan milli ideologiya da böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında real əsaslarını tapır. Şübhəsiz, milli ideologiya milli-mənəvi dəyərlər sisteminin əsas potensiyasının real siyasi məqsədlər naminə səfərbər edilməsidir. Milli ideologiyanın tələbləri sırasında dövlətçiliyin, milli mənafenin müdafiə edilməsi, miliyyətindən asılı olmayaraq hər bir vətəndaşın haqlarının ümumbəşəri tələblər səviyyəsində qorunması, milli azlıqların və etnik qrupların dilinin, mədəniyyətinin, adət-ənənələrinin inkişafına şərait yaradılması, dövlət idarəçiliyi orqanlarında onların düzgün təmsil olunması və s. amillər mühüm yer tutur.

Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbayçanlılarının I qurultayında dövlətin siyasətini səciyyələndirərkən onun ən üstün hissəsini vurğulamışdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qüru hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Bu baxımdan, dövlət siyasətinin strategiyası olan "azərbaycançılıq" Azərbaycan cəmiyyətinin bu günü və gələcəyinin müasir ideoloji qavrayışı ilə sıx çulğaşır.

Tarixin sınaqlarından çıxmış və bu gün danılmaz bir həqiqət kimi qarşımızda duran ən böyük fakt, birincisi, milli-etnik gerçəkliyin özüdür.

İkincisi, dildir – Azərbaycan dili Türk dilləri qrupuna mənsub olmaqla bərabər, müəyyən özünəməxsusluqları olan, ərəb və fars kəlmələri ilə, habelə beynəlxalq istilahlarla zənginləşdirilmiş bir dil, artıq adi ünsiyyət vasitəsindən elm və siyasət dilinə çevrilmiş kamil bir dildir. Təsadüfi deyildir ki, Heydər Əliyev Azərbaycan dilini milli varlığımızın əsas inteqrativ amili və eyni zamanda, tariximiz üçün açar hesab edir. Ulu Öndər sovet Azərbaycanında hakimiyyətə gəlişindən dərhal sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsinə qərar vermiş, 1969-cu il noyabrın l-də bu təntənəli tədbirdə totalitar sovet rejiminin tətbiq etdiyi bütiin baryerləri aşaraq Azərbaycan dilində çıxış etmişdir. 1974-cü ildə Azərbaycan dilinin tədqiqinə görə bir qrup dilçi alimin dövlət mükafatlarına layiq görülməsi, o cümlədən 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinin çapı da ulu öndərin ana dilinə böyük ehtiramla yanaşdığım göstərir. Həmin illərdə Azərbaycan Elmlər Akademiyası Dilçilik İnstitutunun yaradılınası da ana dilinin ictimai - siyasi nüfuzunun möhkəmləndirilməsi, ana dilinin tarixinə, dialcktologiyasına dair bir çox tədqiqatların meydana çıxmasını şərtləndirmişdir.

Heydər Əliyev ana dili məsələsindəki prinsipiallığı və təkidi sayəsində ziyalıları və geniş ictimaiyyəti dövlət dili ilə bağlı müzakirələrdə birmənalı mövqe tutmağa vaxtında hazırlaması nəticəsində o, 1978-ci ildə qəbul olunan yeni (indi artıq keçmiş) Azərbaycan Sovet Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının Dövlət dili olduğunu təsbit edən məşhur 73-cü maddəni daxil etməyə nail oldu. Həmin dövrdə Azərbaycan əsas qanun səviyyəsində milli dilə Dövlət dili statusu verən üç keçmiş sovet respublikasından biri və yeganə türk-müsəlman

respublikası idi. Şübhəsiz, bu uzaqgörən tarixi addım Heydər Əliyevin siyasi qətiyyətinin və ana dilinə məhəbbətinin parlaq ifadəsi və təzahürü idi. Prezident özü həmin dövrü belə xatırlayır: "Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxtlar mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamızda yazmalıyıq və yazacağıq" [.1. s.20].

Prezident Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1995-ci il oktyabrın 3l-də Azərbaycan Respublikası EA rəyasət heyətinin binasında yaradıcılıq ittifaqları və birliklərin, alimlərin iştirakı ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında dövlət dilinin adı məsələsi geniş müzakirə olundu. Ulu Öndər müzakirədə iştirak edən alimlərin hamısının çıxış etməsinə şərait yaratdı. Bu müzakirələr bir daha onun yüksək intellektual səviyyəsini, uzaqgörənliyini təsdiq etdi. O, çox məzmunlu nitqində Azərbaycan dilinin keçdiyi zəngin tarixi yolu təhlil edərək, obyektiv reallığı qiymətləndirərək düzgün nəticə çıxardı. Heydər Əliyev dedi: "Biz müstəqil dövlət kimi dünyada artıq öz yerimizi tutmuşuq. Ona görə də hansı qərar qəbul edəcəyiksə, gərək bu, milli mənliyimizə, milli məğrurluğumuza toxunmasın. Nizaminin sözləri də bizim üçün əzizdir, Füzulinin sözləri də bizə əzizdir, C.Məmmədquluzadənin, M.F.Axundovun sözləri də, Cavidin sözləri də bizim üçün əzizdir. Hamısı bizim üçün əzizdir. Amma bu gün reallıq var. Reallıq bütün bu tariximizin hamısından üstündür və bizim üçün gələcəyə böyük bir yol açır". Bu fikirlərdə Azərbaycan dilinin gələcək inkişaf yollarının aydın metodologiyası verilir Bu gün reallığı deyərkən möhtərəm prezidentimizin bizim dünyada "Azərbaycan Respublikası'', "Azərbaycan xalqı", "Azərbaycan dili" adları ilə tanınmaımızı bəyan edir (Bax. Y.Talıbov, F.Sadıqov, S.Quliyev. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi adlı dərs vəsaiti, Azərbaycan məktəb və pedaqoji fikir tarixində Heydər Əliyev dühası, XIII fəsil səh. 478-479).

Üçüncüsü, dindir. Azərbaycanda tarixən hansı dinlər olmuşdur? Və onlar müasir azərbaycanlının milli mədəniyyətinin və mənəviyyatının formalaşmasında na kimi iz qoyub getmişdir?

Lakin tarixin tarix yeri var, müasirliyin müasirlik yeri. Bu məsələdə bizi ən çox gerçəklik maraqlandırır. Əsrlərin mücadiləsindən çıxıb yaxın keçmişimizin və bu günümüzün mənəvi mənzərəsinin qərarlaşmasında ən mühüm rol oynayan din-islam dinidir. Burada da ancaq tarixə və daha doğrusu ideolojiləşmiş tarixə istinad edənlər atəşpərəstliyi, bütpərəstliyi və kim bilir, daha hansı pərəstliyi ön plana çəkməyə çalışırlar. Sovet dövlətinin ideologiyası məlum idi. Atəş- pərəstlik də, xürrəmilik də məhz islama, habelə digər dünya dinlərinə qarşı olduğu üçün ön plana çəkilir, azərbaycanlı lığın rəmzi kimi şüurlarımıza yeridilirdi. Lakin tarixi keçmişimizdə çox mühüm rol oynamış və müasir gerçəkliyimizdə də az-çox dərəcədə iz qoymuş xristianlıq nə üçünsə "unudulurdu". Məqsədyönlü surətdə unudulurdu, çünki bununla tarixi abidələrimizdən başqa bir xalqın (ermənilərin) istifadə etməsinə açıq-aşkar şərait yaradılırdı. Bizim öz tariximizi öyrənə bilmədiyimiz, "böyük qardaşın və qonşularımızın öhdəsinə buraxdığımız vaxtlarda, neçə-neçə maddi mədəniyyət abidələrimizin mənimsənilməsi, neçə alban kilsəsinin qriqoryanlaşdırıl- ması bir yana qalsın, Azərbaycanın köklü xalqlarından olan albanların və ya Azərbaycanda qədimdən məskən salmış tatların bir qismi məhz xristianlığa qulluq etdikləri üçün, "müsəlman olmayanlar ermənidir" prinsipi ilə erməniləşdirilmişdir. Müsəlman tatlar azərbaycanlıların formalaşması

prosesinə qatılmış, yahudiliyi qəbul edənlərin bir qismi isə hələ də özlərini fərqli saydıqlarından Avropaya, İzrailə və başqa ölkələrə köçmüşlər. Qədim türk tayfalarından olan xəzərlər yəhudi dinini qəbul etdikdən sonra özlərini digər türklərdən ayırmışlar.

Dini müstəvidə gedən proseslər bir çox hallarda milli mənsubiyyətin dəyişdirilməsi ilə nəticələnmişdir. Tariximizi yaxşı bilmədiyimizdən biz özümüz qədim soydaşlarımızın yadlaşmasına və hətta "ermənliləşməsinə" şərait yaratmışıq.

Məlum həqiqətdir ki, etnoqrafıya, toponimika, arxeologiya və maddi mədəniyyət nümunələri, ən başlıcası mədəniyyət, həmçinin milli-mənəvi mədəniyyət məsələləri daim Heydər Əliyevin diqqətində olmuşdur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması ilə bağlı xidmətləri inkaredilməzdir.

Siyasi liderliklə milli liderlik keyfiyyətlərinin bir şəxsdə birləşməsi bəşər tarixində çox nadir hallarda rast gələn haldır. Heydər Əliyev bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyy ət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi təsdiq etmişdir.

**Ədəbiyyat:**

1. Aqiyə Naxçıvanlı. "Müdriklik zirvəsi". Bakı, "Yazıçı" nəşriyyatı - 201 I, 302 səh.
2. Aqiyə Naxçıvanlı. "Şəxsiyyətin qüdrəti". Bakı, "Yazıçı" nəşriyyatı-2012, 304 səh.
3. Xəlilov S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi, - Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2002-232 səh.
4. Sadıqov F. Pedaqogika. "Adiloğlu" nəşriyyatı, Bakı, 2012, 551 səh.

## AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİ DANILMAZDIR

***Ələsgərov Baxış İslam oğlu, dosent***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
**elesgerov.adpu @ mail.ru**

***Xülasə:*** *Məqalədə Heydərn Əliyevin elm və təhsil sahəsində gördüyü məqsədyönlü işlərdən gərəkli islahatlardan bəhs olunur. Məqalədə ümumtəhsil məktəb şəbəkəsi ilə yanaşı ali məktəb sistyemindən də geniş bəhs edilir. Əsərdə yaxşı cəhət ondan ibarətdir ki, aparılmış elm və təhsil sahəsindəki islahatlar xronoloji ardıcıllıqla verilmişdir. Bütün bunlar ulu öndərin müəllim əməyinə verdiyi əyani təzahürüdür.*

***Açar sözlər:*** *təhsil islahatı, kadr potensialı, hərbi kadr hazırlığı, dahi rəhbər, məktəb şəbəkəsi.*

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır", - deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edib. Ötən əsrin 70-ci

illərindən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları bu sahənin inkişafında xüsusi mərhələ təşkil edir.
Azərbaycan təhsilinin inkişafında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərinə nəzər salaq.

Təhsilimizin gələcək inkişafına zəmin yaradan islahatlar.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirilən təhsil islahatları bu sahənin inkişafına zəmin yaratdı. Hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı. [1.]

Həmin dövrdə təhsilin inkişafına xüsusi diqqət məktəb tikintisində də özünü göstərdi. 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən üç dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdı. Şagirdlərin sayı 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minə yüksəldi. 1970-1980-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verildi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi. [1.]

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7, təhsilalanların sayı isə 2,5 dəfə artdı. Onun təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirildi, 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başladı.

Ali təhsil sistemində və milli kadr potensialının gücləndirilməsi.

Dahi rəhbərin təhsil siyasətində ali məktəblərin fəaliyyətinin daha da yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi xüsusi yer tuturdu. 1969-cu il noyabrın 1-də Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Heydər Əliyev ana dilində söylədiyi nitqində ali təhsil sahəsində qarşıda duran vəzifələrdən danışdı. Bu, təkcə universitet kollektivi deyil, bütün Azərbaycan cəmiyyəti üçün milli ruhun oyanması istiqamətində bir dönüş anı oldu. Universitetin Azərbaycan xalqının həyatında, Azərbaycan elminin inkişafında mühüm rolunu vurğulayan Heydər Əliyev dedi: "1919-cu ildə, Azərbaycanın ictimai dairələrində universitet açmaq haqqında məsələ müzakirə olunduqda bəziləri şəkk gətirib deyirdilər ki, bu iş baş tutmayacaqdır, yaxşısı budur gəncləri xarici ölkələrin tanınmış universitet mərkəzlərində təhsil almağa göndərək. Bu gün biz həmin inamsızlara deyə bilərik ki, dörd qitənin elçiləri təhsil almaq üçün Azərbaycana gəlirlər".

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanına rəhbərlik etdiyi 1969-1982-ci illərdə beş yeni ali təhsil müəssisəsi açıldı və ali məktəb tələbələrinin sayı 70 mindən 100 minədək artdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəbdə 105 fakültə, 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

Respublika rəhbərinin təşəbbüsü və himayəsi sayəsində 1970-ci ildən başlayaraq hər il gənclər SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. 1970-1980-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində 250-dən çox ixtisas üzrə 15

mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına şərait yaradıldı. Bu isə respublikanın milli kadr potensialının daha da gücləndirilməsində mühüm rol oynadı.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu 1982-1987-ci illərdə də Azərbaycan gənclərinin respublikanın hüdudlarından kənarda təhsil almasına şərait yaradırdı. Tez-tez azərbaycanlı tələbələrlə görüşür, onların problemlərinin həlli üçün bütün imkanlardan istifadə edirdi. Onları "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirirdi.

Azərbaycanda hərbi kadr hazırlığının başlanğıc istiqamətləri.

Dahi rəhbəri düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi idi. Onun təşəbbüsünün və uzaqgörənliyinin nəticəsi olaraq 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Ulu Öndər taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşır və onların xidmətlərini həmişə yüksək qiymətləndirirdi. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu olub. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər.

Beləliklə, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, azərbaycanlı gənclərin respublika hüdudlarından kənardakı ali məktəblərə təhsil almağa göndərilməsi, hərbi kadrların yetişdirilməsi, Respublika Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaradırdı.

Dünya təhsil sisteminə inteqrasiya istiqamətində atılan ilk addımlar.

"Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. Nəzərə almaq lazımdır ki, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın təcavüzkar siyasəti nəticəsində soydaşlarımızın deportasiyası və Qarabağın dağlıq hissəsinin işğal edilməsi ilə bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi Azərbaycan təhsili üçün əlavə çətinliklər yaratmışdı. Respublikanın çox ağır vəziyyətində rəhbərliyə qayıdan Heydər Əliyev bir çox problemləri həll etməklə yanaşı, təhsil sahəsində zamanın tələblərinə uyğun islahatlar həyata keçirməyə başladı. 1991-1993-cü illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirildi, planlı islahatların əsası qoyuldu. Ümumtəhsil məktəblərinin sayı və şagird kontingenti əsaslı surətdə artdı. Əgər 1993-1994-cü tədris ilində respublikanın 4364 ümumtəhsil məktəbində 1 milyon 549 min şagird təhsil alıbsa, 2002-2003-cü tədris ilində 4561 ümumtəhsil məktəbində 1 milyon 600 min nəfərdən çox yeniyetmə təhsilini davam etdirirdi. [3.]

Bununla yanaşı, təhsil sisteminin maddi-texniki bazası yaxşılaşdırıldı, 200 yeni məktəb binası tikilərək istifadəyə verildi, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edildi. İstedadlı uşaqların qabiliyyətini inkişaf etdirmək məqsədilə 30-a yaxın lisey və gimnaziya təşkil edilərək buraya 12 minə yaxın şagird cəlb olundu.

"Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir", - deyən Ulu Öndər Azərbaycanda dünyanın inkişaf etmiş

ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb. 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. [3.]

"Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb. [1.] Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının tədrisinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı. Əlbəttə ki, Heydər Əliyevin Azərbaycan dili ilə bağlı gördüyü işlər ayrıca bir yazının mövzusudur. Təkcə onu xatırladaq ki, 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyanda Azərbaycan dilinin ana dili kimi təsbit edilməsi, o illərdə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət Mükafatının verilməsi Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının, sevgisinin əyani təzahürü idi.

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" 2002-ci il 4 oktyabr tarixli, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" 2003-cü il 17 fevral tarixli sərəncamlar ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaradıb, mövcud problemlərin aradan qaldırılması yönümündə mühüm addımlar oldu.

İslahatlar təkcə təhsil müəssisələrini əhatə etmir, gənclərin təhsilə həvəsləndirilməsi üçün də əsaslı işlər görülürdü. Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında 2001-ci il 3 sentyabr tarixli Fərman bunun bariz nümunəsidir.

Müəllim əməyinə verilən ən yüksək qiymət.

"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram",-deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalırdı.

Ulu Öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin

tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq".

Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların fəxri adlarla və digər dövlət mükafatları ilə təltif edilməsinə dair bir çox sərəncamlar imzalayıb. Bütün bunlar Ulu Öndərin müəllim əməyinə verdiyi qiymətin əyani təzahürüdür. [3.]

**Ədəbiyyat:**


1. İnternet materialları.
2. Təhsil sisteminin təkminləşdirilməsi haqqında dövlət proqramı. 2000-ci il.
3. Təhsil sahəsində islahat proqramı (1999-15 iyun).
4. Azərbaycan qəzeti. 2001-ci il.


## TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR


***Məmmədov Sabir Rüstəm oğlu***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
**vilayetmemmedov1980@mail.ru**
***Cəfərov Fazil Tatarxan oğlu***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının dos.v.i.e.***
**faziljafarov@yahoo.com**



***Xülasə:*** *Xalqımızın Ümummilli lideri, mərhum prezidentimiz Heydər Əliyev vaxtılə təhsil işçiləri ilə keçirdiyi görüşlərin birində demişdir: "Təhsil dövlətin əsas dayaqlarından biridir". Ona görə də bu sahəyə hər zaman dövlət qayğısı artırılmalıdır deyə o, zamanında tapşırıqlarını da vermişdir. Elə bu səbəbdən də, dövlətimiz təhsilimizin inkişafına, problemlərinin həllinə göstərdiyi diqqət və qayğını, bu gün də artırmaqdadır.*



***Acar sözlər:*** *Təhsili Azərbaycanın davamlı inkişafının əsas amilərindən biridir, Ulu öndər Heydər Əliyevin müstəqillik illərində də elm və təhsilin inkişafını diqqəti,"Təhsil millətin gələcəyidir", Ulu öndərin təhsil siyasəti konsepsiyası, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, ""Qara qızıl"ı insan kapitalına çevirmək" strategiyası.*


Son illər bir çox sahələr kimi, respublikamızda təhsilin inkişafına, problemlərinin həllinə xüsusi diqqət yetirildi, ildən-ilə bu yöndə dövlət qayğısı da artırıldı. Artıq yeniləşən təhsilimiz, bu gün bir çox göstəricilərinə görə dünyanın aparıcı dövlətlərinin təhsili ilə eyniləşdirilir.

Təhsili Azərbaycanın davamlı inkişafının əsas amilərindən biri hesab edən hörmətli prezidentimiz İlham Əliyev cənabları da, prezident seçildiyi ilk gündən respublikamızda təhsilin inkişafına diqqət və qayğı ilə yanaşmış, eyni zamanda Azərbaycanı dünya təhsil sisteminin inkişaf göstəricilərinə cavab verən bir dövlətə çevirmək üçün, daim əzmlə çalışmış və əldə olunan nəticələr də göz önündədir.

Müasir dövrümüzün inkişafı, tərəqqisi, yaxud da problemlərinin həlli, yalnız və yalnız təhsilimizin inkişafından asılıdır desək, yəqin ki, yanılmarıq. Çünki, təhsilimizi inkişaf etdirmədən qarşımızda duran problemlərimizi, yaxud da həlli vacib olan məsələlərimizi həll edə bilmərik. Bir sözlə, respublikamızda təhsilin səviyyəsi, onun keyfiyyət göstərici yaşadığımız cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən başlıca amildir. Bəli, fəxrlə qeyd edə bilərik ki, son illər respublikamızda təhsilin inkişafı, onun keyfiyyət göstəricisinin müəyyən tələblərə cavab verməsi yöndə lazımi addımlar atıldı və bu gün də atılan addımlar bəhrəsini verməkdədir.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır.

Ulu Öndər Heydər Əliyev təhsili həmişə millətin gələcəyi hesab edərək demişdir: "Təhsil millətin gələcəyidir".

"Təhsil millətin gələcəyidir", - söyləmiş Ulu Öndər Heydər Əliyevin müvafiq sahədə siyasəti Prezident İlham Əliyev tərəfindən, habelə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrlə də uğurla davam etdirilir [1].

Heydər Əliyev Fondu Azərbaycanın sosial-iqtisadi inkişafının prioritet istiqamətlərindən biri kimi qəbul edilmiş təhsil sahəsinin inkişafına diqqət və qayğı ilə yanaşır. Fond xalqımız tərəfindən də böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" kimi bir sıra mühüm layihələri uğurla gerçəkləşdirib. Fondun təhsillə bağlı hədəf götürdüyü əsas məqsəd Azərbaycanda bu sahəni inkişaf etdirərək onu beynəlxalq standartlara uyğunlaşdırmaqdır. 2005-ci ildən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının da əsas məqsədi təhsil sahəsində problemlərin aradan qaldırılmasıdır. Sözügedən layihə çərçivəsində hətta respublikamızın ən ucqar regionlarında da bütün zəruri avadanlıqla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəblər tikilərək istifadəyə verilib. Belə ki, 2005-2012-ci illər ərzində ölkənin müxtəlif bölgələrində 100 mindən çox şagirdin təhsil aldığı 400-dək məktəb binası inşa edilib və yenidən qurulub. Bu məktəblərin hər birində kitabxana, yeməkxana, müasir laboratoriya, ən müasir avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi mövcuddur. Təkcə bu tədris ilində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə, o cümlədən Bakı, Gəncə və Mingəçevir şəhərlərində, eləcə də müxtəlif rayonlarda 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin ixtiyarına verilib.

Təhsil siyasətində atılan addımlar orta məktəblərlə məhdudlaşmır. Belə ki, dövlətimiz ali təhsil müəssisələrinin əsaslı təmirinə, orada əldə olunan bilik və bacarıqların, təhsil mühitinin və şəraitinin beynəlxalq standartlarla ayaqlaşmasına xüsusi önəm verir.

Bütün bu sadalanan amillər isə dövlətimizin başçısı tərəfindən uzaqgörənliklə müəyyən edilən və 2004-cü ildə bəyan edilmiş "Qara qızıl"ı insan kapitalına çevirmək" strategiyasına bilavasitə

xidmət edir. Əsas istiqamət isə bəllidir - Azərbaycanda həm təhsilin maddi-texniki bazasını möhkəmləndirmək, həm də onun keyfiyyətini artırmaq. Dövlətin təhsil siyasətinə göstərdiyi diqqət və qayğı qısa zaman kəsiyində müsbət nəticəsini verir. Belə ki, Azərbaycan məktəbliləri beynəlxalq olimpiadalarda yüksək yerlər qazanırlar. Eyni zamanda, cəmiyyətdə müəllim peşəsinə maraq bərpa olunub və artmaqdadır. Nəinki paytaxt, region məktəbliləri də qəbul imtahanlarında yüksək bal toplayırlar. Müəllimlərin həyat səviyyəsinin yaxşılaşdırılması ilə əlaqədar olaraq onların əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlər yüksək maaş alırlar [2:3].

Prezident İlham Əliyev cəmiyyətin və dövlətin inkişafında xalqın intellektual potensialının yüksəlməsinin, gənclərin savadlı, bilikli, vətənpərvər və milli ruhda böyüməsinin əhəmiyyətini görür, müstəqil dövlətimizi daha da inkişaf etdirəcək, onun müstəqilliyini qoruyacaq yeni nəslin formalaşdırılmasını başlıca vəzifələrdən biri hesab edir və bu istiqamətdə ardıcıl, məqsədyönlü, düşünülmüş siyasət həyata keçirir.

Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, müasir dünyada hər bir ölkənin uğurlu inkişafını onun intellektual potensialı müəyyən edəcək. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər yetirmək kifayətdir ki, onların məhz biliyin, savadın, texnologiyaların hesabına inkişaf etmiş olduğunu görürük. Bu gün dünya üçün yeni texnologiyalar təqdim edən ölkələr inkişaf etmiş ölkələrdir və onların bir çoxunda təbii resurslar yoxdur. Odur ki, hər bir ölkənin inkişafı onun təbii resursları ilə ölçülmür və gələcəkdə bu özünü daha qabarıq şəkildə büruzə verəcək. Heç şübhəsiz ki, təhsilə qoyulan vəsait hər bir ölkənin gələcəyinə, müstəqilliyinə, təhlükəsizliyinə qoyulan vəsaitdir. Bu baxımdan Azərbaycanda büdcə xərcləri arasında təhsil sahəsinə ayrılan xərclər ikinci yerdədir. Bunun isə səbəbi ölkəmizin müharibə şəraitində olmasıdır. Belə olmasa idi, bu xərclər ilk yerdə olardı.

Gələcəkdə ölkəmizi idarə etmək və layiqli təmsil etmək üçün gənclərimizin bilikli, savadlı olması ən ümdə vəzifələrdən biridir. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, Azərbaycanın gələcəyi bu gün məktəblərdə, ali məktəblərdə oxuyan uşaqların, şagirdlərin, tələbələrin əlində olacaq və onların bilikləri, savadı ölkəmizin gələcəyini şərtləndirəcək. Bundan əlavə, gənclərimiz, uşaqlarımız vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər - ənənəvi Azərbaycan dəyərləri əsasında tərbiyə almalıdırlar. Burada isə düstur çox sadədir. Ailələrin rolu və bütün məktəblərdə müəllimlərin şagirdləri milli ruhda, ənənəvi dəyərlər ruhunda tərbiyə etmələri müstəsna əhəmiyyət kəsb edir [4].

Dövlətin 2020-ci il hədəflərində təhsilin xüsusi çəkisi digər sahələrlə müqayisədə xeyli dərəcdə artıqdır. Bunu "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə yeni dövlət strategiası"nda aydın şəkildə görmək mümkündür. Bundan əlavə ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir.

Məqalədə nəticə olaraq onu qeyd etmək olar ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"da ümümtəhsil məktəblərində tədris, Ali təhsilin istiqamətləri və ümümlikdə təhsilə baxış bucağının dəyişdirilməsinə zəmin yaradan hədəflər müəyyən olunub ki, buda təhsilimizdə əsaslı və sistemli dəyişikliklərin başlamasından xəbər verir

**Ədəbiyyat:**

1. Mərdanov M.C və Quliyev Ə. Heydər Əliyev. Təhsil millətin gələcəyidir Bakı, “Təhsil”, 2002.
2. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, «Çaşıoğlu», 2009.
3. Mərdanov M.C. «Azərbaycan təhsili dünən, bu gün, sabah». Bakı, Təhsil,2006.
4. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. Bakı, «Çaşıoğlu», 2005.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN TƏHSİLİNİN HAMİSİDİR

***Hüseynov Məhəmməd Allahverdi oğlu***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının dosenti***

***Xülasə:*** *Məqalədə göstərilir ki, Ulu Öndər Heydər Əliyev həyatda şərəfli, təkrarolunmaz, mənalı ömür sürmüş, öz taleyini Azərbaycan xalqı ilə sıx bağlamış və azərbaycanlı olması ilə daim fəxr etmişdir. Bu müdrik insan dərin zəkası, polad iradəsi ilə dünya liderlərinə nümunə olmuşdur. Heydər Əliyev bütün ömrünü müstəqilliyimiz və suverenliyimizin möhkəmlənməsinə həsr etmiş, şərəfli həyat yolu keçmişdir. Məqalədə nəzərə çatdırılır ki, Ulu Öndərin axıra çatdıra bilmədiyi məsələlər Prezident İlham Əliyev tərəfindən uğurla həll edilmiş, 44-günlük Vətən Müharibəsi nəticəsində işğal altında olan torpaqlarımız mənfur düşməndən təmizlənmiş, Ermənistan kapitulyasiya aktına qol çəkməyə məcbur edilmişdir. Məqalədə haqlı olaraq qeyd edilir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası dünyanın qüdrətli dövlətlərindən birinə çevrilmişdir.*

***Açar sözlər:*** *suveren, strategiya, prioritet, konsepsiya, praqmatik*

Azərbaycan tarixinin o qədər də sadə olmayan bütöv bir qərinəsi dünya şöhrətli siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır. Bir-birindən köklü surətdə fərqlənən iki tarixi dövrdə Azərbaycana rəhbərlik edən Heydər Əliyev ömrünün son dəqiqəsindək Vətəni və xalqı haqqında düşünüb. Siyasi fəaliyyətinə xalqının layiqli övladı kimi başlayan bu müdrik polad iradəli insan şərəfli, təkrar olunmaz bir həyat sürüb, mənalı ömrünü millət atası kimi başa vurub. Azərbaycanlı olmağı ilə həmişə fəxr edən böyük Öndərimiz bütün ömrünü xalqının rifahına, ölkəsinin tanınmasına, onun güclü dövlət olmasına sərf etdi.

1969-cu ilin iyul ayında Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi.O vaxta qədər Azərbaycan geridə qalmış aqrar respublika idi, ittifaq miqyasında sonuncu yerlərdən birini tuturdu. Zəngin təbii sərvətləri olan xalq ehtiyac içərisində yaşayır, sovet rəhbərliyi tərəfindən daim tənqid olunurdu.Odur ki, respublikanın yeni rəhbəri regionlara səfər edir, zəhmətkeşlərlə görüşür,

onların problemlərini öyrənir, respublikamızı inkişaf etdirməyin yollarını araşdırırdı.Tezliklə respublikada çox böyük islahatlar, sosial-iqtisadi tədbirlər həyata keçirməyə başlandı.Tezliklə hər şey dəyişdi. Bir neçə ilə bölgələrdə insanların yaşayış səviyyəsi yaxşılaşdı, rayonların büdcələrinə xeyli vəsait toplandı. Azərbaycanın elə bir şəhəri, qəsəbəsi, kəndi yox idi ki, orada tikinti quruculuq işləri aparılmasın, məktəblər, xəstəxanalar, yaşayış binaları tikilməsin.

Ümummilli Liderimiz Heydər Əliyevin ölkəyə rəhbərliyinin birinci dövründə (1969-82) Azərbaycan Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevrildi, sənaye və kənd təsərrüfatı sahəsində böyük nailiyyətlər qazanıldı. Heydər Əliyevin sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində respublikamız hər il ittifaqın Keçici Qırmızı Bayrağına layiq görüldü.

Həmin dövrdə Azərbaycanda təhsil sahəsində də çox böyük uğurlar qazanıldı. Hər il yüzlərlə azərbaycanlı gənc başqa şəhərlərə oxumağa göndərildi. Azərbaycanda ali təhsil ocaqlarının sayı 12-dən 17-yə çatdırıldı.

Dahi şəxsiyyət Azərbaycanda rəhbərliyə başladığı ilk günlərdən təhsilin inkişafına mane olan amilləri aradan qaldırmaq üçün ciddi mübarizə tədbirlərinə başlamış, ölkəmiz üçün layiqli vətəndaşların yetişdirilməsini günün başlıca vəzifəsi hesab etmişdir.

Heydər Əliyev ilk dəfə Azərbaycanda rəhbər olduğu illərdə respublikamız hərtərəfli inkişaf etdi, tanındı. Hətta xarici ölkələrlə də əlaqələr quruldu. Azərbaycanda istehsal olunan məhsullar dünyanın onlarla ölkəsinə göndərilirdi.

Ulu Öndərin nüfuzunu və təşkilatçılıq bacarığını nəzərə alıb 1982-ci ilin dekabrında onu SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini və Sov. İKP MK-nin Siyasi Burosunun üzvü seçdilər.Tam cəsarətlə demək olar ki, SSRİ-də ən çox quruculuq işləri həmin dövrdə həyata keçirildi. Heydər Əliyev Sovetlər ittifaqında çox cəsarətli rəhbər kimi tanınırdı.1986-cı ilin aprelində Çernobl qəzasının baş verdiyi əraziyə SSRİ rəhbərliyindən ancaq Heydər Əliyev getmişdi və lazımı tədbirlərin görülməsinin də təşəbbüskarı o, olmuşdur. [2].

Təsadüf nəticəsində SSRİ-də hakimiyyətə gəlmiş, ermənipərəst M.Qorbaçov bu qədər nüfuzlu, dünya şöhrətli siyasi xadimi rəhbərlikdə görmək istəmirdi. Belə ədalətsiz münasibətə etiraz olaraq Heydər Əliyev 1987-ci ilin oktyabrında partiya və dövlət vəzifələrindən istefa verdi. Bundan sonra Azərbaycan–Ermənistan, Dağlıq Qarabağ münaqişəsi baş verdi.

1990-ci ildə Heydər Əliyev Azərbaycandan uzaqda – Moskvada xüsusi nəzarət altında yaşayırdı. Ancaq 20 yanvar faciəsinin ertəsi günü özünün və ailə üzvlərinin həyatını ciddi təhlükə qarşısına qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib M.Qorbaçovun əleyhinə sərt bəyanatla çıxış etməsi göstərdi ki, bu böyük şəxsiyyət üçün Vətənimdən, Xalqımdan əziz heç nə yoxdur.

Həmin dövrdə Azərbaycanda hakimiyyətdə olanlar milli xəyanət yolunu tutmuşdular. Ölkənin həyati əhəmiyyətli məsələlərini bir tərəfə qoyub Heydər Əliyevə qarşı çirkli kompaniya aparılırdı. Lakin bütün bunlara baxmayaraq 20 yanvar faciəsindən sonra Azərbaycan xalqının ümidi ancaq Heydər Əliyevə qalmışdı. Belə bir şəraitdə Azərbaycan xalqının qabaqcıl ziyalıları, elm, mədəniyyət xadimləri yaranmış böhranlı vəziyyətdən çıxış yolunu, ölkənin etibarlı gələcəyini dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin simasında görürdülər. Bu məqsədlə Azərbaycanın vətənpərvər ziyalıları və qədirbilən xalqımızın əksəriyyət hissəsi Heydər Əliyevə müraciət edərək ölkəni düşdüyü bəladan xilas etməsini xahiş etdilər.

1993-cü ilin iyunun 15-də Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə qayıdışı, Milli Qurtuluş Günü, xalqımızın nicat gününün başlanğıcı oldu. Təcrübəli siyasətçi və dövlət xadimi Heydər Əliyev öz nüfuzuna, bacarığına və xalqına arxalanıb insanları azərbaycançılıq, müstəqil dövlətçilik və demokrtatik ideyalar ətrafında birləşdirib yeni dövlət quruculuğuna başladı. Ulu Öndərin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində ölkədə ictimai-siyasi sabitlik yarandı, həyatın bütün sahələrini bürümüş tənəzzülə son qoyuldu.

Ölkədə müharibə gedirdi. Torpaqlarımızın 20 %-ə yaxını mənfur qonşular tərəfindən işğal edilmişdi. Belə bir vaxtda dövlətçiliyi, müstəqilliyi qoruyub saxlamaq üçün müharibəni dayandırmaq lazım idi. Nəticə də 1994-cü ilin mayın 12-də Bişkəkdə Ermənistanla atəşkəs haqqında saziş imzalandı. [1].

1995- ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitutusiya aktı qəbul edildi. Bilavasitə Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu sənəd Azərbaycanda insan hüquq və azadlıqların qorunması və təmin olunmasında yeni mərhələ açdı. Konstitutusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, dövlətin demokratik, hüquqi və dünyəvi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuşdur.1998-ci il 10 fevral tarixli Azərbaycan Respublikasının qanunu ilə ölüm cəzası ləğv olunaraq ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz olundu. [2].

Şərqdə ilk dəfə məhz bizim respublikamızda ölüm cəzasının ləğv edilməsi dünyada böyük əks-səda doğurdu. Möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən bu tədbir respublikamızın Avropa hüquq məkanına inteqrasiyası sahəsində cəsarətli bir addım oldu.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqına qarşı aparılan pərdəarxası oyunlara, siyasi anarxiya və zərərli eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı alınmış, qanunsuz silahlı dəstələr ləğv olunmuşdu. Bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı.

Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevi qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır.

Qarşıda duran mühüm məsələlərdən biri də ölkənin sərvətlərindən, xüsusəndə dənizin və yerin tərkibindəki neft ehtiyatlarından səmərəli istifadə etmək idi. Bunun üçün 1994-cü il sentyanbrın 20-də dünyanın 6 ölkəsinin 12 neft şirkəti ilə 30 il müddətinə "Əsrin müqaviləsi" adlanan saziş imzalandı.

Cəmiyyət və dövlət həyatının bütün sahələrində əsaslı islahatlar keçirildi. Keçmiş postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda dövlət başçısı Heydər Əliyevin göstərişi ilə torpaq islahatı aparıldı. Kolxoz və sovxozların ləğv edilməsi əvəzində şəxsi və fermer təsərrüfatlarının yaradılması kənd təsərrüfatına yeni həyat verdi. Bazar iqtisadiyyatına keçildi, bir çox müəssisələr özəlləşdirildi və sərbəst sahibkarlıq fəaliyyəti üçün əlverişli şərait yaradıldı.

Ulu Öndər bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də prinsipial və ciddi dəyişikliklərin əsasını qoydu. Dövlətimizin xarici siyasət konsepsiyasını açıqlayan Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə əlaqədar olaraq keçirilən andiçmə mərasimindəki çıxışında deyirdi: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən səriştəli xarici siyasət

yeridilməsidir... Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa olsun, respublikanın suverenliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq". [3].

Heydər Əliyev bütün beynəlxalq amilləri nəzərə alaraq Azərbaycanın yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirdi. Ən başlıcası isə erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq üçün vacib işlər həyata keçirdi. Ulu Öndərin gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan 2001-ci ildə Avropa Şurasına tam hüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qoşuldu və burada öz layiqli yerini tutdu.

Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə fəal iştirakıdır. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq edir.

Ümumiyyətlə, müstəqilliyimiz dövründə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət strategiyası ölkəmizin beynəlxalq mövqelərinin mökəmlənməsinə, dünyada Azərbaycanın dostlarının və həmfikirlərinin sayının artmasına, xarici siyasətimizin nüfuz dairəsinin genişlənməsinə səbəb olub, respublikamızın dünya siyasətindəki rolu nəzərəçarpacaq dərəcədə artıb.

Göründüyü kimi Ulu Öndər bütün mənalı həyatını Azərbaycan xalqına xidmətə, müstəqilliyimiz və suverenliyimizin möhkəmlənməsinə həsr etmiş, şərəfli bir həyat yolu keşmişdir.

Ümummilli Lider deyirdi: " Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil.Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır". [1].

Böyük realist və proqmatik siyasətçi olan Heydər Əliyev insan üçün əbədi olmayan dünyanın təbii qanunlarına bələd idi. Elə bu səbəbdən də müstəqilliyin ən məsul dövründə olan Azərbaycanı gələcəkdə məsuliyyətlə idarə edəcək liderin kim olacağı sualı onu çox düşündürür və narahat edirdi. O bu məsələni həll etməli idi. Nəticədə Heydər Əliyev övladı, gənc siyasətçi İlham Əliyevin üzərində dayandı və doğma xalqına müraciət ünvanlayaraq yazırdı: "O, yüksək intellektli, proqmatik düşüncəli müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... inanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başqa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" [3].

Tarix bu böyük dahinin uzaqgörənliyini bir daha təsdiqlədi. Ulu Öndərin axıra çatdıra bilmədiyi – Qarabağ məsələsi İlham Əliyev tərəfindən həll edildi. 2020-ci ildə 44 günlük Vətən Müharibəsi nəticəsində işğal altında olan torpaqlarımız mənfur düşməndən təmizləndi, Ermənistan kapitulyasiya aktına qol çəkməyə məcbur edildi.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz böyük inkişaf yolundadır.Ulu Öndər Heydər Əliyevin yaratdığı və sarsılmaz təməl üzərində tərəqqi edən Azərbaycan Respublikası dünyanın qüdrətli dövlətlərindən birinə çevrilməkdədir.

Ulu Öndər ideyaları yaşayır və yaşayacaqdır!

**Ədəbiyyat:**

1. Xalqa bağışlanan ömür.II kitab.Bakı, 2004.
2. Şəxsiyyətin qüdrəti, Bakı, 2012.
3. Müdriklik zirvəsi, Bakı, 2011.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL STRATEGİYASI

***Mikayılova Fəridə Mürşüd qızı,***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***

***Xülasə:*** *XX əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük siyasi Lider Heydər Əliyevin təhsil sahəsində apardığı uğurlu islahatlar gələcək nailiyyətlərimiz üçün geniş zəmin və əlverişli şərait yaratmışdır. Keçən əsrin son qərinəsində, xüsusən müstəqillik dövründə təhsil sahəsindəki köklü dəyişikliklər xalqımızın misilsiz təəssübkeşi Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinin nəticəsidir.*

***Açar sözlər:*** *Fəal təhsil, konsepsiya, strategiya, intellektual, inteqrasiyasıya*

Heydər Əliyevin Sovet dönəmində respublikada rəhbərlikdə olduğu 1969-1982-ci illərdə Azərbaycan hökümətinin diqqət mərkəzində duran ən ümdə vəzifələrdən biri elmin və təhsilin inkişafına diqqət və qayğının artırılması olmuşdur. Respublika rəhbəri milli təhsilin səviyyəsini və keyfiyyətini yüksəltmək üçün fəal təhsil və kadr konsepsiyasını irəli sürdü. Ali məktəblərə qəbul sahəsində neqativ hallara qarşı sərt mübarizə başlandı.Təhsildə islahatlar dönüş xarakteri aldı, yeni ali məktəblər və onların filialları yaradıldı. Keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarına azərbaycanlı tələbələrin göndərilməsi geniş miqyas aldı. Heydər Əliyevin rəhbər seçilməsindən cəmi 3 il sonra bu iş artıq müsbət bir tendensiya şəklinə düşmüşdü. Hər dərs ilinin başlanmasından əvvəl başqa şəhərlərdə təhsil almağa göndərilən gənclərlə respublika rəhbərlərinin şəxsən görüşməsi dahiyanə bir uzaqgörənlik və böyük millətsevərliyin ifadəsi idi.

Əgər 1970-ci ildə belə gənclərin sayı 50 nəfər idisə, 70-ci illərin sonunda bu rəqəmin 800-900 nəfərə, 80-ci illərin əvvəllərində isə artıq 1400 nəfərə çatdırılmasına nail olmuşdu. Həmin gənclərin təqribən 400 nəfəri hərbi məktəblərdə təhsil alırdı.Uzaqgörən siyasətçi bu yolla ölkənin kadr potensialını, intellektual bazasını möhkəmləndirmək üçün həmin illərdə respublikadan kənarda 15 mindən çox yüksək ixtisaslı kadr hazırlanmasına nail olmuşdu [1]. Həmin illər ali məktəblərin həyatında da əsl dönüş mərhələsi olmuşdu. Ümumiyyətlə, 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, çoxlu ixtisaslar kafedralar, laboratoriyalar açılmışdır. Əgər 1969-cu ildə respublikada 12 ali məktəb, bunarda 105 fakültə, 450 kafedra mövcud idisə, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bütün bu uğurlar Heydər Əliyevin ali təhsilin inkişafına, respublikanın milli kadr potensialının gücləndirilməsinə hesablanmış uzaqgörən siyasətin nəticəsində mümkün olmuşdur [2].

Ümummilli Liderimiz təkcə ali təhsilə deyil, ümumi orta təhsilin inkişafına da daim diqqət və qayğı göstərirdi. Nəticədə, 1970-1980-cı illərdə Azərbaycanda 300 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdi [2].Tədricən 8 illik təhsildən 10 illik təhsilə keçid üçün zəmin yaradıldı. Hələ 1972-ci il avqustun 10-da respublika rəhbərliyi "Ümumi icbari təhsilə keçidin başa çatdırılması haqqında" xüsusi qərar qəbul etmişdir. Həmin qərarda orta məktəblər şəbəkəsinin genişləndirilməsi, orta təhsil müəssisələrinin maddi-texniki bazanın gücləndirilməsi, yüksək ixtisaslı müəllim kadrlarının sayının artırılması, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi məsələləri müvafiq qurumlara həvalə edilirdi. Nəticədə, orta təhsil alan şagirdlərin sayı 1980-cı ildə 710 minə çatmışdı [2].

Ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızın siyasi həyatında baş verən zərərli proseslər elm və təhsilin tənəzzülünə gətirib çıxartdı, bu sahədə təhlükəli meyllər özünü göstərməyə başladı.

Lakin möhtərəm Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı respublikamızın mövqelərini və müstəqilliyini daha da möhkəmləndirdi. Çünki böyük rəhbərin hər bir siyasi gedişi gələcəyə hesablanırdı.1993-cü ilin ortalarından başlayaraq bütün sahələrdə olduğu kimi elm və təhsil sahəsində də tənəzzülün, təhlükəli dağıdıcı meyllərin qarşısı alındı. Milli təhsil sisteminin bərpası və yeni şəraitin tələblərinə uyğun strategiyanın müəyyənləşdirilməsi üçün əlverişli siyasi, iqtisadi, hüquqi mühit yarandı. Heydər Əliyevin istər sovet dönəmində, istərsə də müstəqillik illərində ölkəyə rəhbərlik, millətə liderlik fəaliyyətində təhsilə və elmə, bütövlükdə xalqın intellektual səviyyəsinin yüksəldilməsinə qayğısı bütün dövrlərdə üstün yer tutmuş, prioritet istiqamətlərdən biri olmuşdur.

Möhtərəm Heydər Əliyev tərəfindən belə bir konsepsiya, strategiya xətt hazırlanıb həyata keçirilməyə başlandı ki, dövlətin dövlətçiliyin təməl prinsipləri içərisində milli təhsil və bəşəri elm müstəsna yer tutmalıdır. Ulu Öndərin milli müstəqillik, milli dövlət quruculuğu strategiyasında isə belə bir ideya əsaslanılırdı ki, dövlət müstəqilliyinin əbədiliyinin, vətəndaş cəmiyyətinin demokrtatik inkişafının magistral və hamar yolu mütləq və mütləq milli təhsildən keçir. Təhsil dövlətin təməl daşı, millətin gələcəyidir. Buna görə də o prioritet sahə olan təhsilə elmə, mədəniyyətə qayğını dövlətin əsas strateji xətti kimi ön plana çəkdi [3]. Ulu Öndər Heydər Əliyevin 30 mart 1998-ci il tarixli "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında" Sərəncamı ilə müstəqil Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların aparılması, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Ümumdünya Bankının vəsait qoyuluşunu təmin etmək, təhsil sahəsində islahat proqramını hazırlamaq barədə dövlət komissiyası yaradıldı. Bununla da islahat sahəsində yeni tarixin mərhələnin əsası qoyuldu.

İslahat proqramının həyata keçirilməsi nəticəsində təhsilin məzmunu yeniləşdirilmiş, yeni proqramlar və dərsliklər hazırlanmış, bazis tədris planı əsasında işlənmiş işçi tədris planları tətbiq edilməyə başlanmış, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə standartların hazırlanması məqsədilə iş indi də aparılmaqdadır.

2000-ci il iyunun 13-də Ümummilli Lider "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" yeni bir fərman imzalamışdır. Həmin fərman təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, təhsil sisteminin

beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratmışdır. Fərmana müvafiq olaraq ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırılmış, bir sıra universitetlərə muxtariyyət hüquqi verilmiş, ölkəmizdə müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Müəllimlər İnstitutu və bölgələrdə onun 12 filialı yaradılmış, müəllimlərin təkmilləşdirilməsi, ixtisasının artırılması üzrə dayaq məntəqələri şəbəkəsi təşkil edilmişdir.

Azərbaycanda ali təhsil tarixində ilk dəfə 1993/1994-cü tədris ilindən etibarən iki pilləli ali təhsilə –4 illik bakalavriat və 2 illik magistratura təhsil sisteminə keçilib.

Heydər Əliyev təhsil islahatının həyata keçirilməsinə diqqət yetirməklə, təhsil ocaqlarına qayğı göstərməklə yanaşı tələblərimizin sosial problemlərini də unutmurdu.O, "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli Fərmanı ilə ölkənin ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 25 nəfər tələbə üçün Prezident təqaüdü ayrıb. Milli liderimizin bu qayğısı gənclərimizin təhsili üçün daha əlverişli şəraitin yaradılmasına, onların təhsilə olan marağının daha da artırılmasına yönəlib.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhsil strategiyası, bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə təhsilə qayğı və diqqət, onun inkişafının dəstəklənməsi dövlət quruculuğunun mühüm sahəsidir. Ölkə Prezidenti Cənab İlham Əliyev görüş və çıxışlarında bunun böyük rolunu, müstəqilliyimizin möhkəmləndirilməsi xətti ilə təhsilin müasir standartlara yaxınlaşdırılması siyasəti arasındakı əlaqəni daim önə çəkir, ölkəmizin dünya birliyində tutduğu yeri, onun elm, təhsil sahəsinə inteqrasiyasını iqtisadiyyatızın daim inkişafını, xarici siyasətimizin səmərəliyinin artırılması, dünya arenasına çıxa bilən, müasir biliklərlə silahlanmış intellektual kadrlara böyük ehtiyac olduğunu və tələbatın getdikcə artacağını bəyan edir. Müstəqil dövlətimizin milli kadr potensialının yaradılmasında və inkişafında təhsilin, onun keyfiyyətinə obyektiv münasibətin, istedadlı gənclərə hərtərəfli dövlət qayğısının göstərilməsinin vacibliyini zəruri edir. Məhz təhsilin səviyyəsi Azərbaycançılıq ideologiyasının, milli şuurun, ictimai rəyin dünyada gedən surətli proseslər səviyyəsinə qaldırır və respublikamızın özünəlayiq yer tutmasına təminat verir.

**Ədəbiyyat:**

1. Xalqa bağışlanan ömür. II kitab, Bakı, 2004.
2. Xalqa bağışlanan ömür. VI kitab, Bakı, 2004.
3. Şəxsiyyətin qüdrəti, Bakı, 2012.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ELİM VƏ TƏHSİLƏ AİD DƏYƏRLİ KƏLAMLARI

**_Nuriyev Kamal Bəhrəm oğlu_**
**_"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müəllimi_**

***Xülasə:*** *Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə respublika rəhbərliyinə qayıdışından sonra 1993-cü ildən başlayaraq bütün sahələrdə olduğu kimi elm sahəsində də tənəzzülün təhlükəli, dağıdıcı meyillərin qarşısı alındı. Elmimizin inkişafı üçün əlverişli, siyasi, iqtisadi, hüquqi mühit yaradıldı. Ulu Öndər Hydər Əliyevə görə dövlətin əbədiliyi vətəndaş cəmiyyətinin demokratik inkişafının parlaq gələcəyinin hamar yolu, milli elmdən, milli təhsildən keçməlidir. Bugünkü Azərbaycan elmi öz şanlı inkişafına görə məhs Ulu Öndərimiz Heydər Əliyevə minnətdarıq. Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında bu dahi insanı xatırlayır, onun nəcib və uzaqgörən əməllərinin xoş nəticələri ilə rastlaşırıq. Zaman etibarı ilə bizlərə çox yaxın olduğu üçün bu gün həmin dövrün tarixi qiymətini dəyərini bir qədər düzgün ifadə etmək çətin olsa da Ulu Öndər Heydər Əliyevin xalqımız üçün dövlətimizin müstəqilliyi əbədiliyi üçün gördüyü işlər haqda danışmaq şərəfli və qürurvericidir.*

***Açar sözlər:*** *Ulu Öndər, təhsil ocaqları, milli ideologiya, gənc nəsil, müəllim*

Ulu Öndər Heydər Əliyev zaman-zaman qəbul etdiyi tarixi qərarları ilə sözün əsl mənasında yeniləşməkdə olan müstəqil Azərbaycan dövlətinin qurucusuna çevrildi. Məhz bu dövrdən etibarən Azərbaycan Respublikası bütün sosial iqtisadi istiqamətlərdə sürətlə inkişaf etməyə başladı. Tezliklə ölkədə siyasi iqtisadi sabitliyi təmin edən Ulu Öndər ölkəyə rəhbərlik etdiyi əvvəlki dövrlərdə olduğu kimi mustəqil Azərbaycanda da elmin təhsilin hamisinə çevrildi. Dövlət rəhbəri və siyasətçi kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən Ulu Öndər çox düzgün olaraq elm təhsil sahəsinə xüsusi diqqət göstərirdi.

Çünki o bilirdi ki, ölkəmizin inkiçafı üçün yüksək təhsilli kadırlar yetişdirilməsində təhsil vacibdir.

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Ulu Öndərin öz sözləri ilə desək. "Təhsil sistemimizin hazırki vəziyyətini onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir"

Ulu Öndərin dövlətçilik fəlsəfəsinə görə elmə, təhsilə göstərdiyi qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir. Xüsusi vurğulumaq lazımdır ki, elmin təhsilin inkişafı milli mənəvi dəyərlərə həssas münasibət məsələləri müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir.

Azərbaycan Respublikasının Təhsil sahəsində islahat proqramında qeyd olunur ki, Azərbaycan təhsil sisteminin inkişafında Heydər Əliyevin müstəsna rolu və xidmətləri olmuşdur. Onun rəhbərliyi altında 70-80-cı illərdə bu inkişaf daha yüksək mərhələyə çatmış, təlim tərbiyə müəssisələrinin şəbəkəsi xeyli təkmilləşdirilmiş, bir sıra müasir təhsil ocaqları yaradılmış, təhsilin maddi texniki bazası möhkəmləndirilmiş, milli kadrların hazırlanmasına xüsusi diqqət və qayğı yetirilmişdir. Belə ki, respublikanın bütün reğionlarında çoxsaylı yeni tipli məktbəqədər, müəsisələr ümumtəhsil texniki peşə və orta ixtisas təhsilli məktəblər tikilmiş və istifadəyə verilmişdir.

Ulu Öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi elm təhsil sahəsində də dəyərli kəlamlar söyləmişdir.

– Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandir.

– Mən dünyada müəllimdən yüksək ad tanımıram.

– Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.

– Mən Azərbaycanın sadə vətəndaşiyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir.

– Müəllimlik sənəti şərəfli bir sənətdir.

– Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir

– Bizim bu ğünümüz, gəlıcəyimiz məhz Latın əlifbası ilə bağlıdır.

– Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə bütün varlığımıza görə müəllimə borcluyuq.

– Həyat böyük bir prosesdir. Bu posesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır.

– Respublikamızın çox güçlü müəllim ordusu var. Azərbaycan müəllimləri ən yüksək mənəviyyata vətəndaşlıq hisslərinə malik olan insanlardir.

– Həyatını müəllimliyə sərf edən insanlar həqiqətən fədakar xalqına millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insandır.

– Təbii sərvətlər tükənən dəyərlərdir ancaq təhsil bilik elm əbədi hər bir ölkənin gücləndirilməsinə töhvə verən amildir.

– Təhsilimizin məqsədi gənc nəslə uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun

– Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun, kəsib təhslə xərcləməli, gənc nəslin təhsilinə müəllimə kömək etməlidir.

– Milli idealogiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bu günkü və gələcək mənəviyyatı bununla bağlıdır.

Dövlət müstəqilliyinin xalqimiza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın millətimizin tarixinə mənəviyyatına ənənələrinə uyğun qururuq. Doğrudur bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərini müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm bu asan məsələ deyil. Bu bir çox amillərlə bağlıdır. Ancaq indi dərs alan uşaqlar, gənclər gərək mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar.

**Ədəbiyyat:**

**1.** Azərbaycan Milli Kitabxanası. http://www.anl.az

**2.** https://kayzen.az
**3.** https://ictimaixeber.az › Gündəm

## TƏHSİLİMİZİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ TÜKƏNMƏZDİR

***Ələsgərov Baxış İslam oğlu, dosent***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
***elesgerov.adpu @ mail.ru***
***Bayramzadə Gülsanə Baxış qızı***
***Pedaqoji fakültənin MQT2201B qrup tələbəsi***

***Xülasə:*** *Ulu Öndər başqa sahələrdə apardığı əsaslı islahatlarla yanaşı Azərbaycan təhsili sahəsində də mükəmməl islahatlar həyata keçirilmişdir. Bu islahatlar vasitəsilə ölkəmizin inkişaf dinamikasını irəliyə doğru aparmışdır. Məqalədə qeyd edilir ki, insan yüksək və ya az savadlı, geniş məlumatlı, yaxud məhdud məlumatı ola bilər bu qəbahət sayıla bilməz. Qeyd edilir ki, insanın milli təəşşübkeşlikdən uzaq düşməsi, dilini milli kimliyini və milli dayaqlarını unutması elə onun özünün mənəvi cəhətdən itirməsi deməkdir. Məqalədə təhsilin bütün parametirlərinə müraciət edilmişdir.*

***Açar sözlər:*** *Ulu Öndər, Azərbaycan xalqı, təhsil islahatı, Azərbaycan dili, Azərbaycan təhsil islahatı*

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirilən təhsil islahatları bu sahənin inkişafına zəmin yaratdı. Hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu.

Ulu Öndərin fəaliyyətində təhsil siyasəti, təhsil quruculuğu daim önəmli mövqe tutmuşdur. [1.]

Ümummilli Lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin həyat amalının təntənəsidir.

Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, ocümlədən elm və təhsilə diqqət və qayğı daha da artırıldı. Bu təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir. [1.]

Məhz buna görə də Ümummilli Liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə illər Azərbaycanın tarixinə elmin və təhsilin tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Bütün sahələrində görünməmiş uğurlar qazanıldı.

1993-cü ilin iyununda xalqın istəyi ilə Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması Azərbaycan mədəniyyətinə yeni ab-hava gətirdi. Təhsil işçiləri, ziyalılar dövlətin yüksək qayğısı ilə əhatə olundular. Ümummilli Lider Heydər Əliyev öhdəsinə düşən bütün işləri yüksək səviyyədə reallaşdırdığı üçün məhz 1983-cü ildə SSRİ-də məktəb islahatı da Nazirlər Soveti sədrinin birinci müavini kimi ona tapşırılmışdı. Ulu Öndərin bu işin öhdəsindən layiqincə gəldiyini yaxşı xatırlayırıq. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" Sərəncam imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. Çox qısa müddətdə komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə minmişdi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi.Heydər Əliyevin "İnsan təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır" - konseptual göstərişini əsas tutaraq ümumi orta təhsil sistemində də bu müddət ərzində ciddi irəliləyişlər əldə olunub. Ulu öndər təhsil haqqında deyib: "Təhsil millətin gələcəyidir; Mən millətimdən yüksək ad tanımıram; Müəllim sənəti şərəfli bir sənətdir".

"Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb. [2.] Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının tədrisinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı. Əlbəttə ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dili ilə bağlı gördüyü işlər ayrıca bir yazının mövzusudur. Təkcə onu xatırladaq ki, 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyanda Azərbaycan dilinin ana dili kimi təsbit edilməsi, o illərdə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət Mükafatının verilməsi Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının, sevgisinin əyani təzahürü idi. [2.]

Azərbaycanın, dünya azərbaycanlılarının milli iftixarı, beynəlxalq aləmdə görkəmli dövlət xadimi, mütəfəkkir və dahi siyasətçi kimi şöhrət qazanmış Ulu Öndərimiz Heydər Əliyevin nəsillərə nümunə olan şərəfli həyat və fəaliyyətini, zəngin irsini zaman-zaman öyrəndikcə bu böyük insanın tanrı sevgisi ilə bəxş edilmiş qüdrətli zəkasına, misilsiz idarəetmə istedadına, malik olduğu geniş və çoxşaxəli biliklər dünyasına heyran qalmaya bilmirsən. Heç şübhəsiz, çox az sayda dövlət rəhbəri ola bilər ki, sosial-iqtisadi, ictimai-siyasi, inzibati-hüquqi, humanitar sahələr üzrə bu dərinlikdə zəngin, hərtərəfli elmi-nəzəri və təcrübi məlumatlılıq səviyyəsinə yiyələnmiş olsun.

Yüksək mənəviyyatı, vətənpərvərliyi, saf təbiəti, insanlara sonsuz məhəbbəti ilə xalqın, millətin Müəllimi olmaq şərəfinə ucalmış Ulu Öndərin fəaliyyətində təhsil siyasəti, təhsil quruculuğu daim önəmli mövqe tutmuşdur. Cəsarətlə demək lazımdır ki, müstəqil Azərbaycan dövlətinin təhsil qanunvericiliyinin əsasında, bugünədək qazanılmış uğurların təməlində məhz Ulu Öndərin proqram ruhlu, inkişafyönlü ideya və göstərişləri dayanır.

"Təhsil millətin gələcəyidir!"

Ulu rəhbərimiz tərəfindən bəyan olunan mahiyyət etibarı ilə müstəsna əhəmiyyətli ictimai-siyasi dəyərə malik bu konseptual fikri ifadə edən həmin üç sözün (təhsil, millət, gələcək) hər biri ayrı-ayrılıqda da qəlblərdə xoşməramlı mənəvi-psixoloji ovqat yaratmaqla insanlarda qayğılı-ümidli, nikbin düşüncələr, məhrəm duyğular oyadan dərin mənayüklü sözlərdir. O sözlərin məntiqi qovuşuğundan yaranan müdrik fəlsəfi müddəa isə işıqlı, səbatlı bir cəmiyyətin (dövlətin) bərqərar olmasının mənəvi-ideoloji dayağı, ideya mənbəyi, inkişaf rəmzi kimi səslənir.

"Təhsilimizin ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır"[3.]

...Aylar, illər, qərinələr ötüb keçir, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, texnoloji mənzərəsi, insanların həyat tərzi dəyişir, təfəkkürlərdə olub-keçənlərə fərqli münasibət yaranır, dünyagörüşləri təzələnir, sürətli inkişaf, qloballaşma fonunda tələblər, vəzifələr yenilənir, yüksəlir, getdikcə mürəkkəbləşir.

Dünyamız, həyatımız nə qədər yenilənsə də, əsl insan üçün müqəddəs sayılan keyfiyyətlər - Vətən, millət, torpaq sevgisi, mənəvi yetkinlik, əqidə birliyi, milli soykökünə, adət-ənənələrə bağlılıq, milli iftixar və milli mənsubluq, dövlətə, dövlətçiliyə sədaqət hissi daimi olmaqla ləyaqətli vətəndaş obrazını səciyyələndirən başlıca dəyərlərdir. İnsan yüksək və ya az savadlı, geniş məlumatlı, yaxud məhdud məlumatlı ola bilər, bu qəbahət sayıla bilməz. İnsanın milli təəssübkeşlikdən uzaq düşməsi, dilini, milli kimliyini və milli dayaqlarını unutması elə onun özünün mənəvi cəhətdən itirilməsi deməkdir.

**Ədəbiyyat:**

1. Azərbaycan milli ensklopediyası.
2. Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında. Azərbaycan qəzeti. 2000.
3. İnternet materialları.

# HEYDƏR ƏLİYEV VƏ "KİTABI – DƏDƏ QORQUD" EPOSU

***Səmədov Yaqub Abbasqulu oğlu***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
**yaqub.semedov63@ mail.ru**

***Xülasə:*** *Məqalədən aydın olur ki, soykökümüzü, tariximizi, dövlətçiliyimizi və Azərbaycan türkcəsinin özündə ehtiva edən "Kitabi-Dədə Qorqud" dastanı yalnız Azərbaycan üçün deyil, həm də bütün türk dünyası üçün dəyərli mənbədir. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bu dastanın 1300 illiyinin dövlət, həmçinin beynəlxalq səviyyədə qeyd olunması onun bəşəri dəyərlərinin beynəlxalq səviyyədə təbliğinə də xüsusi önəm verdi.*

***Açar sözlər:*** *Heydər Əliyev, Kitabı –Dədə Qorqud, qədim ilk yazılı abidə, adət-ənənə, türk dünyası*

Görkəmli dövlət xadimi Heydər Əliyevin digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əldə etdiyi uğurlar zənginliyi və möhtəşəmliyi ilə diqqəti cəlb edir. Belə ki, xalqın özünün dərkində, milli köklərə daha möhkəm bağlanmasında folklorun əvəzsiz rol oynadığını nəzərə alan Heydər Əliyev bir sıra çıxışlarında "Kitabi-Dədə Qorqud" eposunun da 1300 illik yubileyinin yüksək səviyyədə keçirilməsinin vacibliyini bu baxımdan əsaslandırdı. Ulu Öndər "Kitabi-Dədə Qorqud" haqda, bu eposun meydana çıxması ilə bağlı yeni tədqiqat işlərinin aparılmasını da mühüm vəzifə kimi irəli sürdü. "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı çıxışlarında Heydər Əliyev bu dastanın VII əsrdə yaranmasını xüsusi olaraq diqqətə çatdırmış və onun Azərbaycan xalqı ilə yanaşı, digər türk xalqlarının da ədəbi abidəsi olduğunu dönə- dönə xatırlatmışdı [1, s.46].

Görkəmli alim Q. Paşayev dastanın 1300 illik yubileyinin keçirilməsi ərəfəsində Heydər Əliyevin Xalq şairi Zəlimxan Yaqub da daxil olmaqla bir qrup yazıçı və şairlərlə görüşdüyünü, bu görüşün əsl səbəbini bir qədər sonra Zəlimxan Yaqubdan öyrəndiyini qeyd etmişdir. O, Zəlimxan Yaqubun bu görüşdəki təəssüratlarını belə təsvir edir. Zəlimxan Yaqub nəql edirdi ki, "Manas"ın min illik yubleyində (Qırğızıstan Respublikası, Bişkek şəhəri, 28 avqust 1995-ci il) Ulu Öndərimiz də iştirak edirdi. Təntənəli yığıncaqdan sonra bizə ayrılmlış çadırlara yenicə gəlmişdik ki, xəbər gəldi ki, Heydər Əliyev hamımızı çadırına çağırır. Getdik. Onun ilk sözü bu oldu. "Kitabı –Dədə-Qorqud"un başlanğıc cümləsi necədir?. Şübhəmiz yox idi ki, Ulu Öndər onu bizdən də yaxşı bilirdi. Bununla belə dedik: "Rəsul Əleyhissəlamın zamanında Bayat boyundan Qorqud Ata derlər, bir ər qopdu". Dastandakı bu fikirin mənası o deməkdir ki, bu dastan VII əsrə aiddir. Məlum oldu ki, Ulu Öndərimiz o söhbəti təsadüfi salmamışdı. H. Əliyev Bakıya qayıdan kimi "Kitabı –DədəQorqud" eposunun 1300 illiyinin Beynəlxalq səviyyədə [2] keçirilməsi üçün mühüm tədbirlər gördü.

AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev də dahi rəhbərin müstəqil Azərbaycana rəhbərliyi dövründə "Kitabi-Dədə Qorqud" dastanına böyük dəyər verdiyini xüsusi olaraq qeyd etmişdir [3].

Qısa bir müddətdə, yəni 1997-ci il aprelin 20-də Ümummilli Liderin imzaladığı Sərəncama uyğun olaraq "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin respublikamızda geniş şəkildə qeyd edilməsi üçün təmtaraqlı tədbirlər həyata keçirildi, həmçinin bir sıra xarici ölkələrdə bununla bağlı elmi

konfranslar təşkil olundu. 1998-ci ildə UNESCO-nun "Kitabi-Dədə Qorqud"a həsr olunan beynəlxalq simpoziumu da bu eposun dünya miqyasında təbliğinə böyük töhfə verdi. 2000-ci ildə "Kitabi-Dədə Qorqud" ensiklopediyası ikicilddə nəşr olundu [3].

Qeyd etmək lazımdır ki, "Kitabi-Dədə Qorqud" eposu Azərbaycanda ilk dəfə olaraq 1939-cu ildə professor Məhəmmədhüseyn Təhmasibin redaktorluğu ilə professor Həmid Araslı tərəfindən və onun müqəddiməsi ilə nəşr edilmişdir. Lakin XX əsrin 30-cu illərinin mürəkkəb siyasi-tarixi hadisələri və 37-ci ilin repressiyaları uzunmüddət "Kitabi-Dədə Qorqud" eposunun təbliğinə imkan verməmişdir. Bütün çətinliklərə baxmayaraq, Həmid Araslı 1948-1949-cu illərdə "Salur Qazanın evinin yağmalanması boyu"nun VIII sinfin ədəbiyyat dərsliyinə daxil edilməsinə nail oldu. Buna baxmayaraq, hətta 1950-ci illərə qədər "Kitabi-Dədə Qorqud"un Sovet İttifaqında təbliğinə yenə də, qadağa qoyulmuşdu. 1950-ci illərdən sonra isə bu əsər Azərbaycan alimlərinin səyləri nəticəsində çətinliklə də, olsa dar çərçivədə tədqiq edilməyə başlandı. Məsələn, Akademik Vasili Bartold tərəfindən tərcümə edilən "Kitabi-Dədə Qorqud" dastanı müqəddiməsi və izahları ilə birlikdə 1950-ci ildə azərbaycanlı tədqiqatçılar Həmid Araslı və Məhəmmədhüseyn Təhmasib tərəfindən Bakıda [4] rus dilində ilk dəfə nəşr olundu.

Təsadüfi deyil ki, bu əsərlə bağlı elmi- tədqiqat işləri ilk növbədə Azərbaycan alimlərinə məxsusdur. Çünki əsərdə təsvir olunan Oğuz eli coğrafi məfhumu - bütün Azərbaycan ərazisini əhatə edir və onun bizim xalqımıza, türk dünyasına məxsusluğunu üzə çıxarır. Bununla belə, Azərbaycanda "Kitabi-Dədə Qorqud" dastanına soyuq münasibət də vardır. Bunun əksinə olaraq 1970-1980-ci illərdə Heydər Əliyevin tövsiyəsi ilə əsərin təbliği, onun sovet, dünya ictimaiyyətinə çatdırılması ilə bağlı konkret qərarlar qəbul edildi. Ulu Öndərin tövsiyəsi ilə 1970-ci illərdə "Kitabi-Dədə Qorqud" bədii film çəkildi. Müstəqillik dövründə, xüsusilə də 1993-2003-cü illərdə artıq bu dastanın dünya ictimaiyyətinə çatdırılması istqamətində çox mühüm addımlar atıldı [5]. Bu istiqamətdə Şamil Cəmşidovun da elmi fəaliyyətini xüsusi qeyd etmək lazımdır ("Kitabi-Dədə Qorqud"u vərəqləyərkən" (1969), "Kitabi-Dədə Qorqud" (1977) monoqrafiyaları, "Kitabi-Dədə Qorqud" əla lisani-tayifəyi-oğuzan: Drezden əlyazması əsasında dürüstləşdirilmiş elmi-tənqidi mətn" (1995), "Kitabi-Dədə Qorqud" - 1300 müxtəsər elmi bələdçi" (1997) və s.).

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Elm aləminə XIX əsrdən məlum olan "Kitabi-Dədə Qorqud"un iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. Bu dastanlar islamdan öncə Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Gəncə, Əlincə, Göycə gölü (xüsusilə, dastanda adı çəkilən məşhur Altuntaxt (yəni, "altun taxt" və ya, "qızıl taxt") coğrafi anlamı Göyçə gölünün şimali-qərbində yerləşən Altuntaxt yaylağı ilə bağlıdır) və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"u yazıya köçürən şəxs Dədə Qorqudu bu dastanın yaradıcısı, həm də iştirakçısı kimi təqdim edir. "Kitabi-Dədə Qorqud" dastanı yarandığı dövrün adət - ənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatlarla zəngindir. Soykökümüzü, tariximizi, dövlətçiliyimizi və Azərbaycan türkcəsini öyrənmək baxımından da zəngin mənbə olan "Kitabi-Dədə Qorqud" yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ölməz kitabıdır [6].

Beləliklə, dünya şöhrətli siyasətçinin mədəniyyət sahəsində həyata keçirdiyi bu cür mühüm və əvəzsiz tədbirlər, yaşadığı zəngin həyat tərzi bugünkü və gələcək nəsillər üçün ən gözəl örnəkdir.

**Ədəbiyyat:**

1. İmanov M. Heydər Əliyev və"Kitabi-Dədə Qorqud" eposu. Türkologiya. 2017. №2. S.46-54.
2. Paşayev Q. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. -ci qəzet.-2017.-16 dekabr.-S.15.
3.https://azertag.az/xeber/ulu_onder_heyder_eliyev_kitabi_dede_qorqud_dastanina_boyuk_deyer_verb_onun_tebligini_diqqet_merkezinde_saxlayib-887299. Rauf Əliyev. Ulu öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanına böyük dəyər verib, onun təbliğini diqqət mərkəzində saxlayıb.
4. https://science.gov.az/az/news/open/24955İsa Həbibbəyli. Kitabi-Dədə Qorqud" eposu: Heydər Əliyevdən - İlham Əliyevə.
5. https://president.az/az/articles/view/10569/print. 13 dekabr 2013, 13:10. Bakıda Dədə Qorqud parkının açılışında İlham Əliyevin nitqi.
6. https://lib.aliyevheritage.org/az/3277526.html. Tarixi arayışlar/ mədəniyyət.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MÜASİR TƏHSİL SİSTEMİNİN QURUCUSUDUR

***Abbasova Şəbnəm Qinyaz qızı***
***Tədrisin idarə olunması şöbəsinin müdiri***

***Xülasə:*** *Müasir dövrdə hər bir dövlətin, xalqın gələcəyi və inkişaf səviyyəsi həm də onun malik olduğu elmi-mədəni potensialla ölçülür. İndiyə qədər bəşər tarixində əbədilik qazanmış dahi şəxsiyyətlərin elmə, elm xadimlərinə münasibəti, bu fəaliyyət sahəsinin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən birinə çevrilmişdir.Bu baxımdan müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan təhsilinin və elminin inkişafındakı xidmətləri də misilsizdir. Elm sahəsində qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin mühüm şərti kimi nəzərdən keçirmiş ulu öndərimiz Azərbaycana rəhbərliyinin bütün dövrlərində bu sahəyə diqqət və qayğısını əsirgəməmiş, daim milli elmimizin qüdrətli hamisi kimi çıxış etmişdir. O, Elmlər Akademiyasına, bütövlükdə Azərbaycan elminə, ziyalılara həmişə yüksək qiymət vermiş, diqqət və qayğı göstərmişdir.*

***Açar sözlər:*** *Heydər Əliyev və təhsil, müasir təhsil sistemi, təhilin inkişafı, Heydər Əliyev və elm siyasəti.*

«... Məktəb. maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam ... Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir. 25 il bundan öncə Azərbaycana rəhbər seçiləndə də bu mövqedə olmuşam, indi müstəqil Azərbaycanın dövlət başçısı kimi də bu mövqedəyəm. Mən həyatımın bütün mərhələlərində bəhz belə mövqedə durmuşam ».

Heydər Əliyev Azərbaycan Rcspublikasının Prezidenti 12 fevral 1995-ci il

Çağdaş Azərbaycan təhsilinin inkişafı sahəsində Heydər Əliyevin xidmətlərindən burada iki istiqamətdə danışmaq məqsədəuyğundur. Milli tərbiyə va təhsilə dair Ulu Öndərin nəzəri görüşləri və milli tahsil quruculugunda, təhsilin müxtəlif sahələrinin ahəngdar inkişafi yolunda gördüyü işlər.

Muasir Azarbaycan tarixinin dönüş nöqtələrindən biri sayılan 14 iyul 1969-cu il milli tariximizə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir tarixi dövrün başlanğıcı kimi daxil olub.

Heydər Əliyev hələ Azərbaycana birinci rəhbərliyi dövründə təhsilin inkişafına böyük önəm verirdi. Ötən əsrin 70-80-ci illərində Ulu Öndərin rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, respublika elmlər akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdır.

O dönəmdə Azərbaycanın əldə etldiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil alması üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdır. O cümlədən milli hərbi kadrların yetişdirilməsi həyata keçirilmişdir.

Bu kimi qlobal işlari təhlil edən Rusiya analitikləri bu nəticəyə gəliblər ki, Heydər Əliyev hələ o illərdə SSRİ-nin tezliklə dagılacağını və Azərbaycanın müstəqil dövlət olacağını görürmüş. Bu nəticə Heydər Əliyev fenomeninin böyüklüyünü butün dünyaya nümayiş etdirir.

Belə ki, Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ bu gün Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibah dövrü kimi qavrnılır və uğurla davam etməkdədir.

1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncamı imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. 1999-cu ilin iyununda "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" imzalanaraq qüvvəyə minmişdi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi.

Ümumi təhsildəki ən ciddi yeniliklərdən biri yeni — latın qrafikalı əlifbaya keçilməsi idi.

Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, Azərbaycan dilinin ana dili kimi təsdiqlənməsi, ötən əsrin 70-ci illərində nəşr olunmuş 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinə dövlət mükafatı verməsi Heydər Əliyevin bu sahədə gördüyü mühüm addımlardan biridir.

İkinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin elm və təhsil sahəsində atdığı addımlardan ən əsası 15 may 2001-ci il tarixli fərmanıdır. Həmin fərmanla Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilmiş və bununla da akademiyanın elmimizin inkişafındakı rolu və nailiyyətləri rəsmən təsdiqlənmişdi.

Heydər Əliyevin çoxcəhətli fəaliyyətində tahsil nəzəriyyəsi, təhsilin məzmunu, təhsilin milli tərəqqidə rolu va mahiyyəti, təhsilin məzmunu va milli ideologiya, milli ideologiya prinsiplərinin təhsil müəssisələrində tədrisi, milli dövlətçilik atributlarının tədrisi va öyrədilməsi yollarına dair nəzəri görüşlərinin tədqiqi va araşdırılması müstəsna əhamiyyətə malikdir.

Ulu öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət eyni zamanda Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.

**Ədəbiyyat:**

1. Heydər Əliyev, Təhsil millətin gələcəyidir..., «Təhsil» nəşriyyati, Baki, 2002.
2. Əhmədov H., Azərbaycan Təhsilinin İnkişaf Strategiyasi, «Elm» nəşriyyati, Baki, 2010.
3. Sadıqlı A. ,Ümummilli Lider Heydər Əliyev və Azərbaycan dili, Bakı, Mütərcim 2011.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİ

***Məmmədova Sara Muradxan qızı***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***

***Xülasə:*** *Görkəmli şəxsiyyət Heydər Əliyevin milli təhsil və tərbiyə məsələlərinə dair nəzəri konsepsiyası son dərəcə qiymətli olub, çağdaş dövrdə də, gələcək yüzillərdə də öz dəyərini, əhəmiyyətini saxlamaq gücünə malikdir. Bu konsepsiya hər bir təhsil alanın, hər bir pedaqoqun, ümumən, hər bir Azərbaycan vətəndaşının fəaliyyət devizi, həyat amalıdır.*
*Dahi rəhbər təlim-tərbiyə məsələləri ilə əlaqədar zəngin nəzəri irsə malik olduğu kimi, uzun illər təhsilimizin inkişafına hərtərəfli diqqət və qayğı göstərmiş, bu sahənin də tərəqqisinə nail olmuşdur. Respublikamızda ümumi orta, texniki peşə, orta ixtisas və ali təhsilin əsaslı yüksəlişi məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.*

***Açar sözlər:*** *Ümummilli Lider, Təhsil ocaqları, Ümumtəhsil məktəbi, təhsil siyasəti*

Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu Öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Ulu Öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir.

İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə Ümummilli Lider Heydər Əliyev daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir. "Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir", – deyən müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə böyük işlər görmüşdür. Böyük dövlət xadimi təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu önə çəkərək demişdir: "Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır".

Təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlərin, xüsusən Azərbaycan dilinin, tarixinin və ədəbiyyatının tədrisinin mahiyyətcə yeniləşməsini də dahi rəhbər çox vacib şərt saymışdır. Bu da təsadüfi deyil. Çünki gələcəyin qurucuları olan yeni nəsillərin milli ideologiyaya yiyələnməsi məktəbdən başlayır və bu işin düzgün təşkili ölkə üçün həyati əhəmiyyətə malikdir. Ona görə də Ümummilli Liderimiz tövsiyə edirdi: "Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər". Eyni ciddi vəzifələri ulu öndər Azərbaycanın dövlət atributlarının, dilinin, ədəbiyyatının, mədəniyyətinin öyrənilməsi sahələrinə də aid etmişdir.

Göründüyü kimi, Ulu Öndərin təlim-tərbiyə ilə əlaqədar nəzəri fikirləri sırasında təhsilin məzmununu müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurmaq ideyasının əsaslandırılması xüsusi yer tutur.

Şagird və tələbələrin müasir tələblər səviyyəsində formalaşması üçün təlimin keyfiyyəti, yüksək savad, dərin bilik verilməsi yeganə şərt deyil. Bu məsələyə də diqqət yetirən müdrik rəhbər Heydər Əliyev digər mühüm faktoru da təhsil alanların mənəvi kamilliyində, əqidə saflığında görürdü. Başqa sözlə deyilsə, Heydər Əliyev təlimində təhsillə tərbiyənin, mükəmməl biliklə yüksək mənəviyyatın vəhdəti son dərəcə mühüm prinsip kimi əsaslandırılmışdır. Təhsil ocaqlarının tərbiyəedici funksiyasına xüsusi diqqət yetirən Ümummilli Liderin aşağıdakı sözləri də bu ali həqiqətin ifadəsidir: "Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".

Ölkədə təhsilin hərtərəfli yüksəlişində, təlim-tərbiyə prosesində qarşıda duran mühüm, çoxşaxəli vəzifələrin uğurla həyata keçirilməsində təkcə məktəbin, orada çalışan pedaqoji heyətin əməyi kifayət deyil. Yeniyetmə və gənclərin gələcəyin savadlı mütəxəssisi, layiqli vətəndaşı kimi formalaşması üçün bütün cəmiyyət maraqlı olmalıdır, xüsusən də məktəblə ailənin birgə fəaliyyəti təmin edilməlidir. Ümummilli Liderimiz həmin məsələyə də diqqət yetirərək demişdir: "Məktəblə ailənin sıx, qarşılıqlı əlaqəsi olmadan mükəmməl tərbiyə ola bilməz, çünki bu proses kompleks bir prosesdir və onun səmərəliliyini valideynlərlə pedaqoqların birgə səyi ilə yüksəltmək lazımdır".

Bir sözlə, görkəmli şəxsiyyət Heydər Əliyevin milli təhsil və tərbiyə məsələlərinə dair nəzəri konsepsiyası son dərəcə qiymətli olub, çağdaş dövrdə də, gələcək yüzillərdə də öz dəyərini, əhəmiyyətini saxlamaq gücünə malikdir. Bu konsepsiya hər bir təhsil alanın, hər bir pedaqoqun, ümumən, hər bir Azərbaycan vətəndaşının fəaliyyət devizi, həyat amalıdır.

Dahi rəhbər təlim-tərbiyə məsələləri ilə əlaqədar zəngin nəzəri irsə malik olduğu kimi, uzun illər təhsilimizin inkişafına hərtərəfli diqqət və qayğı göstərmiş, bu sahənin də tərəqqisinə nail olmuşdur. Respublikamızda ümumi orta, texniki peşə, orta ixtisas və ali təhsilin əsaslı yüksəlişi məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun təşəbbüsü və rəhbərliyi ilə qəbul olunaraq həyata keçirilən bir sıra mühüm qərarlar, o cümlədən "Gənclərin ümumi orta təhsilə keçməsini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" (1972), "Kənd ümumtəhsil məktəbinin iş şəraitini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" (1973), "Ümumtəhsil məktəbi şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında" (1978) qəbul olunan qərarlar ulu öndərin Azərbaycana birinci rəhbərliyi dövrünün mühüm nailiyyətləri sırasındadır. Həmin illərdə məktəblərin şəbəkəsinin genişləndirilməsi, texniki bazasının, kadr potensialının əsaslı şəkildə yaxşılaşdırılması xüsusi ilə qeyd olunmalıdır. Belə ki, 1965-ci illə müqayisədə 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-yə çatmışdır. 1969-82-ci illərdə Azərbaycanda 350 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatdırılmışdır. Məktəblərin texniki, elmi-metodik vasitələrlə təminatı sahəsində də böyük işlər görülmüşdür. Həmin illərdə Azərbaycanda texniki peşə təhsili də yeni yüksəlişə qədəm qoymuşdur. 1970-82-ci illərdə respublikada texniki peşə məktəblərinin sayı 76-dan 184-ə, onlarda təhsil alan şagirdlərin sayı 40,9 mindən 109 minə çatmışdır. Məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə texniki peşə təhsilinin təkmilləşdirilməsinə, inkişafına dair strategiya hazırlanmış və uğurla həyata keçirilmişdir.

Ali və orta ixtisas təhsili məsələləri də ulu öndərin daim diqqət mərkəzində olmuşdur. 1969-cu illə müqayisədə 1982-ci ildə respublikada ali təhsil ocaqlarının sayı 12-dən 17- yə, tələbələrin sayı 70 mindən 100 minə yüksəlmişdir. Müdrik rəhbər respublikanın ehtiyacı olan ixtisaslar üzrə Azərbaycandan kənarda ali təhsilə də xüsusi önəm vermişdir. 1970-80-ci illərdə dahi rəhbərin təşəbbüsü və qayğısı ilə SSRİ-nin 170-dən çox ən məşhur ali məktəbində Azərbaycanın müxtəlif sahələrdə ehtiyac duyduğu 250-dən çox ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Onu da deyək ki, 1970-ci ilədək respublikadan kənarda ali təhsil almağa göndərilən azsaylı kontingentin cəmi 40 faizi Azərbaycan millətindən idi. Ulu Öndərin respublikaya rəhbərliyə başlamasından sonra ali təhsilə göndərilənlərin sayı ilbəil dəfələrlə artdığı kimi, milli tərkib də dəyişmişdi. Belə ki, 1970-ci illərin sonu, 1980-ci illərin əvvəllərində respublikadan kənarda ali təhsil almağa göndərilənlərin 97,7 faizi Azərbaycan xalqının nümayəndəsi idi.

Ümummilli Liderin böyük uzaqgörənliklə atdığı addımlardan biri də hələ ötən əsrin yetmişinci illərində azərbaycanlı gənclərin hərbi təhsilə yiyələnməsi sahəsində sistemli tədbirlər həyata keçirməsidir.

1982-87-ci illərdə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışan müdrik lider bütün ölkədə təhsil islahatına rəhbərlik etməklə yanaşı, Azərbaycan təhsilinin inkişafina da ardıcıl qayğısını davam etdirmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması da məhz Heydər Əliyev dühası sayəsində gerçəkləşmişdir. Ümummilli Liderimiz Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi milli təhsil konsepsiyasının tətbiqində ənənə və müasirliyin üzvi vəhdətini, respublikamızda illər boyu

toplanılmış dəyərli təcrübəni də nəzərə almaqla islahatlar aparmağı vacib şərt saymış, bu qiymətli prinsipi rəhbər tutmağı lazım bilmişdir.

Ulu Öndərin tapşırığı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli Qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartının təsdiq edilməsi və buna uyğun olaraq, həyata keçirilən islahatlar təhsil sistemində mühüm yeniləşməyə rəvac vermişdir. Ümummilli Liderin "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 30 mart 1998-ci il tarixli Sərəncamına uyğun olaraq, təhsil sektorunun bütün sahələrini əhatə edən islahatlar proqramı hazırlanmışdır. 15 iyun 1999-cu il tarixli Sərəncamla qəbul olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" bu sahədə hərtərəfli inkişafa geniş şərait yaradan qiymətli dövlət konsepsiyasıdır. Ulu Öndərin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 23 iyun 2000-ci il tarixli Fərmanı da təhsil sektorunda müasir islahatlara, yenidənqurmaya geniş imkanlar açan mühüm tarixi sənəddir. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli Sərəncam da müdrik rəhbərin təhsilə göstərdiyi qayğının daha bir parlaq təzahürüdür.Təhsilin istehsalatla əlaqəsinə xüsusi diqqət yetirən xalqımızın böyük oğlu Heydər Əliyevin təşəbbüsü ilə 23 avqust 1996-cı ildə "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" Qərarın qəbulu və icrası da özünün müsbət nəticələrini verməkdədir.

Ümumiyyətlə, qəbul olunmuş qərar, fərman və sərəncamlar, onların həyata keçirilməsi müstəqil Azərbaycanda təhsil sektorunun hərtərəfli yüksəlişini, tərəqqisini, məzmunca yeniləşməsini, maddi-texniki cəhətdən möhkəmlənməsini, dünya standartlarına yaxınlaşmasını şərtləndirmişdir.

Yeni təhsil müəssisələrinin yaradılması, məktəblərin müasir tədris vasitələri ilə təmin edilməsi, şagirdlərin dövlət hesabına pulsuz dərsliklərlə təmin olunması, müəllim əməyinin yüksək qiymətləndirilməsi, onların maddi vəziyyətinin əsaslı şəkildə yaxşılaşdırılması, istedadlı gənclərə böyük dövlət qayğısının göstərilməsi, onların xaricdə təhsilə göndərilməsi və sair sahələrdə də Ümummilli Liderimizin misilsiz xidmətləri müstəqil Azərbaycanda təhsil siyasətinin geniş üfüqlərindən soraq verir.

Heydər Əliyev siyasətinin məntiqi davamı olaraq bu gün ölkəmizdə təhsil strategiyası uğurla davam etdirilir. Yeni tipli Avropa standartlarına cavab verən uşaq bağçalarının, orta ümumtəhsil məktəblərinin, orta ixtisas təhsili müəssisələrinin tikilməsi, onların maddi texniki bazasının zənginləşdirilməsi, ali təhsil müəssisələrinin Avropanın ən qabaqcıl təhsil müəssisələri sırasına çatdırılması görülən işlərin bariz nümunəsidir.

**Ədəbiyyat:**

1. Heydər Əliyev, Təhsil millətin gələcəyidir..., «Təhsil» nəşriyyati, Baki, 2002.
2. Əhmədov H., Azərbaycan Təhsilinin İnkişaf Strategiyasi, «Elm» nəşriyyati, Baki, 2010.

# AZƏRBAYCANIN TƏHSİL SİSTEMİNİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

***Zeynalova Səbinə Cəfər qızı***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
**zsebine02@gmail.com**
***Zeynalova Sevil Cəfər qızı***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
**zeynalova.s1971@gmail.com**

***Xülasə:*** *Tezisdə Ulu Öndər Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irsin ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramı olduğu xüsusi olaraq vurğulanmışdır.*

*Heydər Əliyevin müstəqil Azərbaycanın təhsil sisteminin inkişafında ölçüyəgəlməz və danılmaz xidmətləri göstərilmişdir. Qeyd edlmişdir ki, Azərbaycan təhsil sisteminin mühüm inkişaf mərhələləri müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.*

***Açar sözlər:*** *Ulu Öndər, Ümummilli Lider, Heydər Əliyev, təhsil sistemi, təhsil siyasəti, təhsil islahatı.*

Hər bir xalqın milli mənliyinin, milli şüurunun formalaşması onun mədəniyyətinin, elminin, təhsilinin inkişafı ilə şərtlənir. Elm və mədəniyyəti yüksək inkişaf etmiş xalqlar bəşəri sivilizasiyanın yüksək pilləsinə yüksəlmişlər.Təsadüfi deyildir ki, müasir sivilizasiyanın ən yüksək göstəricisi elmin, təhsilin inkişafı hesab olunur.

Tərəqqiyə gedən yolda uğurlar qazanmaq üçün dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm, təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əlaqələrin qurulması zəruridir. Bu əlaqələrin qurullması, tənzimlənməsi üçün beynəlxalq standartların tələblərinə cavab verə bilən yüksək ixtisaslı kadrların olması vacıbdir. Buna görə də ölkədə həyatın bütün sahələrində, xüsusilə strateji əhəmiyyətə malik olan təhsildə köklü islahatlar aparmaq Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Azərbaycan təhsil sisteminin mühüm inkişaf mərhələləri müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin təhsil sahəsinə diqqət və qayğısı əvəzsiz olub.

Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramıdır. Milli elm və təhsilin inkişafı Heydər Əliyev siyasi kursunun uğurudur. Ümummilli Lider Heydər Əliyev bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. 1969-1982-ci illər Azərbaycanda bütün istiqamətlərin, eləcə də elm və təhsilin inkişaf dövrü kimi yaddaşlara həkk olunmuşdur.

Heydər Əliyev ölkənin, xalqın hərtərəfli rifahı və uğur qazanmasında təhsilin xüsusi rolunu həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Ulu Öndər bu barədə deyirdi: "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz".

Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərlik etdiyi zaman kəsiyinin həm birinci, həm də ikinci dönəmində təhsil sisteminin təkmilləşdirilməsi, inkişafı etdirilməsi üçün mühüm qərarlar, sərəncamlar vermişdir.

Ümummilli Lider hər bir vətəndaşın həyatını düzgün qurmasını və cəmiyyətdə mövqeyinin formalaşmasını həmişə ön plana çəkərək söyləmişdir: "Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir".

Hələ ölkəmizə rəhbərliyinin birinci dövründə - 1969-1982-ci illərdə Ümummilli Lider Heydər Əliyevin təhsilimizə böyük qayğısının nəticəsi olaraq Azərbaycanda çoxlu sayda məktəb binası tikilərək istifadəyə verilib.

Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il yüzlərlə gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Heydər Əliyev yüksək ixtisaslı, peşəkar kadrların hazırlanması, dövlət idarəçiliyi sisteminin sağlamlaşdırılması məsələlərini daim diqqət mərkəzində saxlayırdı. Azərbaycanda bir sıra yeni ixtisaslar üzrə – informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. – mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə alaraq həmin gənclərin Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin etmişdir.

Azərbaycanda telekommunikasiya və informasiya texnologiyaları sahəsinin ardıcıl və sistemli inkişafı məhz Ulu Öndərin respublikaya rəhbərliyi dövründə geniş vüsət almışdır. Heydər Əliyev yaxşı bilirdi ki, bu sahənin sürətli inkişafı, ilk növbədə, yüksək ixtisaslı mütəxəssislərin və elmi kadrların formalaşdırılmasından asılıdır. Bu məqsədlə Bakı Dövlət Universiteti, Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil müəssisələrində elektronika, avtomatika və hesablama texnikası ixtisasları üzrə maddi-texniki bazalar yaradılmışdır.

Ümummilli Liderin siyasi hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycanın yeni təhsil siyasətinin əsası qoyuldu. Heydər Əliyevin təhsillə bağlı müdrik kəlamları bu gün aforizmlərə çevrilmişdir. Ulu öndər deyirdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam… Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir".

Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların

inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövrü olan 1993-2003-cü illərdə də təhsil sahəsinin inkişafına xüsusi diqqət göstərib. Bu illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb. Xeyli sayda məktəb binaları tikilərək istifadəyə verilib, yeni dərsliklər hazırlanıb və şagirdlərə pulsuz verilib. Təhsil üzrə müxtəlif proqram və layihələr hazırlanaraq uğurla həyata keçirilib.

Heydər Əliyevin müstəqil Azərbaycanın təhsil sisteminin inkişafında ölçüyəgəlməz və danılmaz xidmətlərindən biri də ümumi təhsil sistemində əsaslı islahatların başlanmasıdır.

Ümummilli Liderimiz təhsil sistemimizdə olan problemlərin optimal həlli üçün Azərbaycan tarixində ilk dəfə təhsil sahəsində islahatlar aparılması üçün tapşırıqlar verdi. Bu məqsədlə 1998-ci il martın 30-da Prezidentin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı. 1998-ci ildə Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi. Xalqımızın böyük oğlu Heydər Əliyev qurultayda tarixi çıxış etdi. Bu çıxış təhsil işçilərinin qarşısında duran vəzifələrin uğurlu həlli üçün əsl proqram idi. Qurultayda təhsil tariximizdə ilk dəfə Respublika Təhsil Şurası yaradıldı. Ulu öndər 1999-cu il iyunun 15-də – Milli Qurtuluş Günündə Təhsil Sahəsində İslahat Proqramını xüsusi sərəncamla təsdiq etdi və islahatların əsas məqsədini müəyyən etdi: "Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın….On illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir. Əgər biz bu yolla gedəriksə, qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik".

Üç mərhələdən ibarət olan bu islahat proqramı miqyasına, əhatə dairəsinə və müddətinə görə ən böyük Dövlət Proqram idi və təhsilin sisteminin XXI əsrin çağırışlarına, iqtisadi inkişafın davamlı və dayanıqlı olmasına, Avropa əmək bazarına çıxışın təmin edilməsinə yönəlmişdi. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Azərbaycanın təhsil sistemində keçmiş ənənələrdən, nailiyyətlərdən, böyük potensialdan istifadə edərək təhsil sistemini yeni tələblərə uyğunlaşdırmaq, islahatlar həyata keçirmək işi başlanmışdır və bunlar da öz müsbət nəticəsini verir". Bu islahat proqramı müstəqil dövlətin təhsil sisteminin XXI əsrin çağırışlarına uyğun yenidən qurulmasının təmin edilməsinə yönəlmişdi. Eyni zamanda, onu da qeyd etməliyik ki, bu islahat proqramı Ulu Öndərin 1969-cu ildə Azərbaycana birinci dəfə rəhbərliyə gəldikdən sonra başlatdığı, amma 1987-1993-cü illərdə baş vermiş hadisələrin gerçəkləşməsinə imkan vermədiyi təhsil strategiyasının davamı kimi də qiymətləndirilə bilər.

Müstəqil Azərbaycanın memarı Heydər Əliyevin qayğısı ilə Təhsil İslahatı Proqramının əsas müddəaları Dünya Bankının maliyyə yardımı ilə həyata keçirilməyə başladı. Təhsil haqqında Qanun layihəsi hazırlanaraq ümumxalq müzakirəsinə verildi. Ümumi orta təhsilin dövlət standartları hökumət səviyyəsində təsdiq edildi. Azərbaycanın təhsil sistemi dünyanın aparıcı dövlətlərinin təhsil sisteminə inteqrasiya etməyə başladı. Xüsusi istedadı olan şagirdlərə və gənclərə diqqət artırıldı, belə uşaqlar seçilərək adları "Qızıl kitab"a salındı.

Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 13 iyun 2000-ci ildə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı.

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə üçün Prezident təqaüdünün təsis edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin "Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli fərmanı da Ulu Öndərin gənclərin ali təhsil almalarına böyük dəstəyinin bariz təzahürü idi. Prezident təqaüdü gənclər arasında yüksək bilik, bacarıq, səriştələr və yüksək əxlaqi dəyərlər qazanmaq uğrunda yarışa çevrildi. Bu, xalqa, müstəqil dövlətə sədaqətlə xidmət edəcək yaradıcı şəxsiyyətin formalaşdırılmasına verilən böyük töhfələrdən biri idi.

İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması qeyri-mümkündür. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alan ulu öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam

ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır.

Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, doktorantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır.

Ulu Öndər müəllim adını həmişə uca tutmuş və müəllim əməyinə ən böyük qiyməti vermişdir: "Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır."

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında misilsiz xidmətləri unudulmazdır. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin uzaqgörən strategiyası uğurlu gələcəyə gedən yollarımızı əbədi məşəl kimi daim işıqlandırmaqda davam edəcək.

**Ədəbiyyat:**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab. Bakı: Azərnəşr, 1997, 597 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. II kitab. Bakı: Azərnəşr, 1997, 588 s.
3. Novruzov R. "Heydər Əliyevin təhsil siyasəti"
4. Camalov K. "Heydər Əliyevin təhsil siyasəti"
5. Aliyeva N. "Azərbaycan elminin inkişafında Heydər Əliyevin rolu"

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ SÖNMƏYƏN GÜNƏŞİDİR

***Quliyev Səbuhi Vaqif oğlu***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***
**sebuhivaqif1998@gmail.com**

***Xülasə:*** *Məqalədə Ulu Öndərimiz Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, uzaqgörənliyi, möhkəm iradəsindən söz açılmış, 1988-1993 cü illərdə Azərbaycanın öz xilaskarını ikinci dəfə hakimiyyətə dəvətindən danışılmışdır. Bu gün Ulu Öndərimizin ömrünün 30 ildən artıq bir dövrünü həsr etdiyi, hər zaman qürür duyduğu Azərbaycan var. Elə bir Azərbaycan ki onun şah əsəridir, elə bir Azərbaycanki qarabağ adlı dərdi olmayan torpaqları azad, xalqı firəvan və daha böyük inkişaf doğru addımlayan.*

***Açar sözlər:*** *Ulu Öndərimiz Heydər Əliyev, Dahi şəxsiyyət, Xilaskar lider, Azərbaycan*

Nitqimə Ulu Öndərimiz Heydər Əliyevin tarixə öz möhrünü vurmuş çıxışı ilə başlamaq istəyirəm "Mən Azərbaycan Respublikasının bu ağır dövründə bu yükü öz üzərimə götürmüşəm və

götürmüşəm ona görə yox ki, bu vəzifə mənə lazımdır bəziləri kimi bəziləri buna can atır götürmüşəm ona görə ki, öz bacı qardaşlarıma öz doğma vətənimə, doğma vətəndaşlarıma, doğma torpağıma xidmət edim. Dəfələrlə demişəm həyatımın son dəqiqəsinə qədər bu xidməti edəcəyəm və heç bir şeydə məni qorxutmur, məni çəkindirmir. Mən bütün bu təxribatların, terrorların qabağında durmuşam və duracağam, Azərbaycanın müstəqilliyini qorumuşam və qoruyacağam. Əgər hər hansı bir namərd gülləsi, hansısa bir terrorçu gülləsi məni həyatdan götürərsə mənim özümdə mənim övladlarımda müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq. " bu və bu kimi saysız-hesabsız dəyərli çıxışları ilə tarixə adını qızıl hərflərlə həkk etmiş dahi şəxsiyyət, Azərbaycan Respublikasının ümumilli lideri Heydər Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur.

Üzeyir Hacıbəyov yazırdı: "Bəşər tarixində elə şəxslər var ki, onlar tək özləri üçün yox, bütün xalqın, bəlkə də bütün bəşəriyyətin xoşbəxtliyi və çiçəklənməsi naminə həyata gəliblər." Bu sözləri tam cəsarətlə ulu öndərimiz Heydər Əliyev haqqında da demək olar. Bu böyük insanın ideyaları yaşayır, qalib gəlir və xalqımızı yeni-yeni qələbələrə aparır.

XX əsr bəşəriyyətə çox görkəmli dövlət xadimləri, müdrik, təcrübəli və qətiyyətli rəhbərlər, son dərəcə bacarıqlı dövlət başçıları bəxş etmişdir. Belə dahi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevdir. Azərbaycan xalqı fəxr edir ki, onun Heydər Əliyev kimi bir rəhbəri olmuşdur.

Yaxın keçmişə nəzər salsaq görərik ki, 1988- 1993-cu illərdə Azərbaycanın ictimai-siyasi həyatında çaxnaşmalar, cəbhədəki məğlubiyyətlər, ölkədə anarxiya, xaos, vətəndaş müharibəsi və s. mövcud idi. Belə bir təhlükə və faciənin qarşısını almaq üçün xalq özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdi. 1993-cü ilin 15 iyunu Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı və xalq bu günü hər il Milli Qurtuluş Günü kimi bayram edir.

Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində vətəndaş müharibəsi dayandırıldı, Milli Ordumuzun döyüş qüdrətinin artırılması nəticəsində torpaqlarımızın işğalına son qoyuldu və atəşkəs əldə olundu. Qısa bir zamanda ulu öndərin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş təmin edildi. Siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı. Müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu, parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edildi, hüquqi və sivil dövlət quruculuğu prosesi başlandı.

İqtisadi islahatların həyata keçirilməsi geniş vüsət aldı və "Əsrin müqaviləsi" adını almış neft müqaviləsi imzalandı, dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrimiz genişləndi. Bütün bu sadalananlar məhz ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində mümkün olmuşdur.

Keçən müddət ərzində respublikamızda 30-dan çox beynəlxalq neft müqaviləsi imzalanmışdır. Bu müqavilələrin respublikamız üçün əlverişli şərtlərlə imzalanmasında və onların uğurla həyata keçirilməsində möhtərəm Prezidentimiz İlham Əliyevin xidmətləri xüsusilə qeyd edilməlidir. Bu müqavilələr ölkəmizə yeni idarəçilik metodlarının, mütərəqqi texnologiyaların, müasir texnikanın gətirilməsinə, neft sənayesinin infrastrukturunun yenidən qurulmasına, nəqliyyat və xidmət

sahələrinin inkişafına, yeni iş yerlərinin açılmasına və xarici investisiyaların ölkəmizə axmasına güclü təkan verdi.

Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi ölkəmizdə istehsal edilmiş neftin dünya bazarına çıxarılmasında mühüm rol oynayır. Heydər Əliyev kəmərin təməlinin qoyulması mərasimindəki nitqində demişdir: "Bakı-Tbilisi- Ceyhan çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əminamanlığın, təhlükəsizliyin təminatçısı ola bilər".

Bu gün Ulu Öndərin ömrünün 30 ildən artıq bir dövrünü həsr etdiyi, hər zaman qürür duyduğu Azərbaycan var. Elə bir Azərbaycan ki onun şah əsəridir, elə bir Azərbaycanki qarabağ adlı dərdi olmayan torpaqları azad, xalqı firəvan və daha böyük inkişaf doğru addımlayan.

Cənnətdəki doğum gününüz mübarəkdir, Heydər baba.

**Ədəbiyyat:**

1. https://www.testbook.az › show
2. http://www.aayda.gov.az › news

## HEYDƏR ƏLİYEV VƏ YÜKSƏLƏN GƏNCLİK

***Həsənova Nərmin Seymur qızı***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***
**nerminhesenova552@gmail.com**

***Xülasə:*** *Ümummilli Lider Heydər Əliyev hər bir sahəyə xüsusi diqqət və qayğı ilə yanaşdığı kimi gənclər sahəsinə də, gənclərin parlaq gələcəyi naminə onlara xüsusi diqqət, qayğı ilə yanaşıb. Gənclərlə bağlı bu siyasət bu gün ölkə başçısı cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

***Açar söz:*** *Ulu Öndər Heydər Əliyev, Heydər Əliyev ideologiyası, gənclər siyasəti, gənclərlə iş.*

Gəncliyin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.Azərbaycan gəncliyi deyəndə, bunu Ulu Öndər Heydər Əliyevsiz təsəvvür etmək olmaz.Ümummilli Lider Heydər Əliyev hər bir sahəyə xüsusi diqqət və qayğı ilə yanaşdığı kimi gənclər sahəsinə də, gənclərin parlaq gələcəyi naminə onlara xüsusi diqqət, qayğı ilə yanaşıb. Gənclərlə bağlı bu siyasət bu gün ölkə başçısı cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.İstər SSSR-i tarixində olsun, istərsə də müstəqillik dönəmində Azərbaycan gəncliyinin uğurları, nailiyyətləri yalnız və yalnız Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev irsi milli sərvətimizdir.Onun hakimiyyətə gəlişindən etibarən Azərbaycan gəncliyinə gənclik duyğuları qayıtdı və gənclərimiz bütün dünyada öz sözünü deməyi bacardı. Ulu Öndər hakimiyyətə gəldiyi zamandan etibarən Azərbaycan gəncliyinin gələcəyini düşündü. Ümummilli Lider düşünürdü ki, Azərbaycanın parlaq gələcəyi yalnız savadlı, bilikli, intelektual qabiliyyəti yüksək olan gənclərdən ibarətdir. Bildiyimiz kimi, SSRİ dönəmində hələ Ulu Öndər hakimiyyətə gəlməzdən öncə Azərbaycan gəncləri heç bir perspektivli vəzifələrdə, işlərdə, sahələrdə təmsil olunmurdular. Lakin Ümummilli Lider Heydər

Əliyevin hakimiyyətə gələndən sonra yürütdüyü gənclər siyasəti nəticəsində Azərbaycan gəncliyi öz parlaq, uğurlu dönəmini yaşamağa başladı.Bu gün ölkəmizdə hər bir sahədə-hərbi, təhsil, siyasi, iqtisadi və digər bütün sahələrdə təmsil olunan gənclərin, onların qazandığı uğurların, nailiyyətlərin hamısı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Ulu Öndər ölkəmizdə hər bir sahəyə xüsusi diqqət və qayğı ilə yanaşdığı kimi gənclərlə bağlı məsələlərə də xüsusi önəm verir və bu sahəyə xüsusi diqqətlə, qayğıyla yanaşırdı. Onun gəncliyə verdiyi qiyməti dünya ölkələrinin heç birində heç bir dövlət başçısı öz ölkəsinin gəncliyinə belə qiymət verməyib. Ulu Öndər Heydər Əliyev və Azərbaycan gəncliyi deyərkən sadaladığımız bütün faktlar göz önündə durur.Gənclərin elmli, savadlı, vətənpərvər ruhda böyüməsi Ulu Öndər Heydər Əliyev siyasətinin ideologiyasının əsas xəttini təşkil edir. Ümummilli Lider Heydər Əliyevin gənclərə göstərdiyi xüsusi diqqət və qayğı bu gün də ən yüksək səviyyədə Ulu Öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən aparılır. Ölkə Prezidenti hər zaman gəncləri maraqlandıran, onları narahat edən problemlərlə maraqlanır, görüşlər keçirir və bu istiqamətdə öz tövsiyyə və tapşırıqlarını verir. Hər zaman olduğu kimi, bu gün də gənclərə diqqət və qayğı cənab Prezidentin nəzarətindədir. Təbii ki, buna görə də, Azərbaycan gəncləri dahi şəxsiyyət Heydər Əliyevin düzgün qurduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkənin dinamik inkişafının davamlılığını təmin etmək üçün üzərilərinə düşən məsuliyyəti yüksək səviyyədə yerinə yetirməyə çalışırlar. Cənab Prezidentin gənclərlə bağlı yürütdüyü siyasət Ulu Öndərin bu sahədə yürütdüyü siyasətin davamı olaraq, bu gün Azərbaycan gənclərinin dünya miqyasında ölkəmiz üçün parlaq uğurlar qazanmasının təminatı və nəticəsidir. Qeyd edim ki, Ulu Öndərin hakimiyyəti zamanı olduğu kimi, bu gün də cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşən gənclər çox böyük uğurlar qazanırlar.Ulu Öndər Heydər Əliyevin gənclərlə iş siyasəti elmi əsaslara söykənir. Bu elmi əsasların həyata keçirilməsində əldə olunan uğurlar özü canlı bir tarix idi.Ümummilli Lider Azərbaycanın ən kasıb, geridə qalmış bir dönəmində hakimiyyətə gələrək, bu ölkənin hər sahəsini sürətlə inkişaf etdirdi. Şübhəsiz ki, bu inkişafın hər birinin elmi əsası var. Həmçinin, Ulu Öndər Heydər Əliyevin gənclərlə iş siyasəti də elmi əsaslara söykənirdi.Ulu Öndərin hakimiyyəti dönəmində gənclərlə bağlı çox möhtəşəm tədbirlər həyata keçirildi. Əgər Ümummilli Lider Heydər Əliyev hakimiyyətinin birinci dövründə daha çox gənclərin bir kadr kimi yetişməsinə çalışırdısa, müstəqil Azərbaycana rəhbərliyi dövründə artıq onları dövlətin idarə edilməsində aparıcı qüvvə kimi görürdü. Müstəqil Azərbaycan dövlətinin gənclər siyasətinin formalaşmasında və gənc nəslin geniş fəaliyyət meydanına çıxarılmasında Ulu Öndərin təşəbbüsü və iştirakı ilə keçirilən ölkə gənclərinin I Forumu xüsusi rol oynadı. 1997-ci ildə Ümummilli Lider Heydər Əliyevin imzaladığı Sərəncamla 2 fevral Azərbaycanda Gənclər Günü kimi elan edildi. Bu, Heydər Əliyevin gəncliyə göstərdiyi diqqət və qayğının daha bir nümunəsi idi. Gənclər gününün təsis edilməsi və Gənclər və İdman Nazirliyinin təsis edilməsi ilə Ulu Öndərin bu sahəyə diqqət və qayğısı bir daha sübut olundu. Ümumiyyətlə, gənclərimizin qazandığı bütün uğurlar Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir. Ümummilli Lider daim Azərbaycan gəncliyinə diqqət və qayğı ilə yanaşmış, onların mükəmməl təhsil almaları, həyatı dərindən öyrənmələri, dünyada gedən prosesləri bilmələri üçün ciddi səylər göstərmişdir. Qeyd edək ki, Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti, Azərbaycan xalqının bütün təbəqələrində olduğu kimi, gənclərində həyatında xüsusi yer tutub və Ulu Öndər xalqımızın qəlbində daima yaşayacaq. Ölkənin uğurlu

gələcəyi üçün Azərbaycan gəncləri Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, Ümummilli Lider Heydər Əliyev siyasətinə dəstək olurlar. Azərbaycanın bugünkü uğurları sırasında gənclərə yaradılan şərait xüsusi olaraq göz önündədir. Gənclər bu şəraitdən səmərəli istifadə edərək öz potensiallarını nümayiş etdirirlər.

**Ədəbiyyat:**

1.“ Palitra’.-2013.-6 aprel.-N59.-S.7.
2.https://tehsil.biz/news/az/62608/Heydr-liyevin-bax-v-yksln-Azrbaycan

## BÖLMƏ II

## "HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA ROLU"

# HEYDƏR ƏLİYEVİN FƏRMANI İLƏ YARADILMIŞ XANKƏNDİ PEDAQOJİ İNSTİTUTUNUN AZƏRBAYCAN ELMİNƏ VƏ TƏHSİLİNƏ VERDİYİ TÖHFƏLƏR

***Zeynalov Sahib Adıgözəl oğlu, dosent***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
***sahib.zeynalov.64@list.ru***

***Xülasə:*** *İstənilən dövrdə hər bir dövlətin, xalqın gələcəyi və inkişaf səviyyəsi onun malik olduğu elmi-mədəni potensialla qiymətləndirilir. Müasir dövrə qədər bəşər tarixində şöhrət qazanmış dahi şəxsiyyətlərdən hansılar elmə, elm xadimlərinə yüksək diqqət və qayğı göstəriblərsə onlar əbədi olaraq xalqının yaddaşında və tarixində yaşayırlar. Elm sahəsində qazanılan uğurları dövlət quruculuğu prosesinin mühüm şərti kimi nəzərdən keçirmiş Ulu Öndərimiz Azərbaycana rəhbərliyinin bütün dövrlərində bu sahəyə diqqət və qayğı göstərmişdir. O, bütövlükdə Azərbaycan elminə, təhsilinə və ziyalılara həmişə yüksək qiymət vermişdir. Elmin inkişafı Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan elminin və təhsilinin inkişafındakı çoxsaylı xidmətləri olmuşdur.*

***Açar sözlər:*** *Ulu Öndər, Xankəndi, Elektrotexnika zavodu, APİ-nin filialı*

1969-cu ildə Heydər Əliyevin göstərişi ilə Xankəndi şəhərində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı açıldı. Filialda əvvəlçə 4 ixtisas üzrə müəllim kadrlarının hazırlanmasına başlanıldı. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, tarix müəllimliyi, fizika müəllimliyi, riyaziyyat müəllimliyi və ibtidai sinif müəllimliyi ixtisasları üzrə tələbə qəbulu aparılmışdır. Filialda azərbaycan, rus və eməni bölmələri fəaliyyət göstərmişdir. Filialın Xankəndi şəhərində fəaliyyət göstərməsi milliyətçə azərbaycanlı olan əhalisinin sayının artmasına gətirib çıxarmışdır. Ətraf rayonlarda yaşayan ali təhsilli müəllimlər və Bakı şəhərindən yüksək ixtisaslı mütəxəssislər institututda işləmək üçün cəlb olunmuşdur. Ulu Öndərin fərmanı ilə Xankəndi şəhərinə dəmir yolu xəttinin çəkilişi, Elektrotexnika zavodunun, ayaqqabı fabrikinin, ipək kombinatının tikilməsi və 1973-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun filialının müstəqil institututa çevrilməsi milliyətçə azərbaycanlı olan mütəxəssislərin bura cəlb olunmasına və nəticə etibarı ilə əhalinin sayının artmasına gətirib çıxartdı.

Azərbaycan cəmiyyəti, eləcə də Azərbaycan elmi və təhsili qədim tarixə malikdir və isdedadı ilə seçilən dünya səviyyəsində tanınan coxsaylı Azərbaycan alimlərinin adlarını sadalamaq olar. Böyük elmi porensiala malik olan bu xalqın kütləvi şəkildə təhsil alması onların içərisindən istedadların üzə çıxmasına zəmin yaradır. Ümumiyyətlə mükəmməl orta və ali təhsilə malik olan insanlar elm sahəsində çalışaraq yüksək elmi nəticələr əldə edə bilərlər. Xankəndində fəaliyyət göstərən institututda tədris prosesi yüksək səviyyədə qurulmuşdu. Tədris prosesinin düzgün

qurulması nəticəsində sayca az olsada keyfiyyətcə yüksək hazirlığa malik olan kadrlar Azərbaycan təhsilinə öz töhfəsini vermişdir.

1969-cu ildə APİ-nin filialı olaraq fəaliyyətə başlayan təhsil müəssisəsinə işə cəlb olunan müəllimlərin əksəriyyətinin elmi dərəcəsi və elmi adı yox idi. Ancaq yaradılmış elmi mühit yüksək ixtisaslı kadrların institututa cəlb olunmasını tələb edirdi. İşə qəbul olunan müəllimlər qısa müddət ərzində elmi tədqiqat işlərinə cəlb olundular.

Əvvəlçə Xankəndi Pedaqoji institutunun fizika-riyaziyyat fakultəsində çalışan müəllimlərin elmi-pedaqoji fəaliyyəti haqqında qısa məlumat vermək istəyirəm.

Filialın fəaliyyət göstərdyi ilk gündən BDU-nun mexanika-riyaziyyat ixtisasını bitirmiş Məmmədov Nəriman Yadigar oğlu sentyabr ayının 1-dən APİ-nin Xankəndi filialında tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin olunmuş və 1973-cü ilə kimi bu vəzifədə çalışmış, 1973-1975-ci illərdə Xankəndi Pedaqoji institutunda tədris və elmi işlər üzrə prorektor, 1975-1985-ci illərdə riyazi analiz kafedrasının müdiri vəzifəsində çalışmışdır. Məmmədov Nəriman Yadigar oğlu həmdə elmi-tədqiqat işi üzərində işləyərək 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının mexanika-riyaziyyat institutunun elmi şurasında «Bəzi funksional Banax fəzalarında funksiyalar sisteminin təkrar tamlığı haqqında» mövzusunda dissertasya işini müdafiə edərək fizika-riyaziyyar elmləri namizədi alimlik dərəcəsi adı almışdır. İnstitutun fəaliyyəti dövründə ətraf rayonlarda işləyən savadlı müəllimlər işə cəlb olunmaqla yanaşı həm də elmi tədqiqat işləri üzərində işləmişlər.

1972-ci ildə müəllim olaraq işə qəbul olunan N.Q. Şəfiyev, C.Ə. Zeynalov elmi tədqiqat işləri üzərində işləyib, müvəffəqiyyətlə müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı almışlar. Dos. N.Q.Şəfiyev Xankəndi pedaqoji institutunda fizika-riyaziyyat fakultəsinin dekan müavini, ADPU-nun Şuşa filialında fizika-riyaziyyat fakultəsinin dekanı və tədris üşləri üzrə direktor müavini vəzifələrində çalışmışdır. Dos. C.Ə.Zeynalov 1992- 2000-ci illərdə ADPU-nun Şuşa filialında, ümumi riyaziyyat kafedrasına, 2004-2012-ci illərdə isə AMİ-nin Ağcabədi filialında riyaziyyat və onun tədrisi texnologiyası kafedrasına rəhbərlik etmişdir. Fizika riyaziyyat fakültəsində dərs deyən fizika-riyaziyyat elmləri namizədi dosent Eldar Məmmədovun tələbələrin fizika fənni üzrə elmi tədqiqat işlərinə istiqamətləndirilməsində böyük xidmətləri olmuşdur. 1984-cü ildən fizika fənni üzrə saathesabı dərs deyən Akif müəllim həm də baş laborant vəzifəsində çalışmaqla eyni zamanda fizika fənni üzrə elmi tədqiqat üzərində işləmişdir.

Bununla yanaşı işə qəbul üçün elan olunan müsabiqələrdə Azərbaycan Elmlər Akademiyasının elmi işçiləridə iştirak edirdi. Fizika-riyaziyyat elmləri namizədi, dosent H.İ.Aslanov (Hal hazırda fizika-riyaziyyat elmləri doktoru, professor H.İ.Aslanov AMEA Riyaziyyat və Mexanika İnstitutunun "Funksional analiz" şöbəsinin, midiridir) fizika-riyaziyyat elmləri namizədi, dosent B. B. Quliyev, fizika-riyaziyyat elmləri namizədi, dosent A. Ə. Abbasov, fizika-riyaziyyat elmləri namizədi, dosent Z.B.Hüseynov, texnika elmləri namizədi, dosent Ə.M.Hümmətov və fizika-riyaziyyat elmləri namizədi, dosent M.Qocayev müsabiqə yolu ilə instituta işə qəbul edilmişlər (1974-1980). 1973-çü il və sonrakı illərdə institututa işə qəbul olunan müəllimlər Ç.H.Ələkbərov, B.X.Əliyev M.S.Ağayev, Ə.M.Quliyev qısa müddət ərzində baş müəllim adı almışlar. M.S.Ağayev N.Tusi adına ADPU-nun fizikanın tədrisi metodikası kafedrasının disertantı olmuş və 1989-cu ildə namizədlik dissertasiyasını müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi adı almışdır. İnstitutun məzunu olmuş Rizvan Yusif oğlu Bağırov

1977-ci ildə Azərbaycan Elmlər Akademiyasının Aspiranturasının qiyabi şöbəsinə daxil olmuş, 1978-ci ildən Xankəndi Pedaqoji İnsitutunda müəllim kimi fəaliyyətə başlamış və 1987-ci ildə elmi tədqiqat işini müvəffəqiyətlə müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. Fizika-riyaziyyat fakültəsində 2 kafedra fəaliyyət göstərmişdir: "Ümumi riyaziyyat" kafedrası və "Fizika" kafedrası.

Xankəndi Pedaqoji İnstitutunda "Ümumi tarix", "Azərbaycan dilçiliyi və ədəbiyyatı", "İctimai elmlər", "Marksizm və Leninzm", "Pedaqogika və Psixologiya" və "Bədən tərbiyəsi" kafedraları fəaliyyət göstərmişdir. Kafedraların hər birində elmi tədqiqat işləri yerinə yetirmişlər. İnstitutun fəaliyyətinin az olmasına baxmayaraq bütün kafedralarda respublika səviyyəsində tanınmış məşhur alimlər yetişmişdir. Xankəndi Pedaqoji İnstitutunda fəaliyyət göstərən müəllimlər elmi tədqiqat işləri sahəsində yüksək nailiyyətlər əldə etmişlər. Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə müəllim kadrların və elmi işçilərin yetişməsində filalogiya elmləri doktoru professor N.F.Axundovun, filalogiya elmləri doktoru professor X.M.Cabbarovun, filalogiya elmləri doktoru professor K.H.Quliyevin, filalogiya elmləri doktoru professor R.Ş.Kərimovun, filalogiya elmləri namizədi, dosent İ.K.Quliyevin və filalogiya elmləri namizədi, dosent Ə.M.Əhmədovun böyük xidmətləri olmuşdur.

Xankəndi Pedaqoji İnsitutunun 1974-cü ildən 1988-ci ilə kimi insitutunun prorektoru işləmiş filalogiya elmləri doktoru professor Nəcəf İslam oğlu Quliyevin institutda işgüzar elmi və pedaqoji mühitin yaradılmasında böyük xidmətləri olmuşdur.

Tarix və ədəbiyyat fakultəsinin dekanı, "Pedaqogika və Psixologiya" kafedrasının dosenti Süleyman Məhərrəm oğlu Zeynalovun tələbələrin müəllim peşəsəsinin incəliklərinin öyrənilməsində böyük rolu olmuşdur. "Pedaqogika və Psixologiya" kafedrasının müdiri Mirələm Vəli oğlu Vəliyevin psixologiya fənnini tədrisində xüsusi rolu olmuşdur.

1975-ci ildən Xankəndi Pedaqoji İnsitutunda baş müəllim kimi fəaliyyətə başlayan Bəşir Ziyad oğlu Fərəcov, fəlsəfə fənni üzrə dosent, dekan müavini, dekan və partiya komitəsinin sədri vəzifələrində çalışmışdır. İnstitutun dosenti Əli Səhrətəli oğlu Behbudov fəlsəfə fənnindən mühazirə və seminar dərsləri aparmışdır.

Tarix müəllimlərinin yetişməsində tarix elmləri doktoru professor Zabil Bayramovun, dosent Məhəmməd Allahverdi oğlu Hüseynovun, dosent Yusif Bahadur oğlu Fərzəliyevin, dosent Mayıl Sərdar oğlu Alcanovun, dosent Fazil Eynulla oğlu Baxşəliyevin, dosent Rəftar Cəmil oğlu İmanovun, dosent Şahlar Həsən oğlu Kərimovun, dosent Rəfael Yusif oğlu Məmmədovun və baş müəllim Mürşüd Dünyamalıyevin misilsiz xidmətləri olmuşdur.

Xankəndi Pedaqoji İnstutununda fəaliyyət göstərən və formalaşan hər bir alim sanki hərəsi bir məktəb idi. Təhsil sisteminin düzgün qurulması nəticəsində Xankəndi Pedaqoji İnstitutu Azərbaycan elminə çoxsaylı töhvələr vermişdir. Bu Pedaqoji İnstitutu bitirib elmi və pedaqoji fəaliyyətlə məşğul olan çoxsaylı məzunların siyahısını qısa zaman kəsiyində sadalamaqla qurtarmaq mümkün deyildir. Xankəndindən çıxdıqdan sonra qısa zaman kəsiyində (6 ay) Şuşa şəhərində, 1988-89-cu tədris ilində Gəncə şəhərində, 1990-92-ci illərdə yenidən Şuşa şəhərində və 1992-ci ildən indiyədək Ağcabədi şəhərində fəaliyyət göstərən bu institut çətin şəraitdə fəaliyyət göstərsədə Azərbaycan təhsilinə və elminə öz töhvələrini vermişdir. Bu gün məktəbimizin məzunları Respublikanın müxtəlif ali təhsil müəssisələrində elmi və pedaqoji fəaliyyətlə məşğuldurlar:

Tarix elmləri doktoru professor Şirxan Səlimov, tarix elmləri doktoru professor Adil Baxşəliyev, Tarix elmləri doktoru professor Şikar Məmmədov, Tarix elmləri namizədi, dosent Baxış Ələsgərov, Tarix elmləri namizədi dosent Yaqub Abbasqulu oğlu Səmədov, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru dosent Rizvan Bağırov, fizika - riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Şükür Abbasov, fizika, riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Seymur Elman oğlu Süleymanov, filalogiya elmləri üzrə fəlsəfə doktoru dosent Mətanət Çərkəz qızı Fərzəliyeva, filalogiya elmləri üzrə fəlsəfə doktoru dosent Vaqif Saleh oğlu Allahverdiyev, filalogiya elmləri üzrə fəlsəfə doktoru Əli Umud oğlu Əliyev və.s.

Bu gün işlədiyimiz universitetdə tarixi ənənələr gözlənilir, tədris prosesi yüksək səviyyədə qurulub, müəllimlərin və eləcə də tələbələrin içərisində elmi tədqiqat işlərinə olan maraq artır və müəllimlərimizin həm respublikada həmdə xaricdə dərc olunan elmi məqalələrinin sayı artır. Bu nəticələrin əldə olunmasında– filialda işgüzar elmi mühitin formalaşmasında, nizam-intizamın və şəffaflığın yaradılmasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin və filial rəhbərliyinin böyük rolu vardır.

Ulu Öndər H.Ə.Əliyevin yaratdığı institutut on minlərlə müəllimlərin hazırlanması ilə yanaşı, alim kadrların yetişdirilməsində də rolu olmuş və Azərbaycan elminə öz töhfəsini vermişdir.

**Ədəbiyyat:**

1. Nəcəfov Ə. Xankəndi Pedaqoji İnstitutu (1969-1999), Bakı-2000.
2. https://az.wikipedia.org/wiki/Xank%C9%99ndi_Pedaqoji_%C4%B0nstitutu

## ELM VƏ TƏHSİLİN İNKİŞAFIDNA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

***Məmmədov Sabir Rüstəm oğlu***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
***vilayetmemmedov1980@mail.ru***
***Cəfərov Fazil Tatarxan oğlu***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının dos.v.i.e.***
***faziljafarov@yahoo.com***

***Xülasə:*** *Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.*

*Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır.*

***Acar sözlər:*** *Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyev, Heydər Əliyev və Azərbaycan elminin inkişafı, Heydər Əliyevin müstəqil*

*Azərbaycana rəhbərliyi, Ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyası.*

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri də misilsizdir. Elm sahəsində qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin mühüm şərti kimi nəzərdən keçirmiş Ulu Öndərimiz Azərbaycana rəhbərliyinin bütün dövrlərində bu sahəyə diqqət və qayğısını əsirgəməmiş, daim milli elmimizin qüdrətli hamisi kimi çıxış etmişdir.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki, baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması qeyri-mümkündür. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir.. [1,2].

Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır.. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Xüsusi olaraq qeyd olunmalıdır ki, islahatların keçirilməsi təhsil siyasətinin mühüm amillərindəndir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsil siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin bircə sərəncamına diqqət yetirməklə onun strateji mahiyyətinə aydınlıq gətirə bilərik. Ölkə başçısının "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 21 avqust 2004-cü il tarixdə imzaladığı sərəncam bu günümüz üçün zəruri olan informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından strateji əhəmiyyət kəsb edir. Təbii olaraq, bu tarixi sənəd indiyədək bu sahədə mövcud olan boşluqların doldurulmasına, dünyəvi təhsilə inteqrasiya yönümündə çatışmazlıqların aradan qaldırılmasına, gənc nəslin müasir standartlara uyğun daha dərindən savadlanmasına önəmli kömək göstərir. Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan

islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır.

Günümüzün reallıqları sübut edir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Eyni zamanda, bütün bunlar elm adamlarının daha da fəallaşmasını, ölkədə həyata keçirilən islahatların elmi əsaslarının işlənib hazırlanmasında xüsusi fəallıq göstərilməsini tələb edir. Məlumdur ki, ən əhəmiyyətli nəticə nəzəri və praktiki biliklərin birləşməsindən əldə edilir. Başqa sözlə desək, praktiki əhəmiyyəti olmayan nəzəri düşüncələr bazar iqtisadiyyatının hökmran olduğu müasir dövrümüzdə tədricən sıradan çıxır. Bu baxımdan da, elm adamlarının praktiki cəhətdən əhəmiyyətli olan təklif və tövsiyələrlə çıxış etməsi ölkənin davamlı sosial-iqtisadi inkişafının başlıca amillərindən biri kimi qəbul edilməlidir. Yalnız bu halda əldə edilmiş dinamik inkişafı davamlı inkişafa çevirmək mümkündür [4,5].

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində Ümummilli Lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq, elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, Ümummilli Lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir.

Ulu Öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm və təhsil siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət eyni zamanda Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.

**Ədəbiyyat:**


1. Heydər Əliyev. Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə. Bakı, "Müəllim", 2008.
3. Heydər Əliyev. Təhsil millətin gələcəyidir (Tərtibedənlər: Misir Mərdənov və Əsgər Quliyev) Bakı, "Təhsil", 2002.
4. Mərdanov M.C. «Azərbaycan təhsili dünən, bu gün, sabah». Bakı, Təhsil, 2006.
5. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, «Çaşıoğlu», 2009.
6. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. Bakı, «Çaşıoğlu», 2005.
7. Misir Mərdənov və Əsgər Quliyev -Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı:"Təhsil", 2002.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

***Allahverdiyev Vaqif Saleh oğlu, dosent***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının müdiri***

***Xülasə:*** *Ümumilli Lider Heydər Əliyev xalqının taleyini, vətəninin mənafeyini hər şeydən uca tutan tarixi şəxsiyyət olmuşdur. Elə buna görə də , qədirbilən xalqımız öz liderini sevmiş və onun xatirəsini həmişə yaşadacaqdır. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə tarixi abidələrin qorunub saxlanılması, bərpa edilməsi üçün misilsiz işlər görmüş, incəsəntin bütün növlərinə diqqət və qayğı göstərmişdir.*

*Ulu Öndərin klassik ədəbiyyatla yanaşı, müasir ədəbiyyatın zənginləşməsi, sənətkarlara yaradıcılıq üçün müvafiq şəraitin yaradılması ilə bağlı yüzlərlə sərəncam vermiş, qərarlar qəbul etmişdir. O, ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə mənəvi sahə ilə bağlı məsələlərə, milli-mənəvi dəyərlərimizin qorunmasına, öyrənilməsinə, inkişafına xüsusi önəm verirdi. Elm, mədəniyyət, incəsənət xadimləri, görkəmli ziyalılar, şairlər və yazıçılarla tez-tez görüşlər təşkil edur, öz tövsiyyələrini verirdi.*

***Açar sözlər:*** *Heydər Əliyev, Ulu Öndər, Ümumilli Lider, ədəbiyyat, şair, yubiley.*

Azərbaycan xalqının tarixində və tale yüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər görkəmli siyasət və dövlət adamları olmuşdur. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının Ümumilli Lideri olan görkəmli dövlət xadimi dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır.

Ümumilli Liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə ölkə həyatının bütün sahələrində güclü inkişaf baş vermişdir. Təbii ki, bu inkişaf milli ədəbiyyatımızdan, Azərbaycanda cərəyan edən ədəbi prosesdən də yan keçməmişdir.

Böyük ədəbiyyat bilicisi və ədəbi dəyərlərin qorunmasının, inkişafının təminatçısı olan Heydər Əliyev bu sahənin hərtərəfli tərəqqisini daim diqqət mərkəzində saxlayırdı. Onun bu istiqamətdəki fəaliyyəti ilə bağlı indiyənədək bir sıra əsərlər yazılaraq ortaya qoyulsa da, yenə azdır və araşdırılası, yazılası mühüm mətləblər hələ də var. Çünki Heydər Əliyevin fəaliyyət dairəsi o qədər geniş, zəngin, dəyərli və aktualdır ki, hər zaman ona müraciət etmək, ondan bəhrələnmək aktual olduğu qədər də müasirdir.

Azərbaycan dilinə və ədəbiyyatına münasibətdə də son dərəcə ciddi mövqe tutan Heydər Əliyev öz nitqlərində xalqın varlığına şəhadət verən dil və ədəbiyyat faktoruna sevgisini açıq etiraf edirdi.

Heydər Əliyev gözəl bilirdi ki, bir xalqı yaşadan, onu var edən, digər xalqlar arasında mövcudluğunu göstərən onun ədəbiyyatıdır, dilidir. Məhz buna görə də ulu öndərimiz bu sahəyə həddindən artıq həssaslıqla yanaşırdı. Hər zaman bu istiqaməti diqqətdə saxlayır və lazımi işlər görürdü. Elə bu səbəbdən də Heydər Əliyev "Milli ədəbiyyatsız milli siyasət yoxdur" qənaətinə gəlirdi. Bu fikri özü üçün əsas tutan Ümumilli Lider klassiklərimizi, şair və yazıçılarımızı o cümlədən mühüm əbədi abidələrimizi daim diqqət mərkəzində saxlayırdı. Buna müvafiq olaraq da, onların yubileylərinin keçirilməsi istiqamətində müvafiq sərəncamlar imzalayırdı. Bu baxımdan Ulu

Öndərin "Kitabi-Dədə Qorqud" eposunu uca tutması və bu abidənin 1300 illik yubileyinin beynəlxalq səviyyədə keçirilməsi istiqamətindəki xidmətləri çox əhəmiyyətlidir.

Mərhum professor Seyfulla Əsədullayev "Heydər Əliyev və ədəbi proses" adlı əsərində Heydər Əliyevin Azərbaycan ədəbiyyatına yazıçı və şairlərimizə əsl atalıq qayğısından bəhs etmişdir. Kitabın ən maraqlı fəsillərindən birində, Heydər Əliyevin Azərbaycan ədəbiyyatının ən nüfuzlu nümayəndələri, kalssik və müasir ədiblər barədə fikirlərinə yer verilmişdir. Bu fəsillərdə Füzulidən Hüseyn Cavidə və Səməd Vurğuna qədər, Nəriman Nərimanovdan, Üzeyir Hacıbəyovdan, Rüstəm İbrahimbəyova qədər neçə-neçə Azərbaycan şair və ədibi barədə dəyərli fikirlər əks olunmuşdur.

Bu fikirləri diqqətlə nəzərdən keçirdikcə Heydər Əliyevin yüksək ədəbi zövqünə, mülahizələrinin dərinliyinə heyranlıq hissi daha da güclənir.

"Ümumilli Liderin ədəbiyyat barədə, ədəbi mühit və ədəbi proses haqqında son dərəcə dəqiq və geniş biliklərə malik olduğu burada bir daha özünü göstərir.

Bu baxımdan Azərbaycan poeziyasının dahi klassiki, dünya ədəbiyyatının karifeyləri sırasına daxil olan Nizami Gəncəvinin irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı ölkəmizdə və kənarda 1970-ci illərin sonundan etibarən görülən işlər misilsiz idi".(1-264)

Kompleks şəkildə Nizami irsinin öyrənilməsinə 1979-cu il yanvarın 6-da verilən qərardan sonra başlandı. Bu qərarın tələblərindən irəli gələn vəzifələri yerinə yetirmək üçün həmin dövrdə Azərbaycan EA-Rəyasət heyətinin qərarı ilə Akademiyanın Nizami adına Ədəbiyyat İnstitutunda nizamişünaslıq şöbəsi yaradıldı. N.Gəncəvi irsi ilə bağlı tarixi qərarın ən mühüm nəticəsi qısa müddətdə və yüksək elmi-poliqrafik keyfiyyətlə çap olunması, şairin əsərlərinin Azərbaycan və rus dillərində yeni sətri tərcümələrin hazırlanması Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilmişdir. Nizami Gəncəvinin irsi Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunmuş qərar yalnız Nizaminin deyil ümumi Azərbaycan xalqını tanımağa, təbliğ etməyə xidmət edən tarixi bir sənəd idi.

Məhəmməd Füzulinin yubileylərinin beynəlxalq miqyasda qeyd olunmasına hazırlıq məhz Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtmasından sonra başladı.

Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəffəkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən böyük qiymətdir. Heydər Əliyev hər bir çıxışında Məhəmməd Füzulini yalnız Azərbaycan sərhədlərindən kənarda deyil, ölkə daxilində də yaxşı tanıdılmasını, əsərlərinin hər bir Azərbaycanlı ailəsinə çatdırılmasının əhəmiyyətli olduğunu bildirirdi.

Azərbaycan ədəbiyyatının digər klassikləri kimi Nəsiminin yaradıcılığına yüksək qiymət verən Heydər Əliyev şairin yubileyinin keçirilməsini, bədii irsinin tədqiqi və nəşrinin həyata keçirilməsinə böyük diqqət və qayğı göstərmişdir.

Təkcə Nizami, Füzuli, Nəsimi yox Molla Pənah Vaqif, M.F.Axundov, Nəriman Nərimanov, C.Məmmdəquluzadə, Hüseyn Cavid, Üzeyir Hacıbəyov və başqa ədəbiyyat nümayəndələri də həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur.

Heydər Əliyev öz doğma xalqının ədəbiyyatına, mədəniyyətinə diqqət, qayğı göstərməklə, himayədarlıq etməklə yanaşı, bu mənəviyyat sahələrinin dərin bilicisi, təbliğatçısı olmuşdur.

Ulu Öndər Azərbaycan folkloruna, klassikasına kimi, müasir ədəbiyyatımıza, onun nümayəndələrinə də həmişə böyük ehtiram, diqqət və qayğı ilə yanaşmış, onların hər birinin əsərini, əməyini yüksək qiymətləndirərək mükafatlandırmışdır.

Heydər Əliyevin, rəhbərliyi dövrlərində bir çox sənətkarlarımızın yubileyləri təntənə ilə qeyd olunmuşdur. Ədəbiyyatımızın inkişafında xidmətlərinə görə Süleyman Rəhimovu, İmran Qasımovu , İlyas Əfəndiyevi müxtəlif ordenlərlə təltif etmişdir.

Heydər Əliyev Nəbi Xəzrini ədəbiyyatımızın inkişafına fəal xidmətlərinə görə 1980-ci ilin mayında əməkdar incəsənət xadimi adı ilə mükafatlandırmışdır.

Anadan olmasının 75 illiyi ilə əlaqədar olaraq Heydər Əliyev Süleyman Rüstəmi Azərbaycan Respublikası Ali Sovet Reyasət Heyətinin Fəxri Fərmanı, anadan olmasının 60 illiyi münasibətilə Balaş Azəroğlunu Xalqlar dostluğu ordeni ilə mükafatlandırmışdır. Təqdimat mərasimində Heydər Əliyev Balaş Azəroğlunun yaradıcılığından danışaraq onun şeirlərinin bir çoxunun 40-ci illərinin əvvələrində Cənubi Azərbaycanda gedən içtimai-siyasi proseslərin təsiri, şah istibdadına, sosial zülmə və milli istismara qarşı mübarizə mövzusu olduğunu qeyd etmişdir.

Ümumilli Lider hər şeydən əvvəl öz xalqının, öz vətəninin vurğunudur. Sonra ana təbiətin, ana dilinin, poeziyanın, şeirin-sənətin, ədəbiyyatın, musiqinin, rəssamlığın, memarlığın, gözəlliyin vurğunudur. O, şeirimizi, istər klassik, istərsə çağdaş ədəbiyyatı çox sevir, duyur, mənalandırır,dəyərləndirirdi.

Respublikamız müstəqillik əldə etdikdən sonra yenidən hakimiyyətdə olan Ümumilli Lider Heydər Əliyev bütün sahələrə qayğı göstərdiyi kimi ədəbiyyatımızıda diqqətdən kənarda saxlamamış, hətta Azərbaycanın görkəmli mütəfəkkir şairi Hüseyn Cavidin məzarını uzaq Sibirdən doğulduğu doğma torpağa, Naxçıvana gətirmişdir.

1995-ci ilin aprelin 16-da Heydər Əliyevin təşəbbüsü ilə müasir ədəbiyyatımıza öz gözəl töhfələrini vermiş, Məmməd Arazın yaradıcılıq gecəsi ilə əlaqədar olaraq ona respublikanını ən ali mükafatı olan "İstiqlal" ordeni vermişdir. Eyni zamanda bu ali mükafat Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürkə də ünvanlandı.

1995-ci il dekabrın 9-da Heydər Əliyev Azərbaycan ədəbiyyatında və mədəniyyətində özünəməxsus yer tutan Yusif Səmədoğlunu müstəqil Azərbaycanın yüksək mükafatı – "Şöhrət ordeni" ilə təltif etmişdir. Elə həmin dövrdə Heydər Əliyevin iştirakı ilə Yusif Səmədoğlunu 60 illik yubileyi keçirilmişdir.

Təkcə ədəbiyyatımızda Heydər Əliyevin birbaşa tövsiyyəsi ilə ərsəyə gətirilmiş neçə-neçə dəyərli, fundamental əsər mövcuddur. Bunlara misal olaraq xalq şairi Söhrab Tahir, Azər Azərin "Ata" poemasının, Nəriman Həsənzadənin "Nəriman" poemasının adıarını cəsarətlə çəkmək olar.

Bəxtiyar Vahabzadə "Gülüstan", Nəriman Həsənzadə "Kimin Sualı var", "Nəriman" poemalarını yazdıqlarına, bu əsərlərdə səsləndirdikləri sərt etirazlara görə ciddi təqiblərə məruz qalanda, hər iki xalq şairini məhz Heydər Əliyev qoruyub xilas etmişdir. Bu cür xeyirxahlıqların kökündə, bünövrəsində Ulu Öndərimizin yazılan əsərləri şəxsən mütaliə etməsi, həmin əsərlərdə səsləndirilən vətənpərvər etirzalarla qəlbən şərik olması dayanırdı.

Hələ 70-ci illərdə "Nəriman" poemasını yazmaq üçün dəqiq tarixi sənədlərlə tanış olmaq istəyən Nəriman Həsənzadəni üzdəniraq qüvvələr arxivlərə buraxmayanda o, Heydər Əliyevə müraciət edir. Ulu Öndərin göstərişi ilə Nəriman Nərimanovla bağlı sənədlər, tarixi materiallar

saxlanılan arxivlərin qapıları şairin üzünə açılır. Poema yazılıb ərsəyə gələndən sonra yenə təqiblər, əsərin çapına maneələr başlanır. Bu problemidə Heydər Əliyev aradan qaldırır. Moskvada nəşrə göndərilən əlyazmanın 1600 misrası ixtisara salınıb məhv edilsə də əsərin nəşrinə nail olunur.

Ümumilli Lider Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, qələm sahiblərinə, ədəbiyyat adamlarımıza bütövlükdə ədəbiyyatımıza xüsusi qayğısı, diqqəti bu gün onun siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilir. Buna ölkəmizə rəhbərliyi ərzində dövlət başçısı İlham Əliyevin klassiklərimiz və yazıçı-şairlərimizin yubileylərinin keçirilməsi ilə bağlı verdiyi sərəncamlar əyani sübutdur.

**Ədəbiyyat:**

1. Əsədullayev.S "Heydər Əliyev və ədəbi proses" Bakı, 2002. "Nurlan", nəşriyyat səh.264.
2. Əliyev A. Heydər Əliyev və ədəbiyyatımız. Bakı, 2007.

## HEYDƏR ƏLİYEVİN ƏDƏBİYYATIMIZA DİQQƏT VƏ QAYĞISI

***Rzayeva Qərənfil Zeyqəm qızı, b/m.***
***"Keyfiyyətin" təminatı şöbəsinin müdiri***
***qrnfil.rzayeva@mail.ru***

***Xülasə:*** *Tezisdə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrlərdə ədəbiyyatımıza diqqətindən, sənət adamlarına göstərdiyi xüsusi qayğısıdan ətraflı bəhs olunmuşdur. Qeyd olunur ki, hakimiyyəti boyu ziyalıların və ziyalılığın himayədarı olan Heydər Əliyev ədəbiyyata və onu yaradanlara həmişə hörmətlə yanaşmış, Azərbaycan ədəbiyyatı tarixinin müasir dövrdə mühafizəçisinə çevrilirmişdir.*

***Açar sözlər:*** *Ulu Öndər, hakimiyyət, xalqın ədəbiyyatı, milli ədəbiyyat, sənətkara diqqət, ədəbiyyat ocaqları, klassik ədəbiyyat, yubiley mərasimləri və s.*

Yaşadığı ömrün hər anını milli dirçəlişin və bəşəri dəyərlərin inkişafına həsr edən dahi lider Heydər Əliyev daim ziyalılara diqqətlə yanaşırdı. Bunu ikinci dəfə ölkə rəhbərliyinə gəldikdən sonra 21 sentyabr 1993-cü ildə AMEA-da ziyalılarla görüş keçirməsi də təsdiq edir.

Hakimiyyəti boyu ziyalıların və ziyalılığın himayədarı olan Heydər Əliyev ədəbiyyat insanlarına həmişə diqqət göstərmişdir. İstər yazarların, istərsə də, ədəbiyyatşünasların dayağı olan ulu öndər ədəbiyyata dərindən bələd olmuş və sözə sevgi ilə yanaşmışdır. Bunu onun hələ sovetlər dönəmində yazarların V, VI, VII, IX qurultaylarında iştirak etməsi də sübut edir.

O, həmin qurultaylarda iştirak etməklə qurultay iştirakçılarına stimul verir, ədəbiyyatın inkişafı üçün şərait yaradırdı. Ulu Öndər Heydər Əliyevin söz adamlarına diqqəti və qayğısı bununla kifayətlənmirdi. Ölkənin bütün hüdudlarını əhatə edən ayrı-ayrı bölgələrdə yerli şəraitin tələblərinə uyğun milli mədəniyyət ocaqlarının və abidələrinin yaradılmasına xüsusi əhəmiyyət verirdi. Deyilən fikirlərə sübut olaraq hələ sovetlər vaxtı yaradılmış ədəbiyyat ocaqlarını misal göstərə bilərik.

Ulu Öndər hakimiyyətə gəldiyi ilk dönəmlərdə – 12 avqust 1969-cu ildə Qazaxda Molla Pənah Vaqifin ev muzeyinin yaradılması qərarının verilməsi öz dövrü üçün böyük ədəbi hadisə olmaqla yanaşı, milli hadisə idi. 1978-ci ildə isə Şamaxıda Ədəbiyyat Muzeyi yaratmaq haqqında qərar qəbul edilməsi həmin bölgənin tarixi şöhrətini daha da artırdı.

Tarixə nəzər saldıqda görürük ki, Heydər Əliyev 60-70-ci illərdə olduğu kimi, 80-ci illərdə də ədəbiyyatın keşiyində xüsusi inamla dayanmışdır. 1980-ci ilin 11 dekabrında Naxçıvan şəhərində Hüseyn Cavid kimi bir şəxsiyyətin ev muzeyinin yaradılması qərarına imza atmaq həmin zaman kəsiyi üçün əvəzolunmaz iş idi. Bunu Hüseyn Cavidin faciəvi həyat tarixçəsinə əsaslanaraq söyləmək daha inandırıcı olar. Bir imperiyanın məhv etdiyi bir dahini hələ o imperiyanın mövcud olduğu bir zamanda vətəninə qaytarmaq tarixi ədalətsizlik üzərində milli qələbə idi (1, səh. 89-90).

Görülən ədəbiyyatyönlü işlər bunlarla kifayətlənmirdi. Heydər Əliyev 15 yanvar 1982-ci ildə Şuşada M.P.Vaqifin məqbərəsinin açılışında iştirak edir. Bu hadisənin tarixi əhəmiyyətini həmin tədbirin iştirakçısı və şahidi olmuş şairlərimiz sonralar əsərlərində xüsusilə qeyd etmişlər. Onlardan biri də Cabir Novruzdur. O, "Şuşa yolu" poemasında həmin açılış mərasiminin incəliklərinə belə toxunur: «Mənfur, paxıl ermənilər məzlum-məzlum baxırdılar, süzürdülər. Özlərini üzürdülər… Vaqifin bu mavzoleyinin onlar üçün göz dağı olduğunu bilirdilər".

Bütün bunlarla yanaşı, hakimiyyətdə olduğu dövrün birinci mərhələsində istər müasir, istərsə də klassik şair və yazıçıların yubileylərinə xüsusi qayğıkeşliklə yanaşmasını unutmaq olmaz. 1969-cu ildə ölkə rəhbəri təyin edilən Heydər Əliyev 1970-ci ildə Rəsul Rzanın 60 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasına nail olur. Bu, o dövrün yazarlarına böyük etimadın göstəricisi idi. Bu göstərici hər il daha da artır, daha geniş arenanı əhatə edirdi. Belə ki, 1973-cü ildə həm Nigar Rəfibəylinin 60, həm də Nəbi Xəzrinin 50 illik yubileyləri böyük təntənə ilə gerçəkləşdirilir.

Klassiklərə olan diqqətdən danışarkən ilbəil keçirilən yubiley tədbirlərini xatırlamaq lazımdır. 1972-ci ildə Nəriman Nərimanovun 100 illik yubileyi qeyd edilməklə bərabər, heykəlinin ucaldılması ədəbiyyat tariximiz üçün önəmli hadisə idi. Həmçinin 13 sentyabr 1973-cü ildə bəşəri klassikimiz İmadəddin Nəsimin 600 illik yubileyinin Bakı ilə yanaşı Moskvada da keçirilməsi bütün imperiyanı Azərbaycana diqqət ayırmağa sövq etmək demək idi. Nəticədə 1980-ci ildə Bakıda İ.Nəsimin abidəsi qoyuldu.

Qarşıdan bəşəri şair Nizami Gəncəvinin yubileyi gəlirdi. Bu münasibətlə 6 yanvar 1979-cu ildə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edilir. Dövrün bütün ziddiyyətlərinə baxmayaraq, qərarda Nizami Gəncəvinin məhz Azərbaycan şairi olmasının qabarıq vurğulanması əsas önəmli fakt idi. Bu o demək idi ki, böyük bir imperiya Nizami Gəncəvini Azərbaycanın şairi olaraq öyrənir və təbliğ edirdi. Qərarın icrasından irəli gələrək, 1981-ci ildə şairin 840, 1991-ci ildə isə 850 illiyi dövlət səviyyəsində keçirilmişdir.

Heydər Əliyevin hakimiyyəti dövründə həyata keçirilən bəzi yubiley mərasimlərinə nəzər salaq. Yubilyarlar müxtəlif zümrələri əhatə edirdi. Məsələn: 1974-cü ildə 90 illiyi keçirilən Hüseyn Cavid repressiya qurbanı olmuşdur. 25 may 1979-cu ildə romantik şair Məhəmməd Hadinin 100 illiyi, 17 oktyabr 1980-ci ildə isə mollanəsrəddinçi tənqidi realist şair Əliqulu Qəmküsarın 100 illiyi qeyd edilmişdir. 12 iyul 1982-ci ildə isə şairə Mirvarid Dilbazinin 70 illiyi dövlət səviyyəsində keçirilmişdir.

Heydər Əliyevin sovet hakimiyyəti dövründə yazarlara olan etimadını və qayğısını sadaladığımız faktlarla məhdudlaşdırmaq olmaz. O həmçinin 27-31 oktyabr 1980-ci il Bakıda keçirilən dünya yazıçılarının "Ədəbiyyatların dostluğu-xalqların dostluğudur" Ümumittifaq Konfransını təşkil edərək, dünya yazıçılarını bir araya yığmağı bacarmışdır. Zamana və məkana diqqət yetirsək görərik ki, o cür tarixi dönəmdə bu qədər dünya yazarları Moskvaya yox, məhz Bakıya gətirilmişdir.

Bu hadisədən cəmi bir il sonra 12 iyun 1981-ci ildə yazarların VII qurultayında Heydər Əliyev birbaşa Cənub ədəbiyyatı məsələlərinə toxunur. Bunun təfərrüatlarını Vilayət Quliyevin tərtib etdiyi "Ədəbiyyatın yüksək borcu və amalı" kitabında görmək olur. Kitabda 1969-1999-cu illər Heydər Əliyevin ədəbiyyatla bağlı fəaliyyəti əhatə olunmuş, çıxışlarından sitatlar verilmişdir. Həmin sitatlardan birində deyilir: "Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər… Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır" (2, səh. 146).

Ulu öndər 29 oktyabr 1997-ci ildə "Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalanmışdır. Ümumiyyətlə, söz adamlarına qarşı göstərilən dövlət qayğısı ölkəmiz müstəqillik qazandıqdan sonra da davam etdirilmişdir.

90-cı illərdə ölkəmizin düçar edildiyi ədalətsiz müharibənin fəsadlarına baxmayaraq, Heydər Əliyev yenə də ədəbiyyat sahəsinə öz diqqət və qayğısını azaltmırdı. 1994-cü ildə satirik qələm ustası Cəlil Məmmədquluzadənin 125 illik yubileyinin keçirilməsi həmin çətinliklər dövründə böyük hadisə idi. Həmçinin Azərbaycanın azadlıq mücadiləsində fərqlənən şairlərin dövlət tərəfindən mükafatlandırılması milli müstəqilliyə xidmət edirdi. 1995-ci ildə ilk dəfə Heydər Əliyev tərəfindən Bəxtiyar Vahabzadəyə verilən "İstiqlal" ordeninə sonralar Məmməd Araz və Xəlil Rza Ulutürk də layiq görülmüşdür.

Heydər Əliyev 6 noyabr 1996-cı ildə Türk Dünyası Yazıçılarının III Qurultayında çıxışı zamanı bəşəri və ortaq türk abidələrinin adlarını vurğulamaqla böyük türk coğrafiyasının xəritəsini cızmışdır: „Qədim dövrlərdə "Dədə Qorqud", „Manas", "Alpamış", „Koroğlu" dastanları, xalqlarımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, xalqlarımızı dünyada tanıdan ölməz əsərlər yaratmışlar…"

Heydər Əliyev sovet hakimiyyəti illərində olduğu kimi müstəqilik illərində də yazıçıların qurultayında iştirak etmişdir. 1997-ci ilin oktyabrında Azərbaycan Yazıçılar Birliyinin X qurultayında iştirakı və söylədiyi "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm" – sözləri ədəbiyyata böyük sevginin ifadəsi idi. Həmin qurultayın səmərəli nəticəsi olaraq Azərbaycan Yazıçılar Birliyinin mətbu orqanları olan "Azərbaycan", "Ulduz", "Qobustan" jurnalları və "Ədəbiyyat qəzeti" dövlət tərəfindən maliyyələşdirilərək nəşr edilməyə başladı (3, səh.107).

Heydər Əliyevin ədəbiyyat sahəsində xidmətlərindən söz düşəndə onun folklora və folklor nümunələrinə biganə olmadığını da söyləmək lazımdır. 1997-2000-ci illərdə "Dədə Qorqud" dastanının Bakı ilə yanaşı, Drezden və YUNESKO-da yubileyinin təşkili buna örnəkdir. 2000-ci

ildə "Kitabı-Dədə Qorqud" eposunun 1300 illiyi münasibətilə həyata keçirilən silsilə tədbirlər nəinki folklorşünaslığa, o cümlədən ədəbiyyatşünaslığa böyük təkan verdi.

"Dədə Qorqud" eposuna verilən dövlət dəyəri milli kimliyə verilən əvəzolunmaz dəyər idi. Heydər Əliyevin bu tipli xidmətlərini nəzərə alan beynəlxalq qurumlar onun fədakarlıqlarını dəyərləndirməyi də unutmamışlar. 1986-cı ildən təsis edilən Beynəlxalq Atatürk Sülh Mükafatının 1 noyabr 1999-cu ildə Heydər Əliyevə verilməsi də həmin dəyərin bir parçasıdır. Bundan bir il sonra 22 iyun 2000-ci il Moskvada azərbaycanlıların ümumrusiya konqresində çıxış edən ulu öndər bir daha hər bir azərbaycanlının yanında olmaqdan qürurlandığını sübut edir. Harada yaşamasından asılı olmayaraq milli dövlətçilik marağına xidmət etməli olduqlarını vurğulayır. Öz fəaliyyətində bunun ən yaxşı nümunəsini göstərir. 9 mart 2001-ci ildə paytaxtımızda Atatürk Mərkəzinin yaradılması ilə ulu öndərin milli xidmətlərinə daha bir töhfə əlavə olunur (4, səh.7).

Heydər Əliyevin ədəbiyyat adamlarına qarşı sevgisi birtərəfli olmamış, onlar da daim bu şəxsiyyətin fəaliyyətini müxtəlif janrlarda olan əsərlərlə işıqlandırmışlar. Hələ sovetlər zamanında, 1974-cü ildə Cənubi Azərbaycan şairi Bulud Qaraçorlu Səhəndin yazdığı "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" şeiri sonralar çoxlu ardıcıllar tərəfindən davam etdirilmişdir. Müstəqillik dövründə eyni mövzulu çoxlu lirik şeirlər yazılmaqla bərabər irihəcmli poemalar da qələmə alınmışdır.

**Ədəbiyyat:**

1. Məmmədova Ş. Heydər Əliyev və Azərbaycanda ədəbi proses // Heydər Əliyev zirvəsi (Naxçıvan Dövlət Universitetinun Elmi Əsərlərinin xüsusi buraxılışı). Naxçıvan: Qeyrət, 2008
2. Quliyev V.. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, 1995
3. Ş.Məmmədova. Heydər Əliyev və Azərbaycan folkloru // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2009, № 2
4. Heydər Əliyev və klassik Azərbaycan ədəbi irsi // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2009, № 1

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA ELM VƏ TƏHSİLİN İNKİŞAFINDAKI ROLU

***Bədəlov Xəyyam Əli oğlu, b/m.***
***Pedaqoji fakültənin dekan v.i.e.***

***Xülasə:*** *Məqalədə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Elm və Təhsilin inkişaf dinamikasından bəhs edilir. Elm və təhsil sahəsində apardığı məqsədyönlü islahatlar böyük önəm kəsb edir. Aparılan islahatlar nəticəsində elmin, texnologiyanın inkişafı sahəsində yeni naliyyətlər əldə edilmiş, tərəqqiyə nail olunmuşdu.Bütün bunlar Ulu Öndərin apardığı uğurlu siyasətin nəticəsidir.*

***Açar sözlər:*** *Heydər Əliyev, Ulu Öndər, elm, təhsil, inkişaf, xalq*

Bütün mənalı ömrünü Azərbaycan xalqının inkişafına, müstəqil Azərbaycan dövlətinin

qorunub saxlanmasına sərf edən xalqımızın Ulu Öndəri Heydər Əliyev ölkəmizdə təhsilin inkişafına xüsusi diqqət yetirmişdir.

Dahi rəhbərin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirdiyi təhsil islahatları bu sahənin əsaslı inkişafına zəmin yaratmışdır.

"Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir.O, milli məqsədlər, mənafeler əsasında qurulmalıdır",- deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb.Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edir.

Hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumitəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə " Kənd ümumitəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında "qəbul edilmiş qərarların icrası nəticəsində Respublikada orta məktəb şəbəkəsi genişləndirilmiş, əsaslı keyfiyyət dəyişikliyinə nail olunmuşdur. Eyni zamanda məktəblilərə pulsuz dərsliklər verilməsi təşkil olundu.

Məktəb tikintisinə xüsusi diqqət yetirildi.1979-cu ildə ümumitəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən üç dəfədən çox artırılaraq 2117-yə ,1982-ci ildə isə 4267-yə çatdı.

Şagirdlərin sayı 1970-ci ildə 368 mindən 1980-ci ildə 710 minə yüksəldi.1970-1980-ci illərdə Respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verildi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi.

Ulu Öndər təhsil sahəsində ali məktəblərin fəaliyyətinin durmadan yaxşılaşdırılmasına ,maddi –texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilmişdir.

Əgər 1960-cı illərin sonunda Respublikada 12 ali məktəbdə 105 fakültə 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni ,530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

Dahi rəhbəri düşündürən əsas məsələlərdən biri də ölkəmizdə hərbi sahədə savadlı, peşəkar kadr hazırlığı olmuşdur.Ölkəmizdə bu sahədə dönüş yaratmaq məqsədilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı.Sevindirici haldır ki, bu gündə ordumuzun sıralarında xidmət edən doğma Qarabağımızın işğaldan azad olunmasında müstəsna rol oynayan kadrların əksəriyyəti həmin məktəbin məzunlarıdır.

"Təhsil millətin gələcəyidir"- deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə ölkəmizdə təhsil sahəsinin inkişafına daim diqqət yetirmişdir.

1998-ci ilin martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində islahat proqramı hazırlandı.

"Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi haqqında 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsində qaldırılmasında böyük rol oynayıb.

"Mən dünyada müəllim adından şərəfli ad tanımıram"- deyən Ümummilli Lider Heydər Əliyev bütün dövrlərdə müəllimə, müəllim əməyinə yüksək qiymət vermişdir.

Azərbaycan təhsilin inkişaf sahəsində Ulu Öndər işi əsasən iki istiqamətdə aparmağa üstünlük vermişdir-millilik və elm ilə təhsilin inteqrasiyası inkişafımızın bütün sahələrində Ulu Öndərin

siyasi kursunu yaradıcılıqla davam etdirən layiqli varis Azərbaycan Dövlətinin Prezidenti İlham Əliyev təhsil sahəsində də önəmli uğurların qazanılmasını təmin etmişdir.

Ölkəmizdə təhsil müəssisələrində maddi – texniki bazanın zənginləşdirilməsi, müasir kadr hazırlığı dünyanın qabaqcıl təhsil ölkələri ilə əlaqələr, məktəb tikintiləri yaxşı nəticələrin əsasını təşkil edir.

Respublikamızda təhsil sahəsində gənclərin elmi biliklərin əsasına sahib olmaları ilə yanaşı onların vətənpərvər, hərbi vətənpərvərlik ruhunda böyümələrinə xüsusi diqqət yetirilir. Məhz bu kimi amillər 30 ildən artıq yağı düşmənin tapdağı altında inləyən vətən torpağımızın hərb yolu ilə azad olunmasında gəncliyimizin vətənpərvərlik hissi, döyüş qabiliyyəti dünyaya səs saldı.

Müzəffər Ali Baş Komandanımızın çağırışına ürəkdən səs verən gənc əsgərlərimiz Qarabağın azad olunmasında misilsiz vətənpərvərlik ruhu nümayiş etdirdilər.

Əlbəttə bütün bu keyfiyyətlər təlim – tərbiyə müəssisələrimizdə aparılan düzgün təhsil siyasətinin nəticəsidir.

Müstəqil Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyevin dövlətimizin və xalqımızın inkişafı üçün qurub yaratdığı strateji xətt hər sahədə olduğu kimi təhsil sahəsində də uğurla davam etdirilir.

**Ədəbiyyat:**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II cild. Bakı, Azərnəşr, 2005
2. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997.
3. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı, Təhsil,1997
4. Xudiyev N. Heydər Əliyev fenomeni // Xudiyev N. Zamanın axarı ilə (IV cild) I hissə. Bakı: Elm və təhsil, 2013, 788 s., səh: 326-339
5. Axundov A.A. Heydər Əliyev və Azərbaycanda dil quruculuğu // Heydər Əliyev dil haqqında və Heydər Əiyevin dili. Bakı, Elm. 1998. -196 s.

## AZƏRBAYCAN ELMİNİN İNKİŞAFI HEYDƏR ƏLİYEV ZƏKASININ TƏNTƏNƏSİDİR

***Süleymanova Lətafət Nəsib qızı***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***Sevinc Hüseynova Sərxan qızı***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının laborantı***

***Xülasə:*** *Məqalədə Ulu öndərin ölkəyə rəhbrləiyi dövründə Elm və təhsil sahəsində aparılmış islahatlardan geniş bəhs edilir. Azərbaycan təhsilinin uğurlu inkişafında Heydər Əliyevin zəkasının rolu böyükdür. Məqalədə təhsil sisteminin hazırki vəziyyətindən də geniş bəhs edilmişdir.*

*Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışı dövründə təhsil sahəsində əsaslı dəyişiliklərdən bəhs edilmişdir.*

***Açar sözlər:*** *Ulu Öndər, Azərbaycan təhsili, təhsil sitemi, təhsil strategiyası, dövlət gənclər siyasəti*

Yaşadığımız dünyanın mövcudluğu, inkişafı və zənginliyi dahi şəxsiyyətlərin əməllərinin sayəsində mümkün olur. Belə şəxsiyyətlər təkrarsız və bənzərsizdirlər. Hətta demək olar ki, bu şəxsiyyətlər 100 ildə bir dəfə dünyaya gəlir, yaşayır, yaradır, xalqına, dövlətinə, ümumilikdə isə bəşəriyyətə əvəzsiz töhfələr verirlər. Birmənalı şəkildə demək olar ki, dövlətimizin və xalqımızın nicatı, xilası və xoşbəxt gələcəyi naminə hakimiyyətə qayıtmış Ulu Öndər Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur.

Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı dahi öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun qoyduğu yol bugünkü Azərbaycan təhsilinin özəyini təşkil edir. [1.]

Təhsil hər bir dövlətin inkişafının əsas özülü sayılır. Məhz güclü rəqabətin, qlobal inteqrasiyanın, beynəlxalq əməkdaşlığın sürətlə yayıldığı müasir dünyamızda hər bir dövlət öncül yerlərdən birini tutmağa çalışır. Azərbaycan da bu qlobal dünyanın bir üzvüdür. Bu baxımdan təhsilimizin müasir dünya standartları səviyyəsində qurulması dövlətin başlıca prioritetlərindəndir. Azərbaycan təhsili sağlam, intellektual gənc nəslin formalaşdırılması məqsədlərinə nail olmaq üçün geniş imkanlar yaradır. Dövlətin bu sahəyə xüsusi diqqət yetirməsi, atılan addımlar, qəbul edilmiş qərarlar, təhsilin, elmin inkişafına ayrılan vəsaitlərin səviyyəsində də özünü göstərir.

Azərbaycan təhsilinin uğurlu inkişafı da Ulu Öndərin adı ilə bağlıdır.

Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında bu dahi insanı xatırlayır, onun nəcib və uzaqgörən əməllərinin xoş nəticələri ilə rastlaşırıq.

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu kontekstdən yanaşanda Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən Ümumilli Lider ölkədə təhsil islahatları aparılmasının da zəruriliyini vurğulayaraq hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi.

Ulu Öndərin öz sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Həyata keçirilən islahatlar proqramına əsasən, fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır. [1.]

Milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Bu mənada Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dünəninə və bu gününə diqqət yetirmək

lazımdır. Bir faktı qeyd etmək kifayətdir ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Ulu Öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Heydər Əliyev öz çıxışlarında dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə də ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, təhsil sistemində ciddi islahatlar həyata keçirmişdir.

Bir məsələni də qeyd etmək lazımdır ki, Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə beş yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş ittifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların təhsil almasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, bu sahənin problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə rəhbəri bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır. [2.]

Gənclərimiz ölkənin siyasi, sosial-iqtisadi sahələrində mühüm vəzifələrə təyin olunur, onlara böyük etimad göstərilir. Gənclərə bu cür dövlət dəstəyi, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan siyasətin davamıdır.

1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra gənc nəslə diqqəti artırmaq dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Gəncləri "Azərbaycanın gələcəyi" adlandıran Heydər Əliyev onlara hər zaman qayğı göstərməyin vacibliyini qeyd edirdi. Müasir dünyada güclü demokratik dövlət quruculuğunda gənclərin rolunu düzgün qiymətləndirən Ulu Öndər bütün sahələrdə onlara böyük etimad göstərirdi. Dövlət orqanlarında gənclərin fəaliyyətinin genişləndirilməsi və onları bir-biri ilə əlaqələndirmək məqsədilə Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılmışdır.

Azərbaycan gəncliyinin inkişafında və gənclərin dövlət qurumlarına inteqrasiya olunmasında Ulu Öndərin böyük xidmətləri olub. 1997-ci il fevralın 2-də Azərbaycanda "Gənclər Günü"nün elan oluması ilə bağlı fərman bu sahədə atılan növbəti addım oldu.

Gənclər hərəkatının təşkilatlanması istiqamətində dövlət dəstəyinin göstərilməsi ilə bağlı Ulu Öndər Heydər Əliyevin imzaladığı fərman və sərəncamlar, həyata keçirdiyi tədbirlər, gəncliyin inkişafında mühüm əhəmiyyət kəsb etdi. 1996-cı ildən başlayaraq, Azərbaycan gənclərinin forumları keçirilməyə başlanıldı. Həmin il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev tarixi çıxış edərək gənclərin qarşısına şərəfli vəzifə qoydu. Ulu Öndər Heydər Əliyev hər bir gəncin ən əsas vəzifəsinin müstəqil Azərbaycanın bu gününü və gələcəyini düşünməli olduğunu vurğuladı. Forumda Ulu Öndər gənclərin görəcəkləri işlər barədə öz tövsiyələrini, eləcə də, onları narahat edən problemlərin həlli istiqamətində tədbirlərin görülməsi üçün əlaqədar təşkilatlara ciddi tapşırıqlar verdi.

Heydər Əliyevin imzaladığı "Dövlət gənclər siyasəti haqqında" fərmanı Azərbaycanda gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait yaratdı. Sənəddə Gənclər və İdman Nazirliyi nəzdində gənclərin problemləri üzrə elmi araşdırmaların aparılması mərkəzinin yaradılması nəzərdə tutulurdu. Ulu Öndər Heydər Əliyevin gənclərlə bağlı fikirləri və onun yaratdığı fəlsəfi ideyalar bu gün də aktualdır.

Heydər Əliyev bütün həyatı dövründə Azərbaycanın milli maraqlarını uca tutmuşdur.

Əslində, müstəqilliyimizin ilk günlərindən Azərbaycan xalqı bu dövlətin başında Heydər Əliyevin olmasını arzulayırdı. Azərbaycan xalqı öz canı, qanı bahasına müstəqillik qazandıqdan sonra çox zülmə, əzab-əziyyətlərə məruz qaldı. Əvvəl Ayaz Mütəllimov hakimiyyəti, daha sonra AXC-Müsavat cütlüyünün iqtidarı dövründə Azərbaycan dövləti parçalanmaq, dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı. Hakimiyyətin yuxarı kürsüsündə oturanların hər biri özünə silahlı dəstə yaratdı. Səriştəsiz, dövlət idarəçiliyindən xəbəri olmayan insanlar Azərbaycanda hakimiyyəti ələ keçirdilər. Respublikamızda ictimai-siyasi vəziyyət getdikcə ağırlaşırdı. [3.]

Ermənistandan zorla öz yurd-yuvalarından qovulan azərbaycanlılar respublikamızın müxtəlif rayonlarına köçməyə məcbur oldular. Bu o zaman idi ki, Xankəndidə erməni millətçi və separatçıların fəallaşması və Qarabağın Azərbaycandan ayrılması tələbləri səslənirdi. Ermənilər bu bölgədə azərbaycanlıları qətlə yetirirdilər. Azərbaycanda hakimiyyətdə olan şəxslər bu hadisələrin qarşısını almaqda aciz idilər. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyü özlərində cəsarət tapıb güclü və qətiyyətli siyasətçi, dövlət idarəçiliyini mükəmməl bilən, dahi şəxsiyyət olan Heydər Əliyevi hakimiyyətə dəvət etmədilər. Həmin dövrdə Heydər Əliyev hakimiyyətdə olsaydı, ölkəmiz bu cür ağır vəziyyətə düşməz, torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edilməzdi, xalqımız çıxılmaz vəziyyətə düşməzdi.

Ümummilli Lider Heydər Əliyev öz xalqını sevən, müstəqil Azərbaycan dövlətinin yaşaması və güclü bir dövlət olması üçün canını belə əsirgəməyən dahi şəxsiyyət və güclü siyasətçi idi. 1993-cü ildə Azərbaycan vətəndaş müharibəsi astanasında olanda və ölkəmiz parçalanma təhlükəsi ilə üz-üzə qalanda bütün xalq Heydər Əliyev müdrikliyinə sığındı və bu ağır vəziyyətdən qurtuluşun yeganə yolunu Heydər Əliyev dühasında gördü.

Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan xalqı böyük bəlalardan qurtuldu. Ölkəmiz parçalanmaq, bölünmək, dağılmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas oldu. 4 iyun hərbi qiyamını, ölkədəki xaosu, anarxiyanı fürsət bilib ölkənin cənubunda "Talış Muğan Respublikasını", şimalında isə "Ləzgistan Respublikası" qurmaq istəyən separatçı, anti-Azərbaycan dairələrinin məkrli planlarının qarşısı alındı. Özü də məhz Heydər

Əliyevin müdrikliyi, uzaqgörənliyi və həmin bölgələrin insanlarının qətiyyəti, Azərbaycana bağlılığı, sevgisi sayəsində bu planlar iflasa uğradıldı, onları ssenariləşdirənlərin arzuları birdəfəlik gözlərində qaldı.

Ulu Öndərin həyata keçirdiyi mühüm işlər nəticəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu, dünyada tanınmağa başladı, imzasını imzalar içində tanıtdı. Əgər həmin ağır dövrdə Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, Azərbaycan xalqının başına dəhşətli faciələr gələcəkdi. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan üzləşdiyi böyük bəlalardan qurtuldu və dövlət quruculuğu istiqamətində əhəmiyyətli işlər həyata keçirilməyə başlandı.

Həyatını daim Azərbaycana və Azərbaycan xalqına həsr edən Ulu Öndər özünün də qeyd etdiyi kimi, xilaskarlıq missiyasını öz üzərinə götürdü və onu şərəflə, ləyaqətlə yerinə yetirdi. Heç təsadüfi deyil ki, bu gün bütün sahələrdə Ümummilli Liderin ideyaları, siyasi kursu özünü göstərir. Ümummilli Liderin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərin hədd-hüdudu yoxdur, lakin onun fəaliyyətinin zirvəsi məhz müstəqil Azərbaycan dövlətini qurmasıdır.

Xalqının xilaskarı olan Heydər Əliyev azərbaycanlıların yaddaşında əbədiyyətə kimi yaşayacaq. Heç təsadüfi deyil ki, Azərbaycan xalqı Heydər Əliyevi özünün Ümummilli Lideri hesab etdi. Dünyada Heydər Əliyev kimi siyasətçilərə nadir hallarda rast gəlinir. Ulu Öndər güclü və cəsarətli siyasətçi olmaqla yanaşı, fenomenal yaddaşa, hərtərəfli biliyə, mükəmməl natiqlik qabiliyyətinə malik böyük şəxsiyyət idi. Dünya siyasətçiləri Ulu Öndəri "siyasət nəhəngi", "siyasət qrossmeysteri" adlandırırdılar. Heydər Əliyev eyni zamanda siyasi uzaqgörənliyi ilə də dünya siyasətçilərindən seçilirdi. Ulu Öndər apardığı siyasətin on illərdən sonra hansı töhfələr verəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin ən böyük gücü onun dərin və unikal biliyə, tükənməz səbrə, müdrikliyə, ən əsası həmsöhbətinə təsiretmə gücünə malik olmasında idi. Heydər Əliyev xarizmatik şəxsiyyət, nadir diplomat, güclü sərkərdə idi.

Ulu Öndər eyni zamanda öz xalqının tarixini gözəl bilən, onun adət-ənənələrinə hörmət edən və yaşadan dövlət başçısı idi. Milli ideologiyanın yaranması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideyası tək Azərbaycanda yaşayan azərbaycanlıların deyil, bütün dünyada yaşayan həmyerlilərimizi bu ideologiya ətrafında birləşdirir. Bunun nəticəsidir ki, indi dünyada yaşayan bütün azərbaycanlılar harada doğulmaqlarından və yaşamalarından asılı olmayaraq Azərbaycan dövlətini öz vətənləri hesab edirlər.

Ulu Öndərin dahiliyi ondadır ki, Azərbaycan kimi kiçik bir dövləti dünyada tanınan nüfuzlu bir dövlətə çevirdi. Beynəlxalq təşkilatlarda Azərbaycana hörmət etməklə yanaşı, ona ciddi diqqət yetirirlər. Qərbə inteqrasiya yolunu tutan Ulu Öndər bütün çətinliklərə və qarşısına çəkilən sipərlərə baxmayaraq, uğurlu iqtisadi addımlar atmağı bacardı.

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Ölkəmizdə və eləcə də dünyada iqtisadi inkişaf proqramı kimi qəbul edilən bu müdrik fikrin müəllifi Ümummilli Lider, tarixi şəxsiyyət, müstəqil Azərbaycan dövlətinin memarı, qurucusu Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə iqtisadiyyatın dirçəldilməsinə xüsusi önəm vermişdir. İqtisadiyyatın inkişafı bütün sahələrdə istənilən nəticənin əldə olunmasında əhəmiyyətli rol oynayır. Ən yeni dövrün reallıqları bunu bir daha sübut edir.

Hələ sovet dövründə Azərbaycana rəhbərlik edən Ulu Öndər iqtisadiyyatda inqilab sayıla biləcək uğurlara imza atdı. O vaxta qədər Azərbaycana xammal bazası kimi baxıldığı halda Heydər Əliyevin dövründə respublikamız iqtisadi tərəqqi əldə etdi. Hətta Azərbaycanın digər respublikalardan iqtisadi asılılığı aradan qaldırıldı.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra ölkəmizin iqtisadi və siyasi həyatında köklü dəyişikliklər baş verdi. Azərbaycanın beynəlxalq arenada nüfuzu artmağa başladı. Geostrateji məkanda yerləşməsi, zəngin karbohidrogen ehtiyatları ilə ölkəmiz hər zaman dünya birliyi üçün böyük maraq kəsb etmişdir. Son dövrlərdə Azərbaycan Respublikasının sürətlə inkişafa doğru irəliləyən iqtisadiyyatı, Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilməsi və bölgədə əsas söz sahibi olması bu marağı artırmışdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri kimi qlobal enerji layihəsini reallaşdırmaqla dünya neft bazarına daxil olan Azərbaycanla artıq Cənubi Qafqazda yerləşən adi bir dövlət kimi deyil, strateji tərəfdaş kimi münasibətlər quruldu. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası da uğurla başa çatdırıldıqdan sonra Azərbaycan tək bölgədə deyil, dünyada əsas söz sahibi olan dövlətə çevrildi. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi isə bütün problemlərin həllinə təkan verdi.

Ölkəmizdə qadınların siyasi arenaya inteqrasiyası da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Böyük şəxsiyyət siyasətdə qadın hərəkatının inkişafına, qadınlarımızın ölkəmizin ictimai-siyasi həyatında yer almalarına böyük önəm verirdi. Bu gün Ulu Öndərin siyasi ideologiyasından dərs alan, bu siyasi kursun davamçıları olan Azərbaycan xanımları istər siyasətdə, istərsə ictimai həyatda çox önəmli yer tuturlar. Ulu Öndərin qadınlarla bağlı məsələlərin həlli üçün imzaladığı bütün fərman və sərəncamlar qadın hüquqlarının reallaşmasına xidmət etmişdir.

Zaman keçdikcə Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu dərindən öyrənib bu dahi şəxsiyyətin öz xalqına və dövlətinə göstərdiyi xidmətə görə hər zaman ona ehtiram göstərəcək. Azərbaycan xalqı yaşadıqca Heydər Əliyevin ölməz ideyaları da onunla yaşayacaq.

Azərbaycançılıq, soykökümüz, milli-mənəvi dəyərlərimizə bağlılıq, xalqa olan sonsuz məhəbbət hissləri həmişə Ulu Öndərin ürəyində olub. Onu da qeyd etmək lazımdır ki, ana dilimiz olan Azərbaycan dilinin saf, təmiz şəkildə qorunmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Azərbaycan dilini sevən, ona böyük hörmətlə yanaşan Ümummilli Lider hər zaman ana dilinə münasibəti ilə hər kəsə örnək oldu.

Sovet dövründə Azərbaycana rəhbərlik edən Ulu Öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə layiqli dəyəri göstərdi. Keçən əsrin 70-ci illərinin ortalarından başlayaraq SSRİ rəhbərliyi respublikalarda milli dillərin sıxışdırılması üçün bütün təzyiq vasitələrindən istifadə edirdi. Belə bir şəraitdə Azərbaycan dilini yaşatmaq, inkişaf etdirmək və ən əsası milli ideologiya səviyyəsinə çatdırmaq böyük cəsarət tələb edirdi.

Ulu Öndər 1978-ci ildə Azərbaycan xalqının qarşısında ən böyük tarixi xidmətlərindən birinə imza atdı. "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" müddəası Əsas Qanunda təsbit olundu. Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapdı. Ulu öndər Heydər Əliyev ziyalıları, yazıçı və şairləri Azərbaycan dilinin qorunması üçün onları səfərbər olmağa çağırırdı. Ulu Öndər Heydər Əliyev dilçi alimlərimizə böyük qayğı göstərər, ədiblərimizə ana dilində yazılan kitabların saylarının

çoxaldılmasını tövsiyə edirdi. Bütün bunlar Azərbaycan dilinin inkişafına və qorunub saxlanılmasına xidmət edirdi.

Rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən Ulu Öndər Heydər Əliyev praktik olaraq ana dilinin mövqeyinin yüksəlməsinə təsir göstərib və başqalarına nümunə olub. Heydər Əliyevin həyata keçirdiyi dil siyasəti, dövlət quruculuğu siyasətinin tərkib hissəsi idi.

Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi bütün hakimiyyəti dövründə respublikamızın inkişafı üçün gördüyü işlərin miqyası ölçüyəgəlməzdir. Heydər Əliyev bu gün ən yüksək bir zirvədə, əlçatmaz bir yüksəklikdə dayanmışdır. Millətimiz, xalqımız, doğma Azərbaycanımız nə qədər yaşayırsa, Heydər Əliyev də qəlbimizdə, ürəyimizdə yaşayacaq.

Ulu Öndərin daha bir xidməti ondan ibarətdir ki, bugünkü güclü Azərbaycan Ordusunun əsası onun tərəfindən qoyulmuşdur. 1971-ci ildə Heydər Əliyev Çəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail oldu. Bununla da Azərbaycanda milli hərbi kadrların hazırlanmasına başlanıldı. 1999-cu il yanvarın 20-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması haqqında Heydər Əliyev tərəfindən imzalanmış fərman hərbi zabitlərin yetişdirilməsində böyük addım oldu.

Təbii ki, hər kəsə tarixin yaddaşına köçmək, əbədi yaşamaq haqqı qazanmaq nəsib olmur. Bunun üçün fitri istedada malik olmaq, Tanrının bəxş etdiyi ömrü xalqının yaxşı yaşaması yolunda şam kimi əritmək lazımdır. Heydər Əliyev bir çox cəhətlərinə görə nadir tarixi şəxsiyyət kimi yaddaşlara həkk olunub. Ən başlıcası isə odur ki, Ümummilli Lider ömrünü xalqının azadlığı, istiqlalı, vətəninin müstəqilliyi, insanların xoşbəxt, təhlükəsiz, rahat yaşaması naminə apardığı mübarizəyə həsr etdi və başladığı haqq-ədalət mübadiləsini zəfərlə başa çatdırdı.

Azərbaycan Respublikasının müasir inkişaf tarixi də dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Yeni Azərbaycanın yaradıcısı kimi tarixə düşən Heydər Əliyevin siyasi irsi bugünkü uğurlarımızın əsasını təşkil edir.

Heydər Əliyev zəmanəmizin ən böyük şəxsiyyəti kimi tarixə düşdü. O, tarixə düşməklə yanaşı, həm də şərəfli bir tarix yolu açdı. Xalqımızın azadlığı, istiqlalı, Azərbaycanın müstəqilliyi, inkişafı yolunda əzmlə, fədakarlıqla mübarizə apardı. Şərəfli, mənalı ömür yolu keçdi. Bütün ömrünü xalqın yaxşı yaşaması, ümumiyyətlə, dinindən, dilindən, siyasi baxışlarından, milliyyətindən asılı olmayaraq bütün insanlara eyni münasibət bəslənilməsi üçün apardığı mübarizəyə həsr etdi. O, təkcə Azərbaycanda deyil, bütün dünyada insanlara ən böyük dəyər verən şəxsiyyət kimi tarixə düşdü. Humanist, qayğıkeş, hər kəsə layiq olduğu qiyməti verməyi bacaran insan kimi tanındı.

"Mən gələcək nəsillərə çox güclü, qüdrətli, iqtisadi cəhətdən inkişaf etmiş Azərbaycan qoyub getmək istəyirəm", - deyən Ulu Öndər Heydər Əliyev dediyi sözə əməl etdi. Ulu Öndərə həm də ona görə minnətdarıq ki, o böyük zəhmətlər hesabına qurduğu, müstəqil Azərbaycanın və onun vətəndaşlarının, dünya azərbaycanlılarının xoşbəxt gələcəyinin təminatçısı ola biləcək İlham Əliyev kimi güclü bir siyasətçi yetişdirdi. Ona və onun timsalında Azərbaycanın xoşbəxt gələcəyinə inandı.

Bugünkü azad, demokratik, güclü və qüdrətli Azərbaycan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu siyasətin bəhrəsidir. Azərbaycan tarixinin şanlı səhifələrini yazan Heydər Əliyevin keçdiyi həyat yolu bizə və gələcək nəsillərə əvəzsiz nümunədir.

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqının xilaskarı, Ümummilli Lider Heydər Əliyev əbədi olaraq Azərbaycan xalqının yaddaşında, qəlbində yaşayacaq.

**Ədəbiyyat:**


1. İnternet materialları.
2. Azərbaycan təhsilinin inkişafına zəmin yaradan islahatlar. 2001.
3. Azərbaycan milli ensklopediyası.


## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA VƏ TƏHSİLDƏ ROLU


***Orucova Nuridə Şafa qızı***

***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***

**nuridaorujova98@gmail.com**



***Xülasə***: *Ulu Öndər Heydər Əliyevin Azərbaycan elminin inkişafında və təhsildə xidmətləri misilsizdir. Heydər Əliyev öz fəaliyytində təhsilin inkişafına diqqət və qayğı göstərmiş, Azərbaycan elminin dünyada tanınmasına nail olmuşdur. O. Respublikada elmin maddi-texniki bazasının və kadr potensialının inkişaf etdirilməsi, elmi-tədqiqat işlərinin genişləndirilməsi və keyfiyyətcə yaxşılaşdırılması ilə bağlı qərarlar qəbul etmiş, sərəncamlar imzalamışdır.*



**Açar sözlər**: *Heydər Əliyev, elm, təhsil sistemi, təhsil siyasəti.*


Müasir dövrdə hər bir dövlətin, xalqın gələcəyi və inkişaf sahəsi həm də onun malik olduğu elmi-mədəni potensialla ölçülür. Bu baxımdan müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümumilli Lideri Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri də misilsizdir. Ümummilli Lider dünyada tanınan və qəbul edilən görkəmli siyasi və dövlət xadimi olmaqla yanaşı həm də böyük elm adamı idi. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərədn azərbaycan elminin inkişaf etdirilməsi, dünyada tanınması kimi məsələlərə xüsusi diqqət ayırmış, bu mövzu ilə bağlı mühüm qərarlar qəbul etmiş və qərarların düzgün şəkildə icra olunmasına diqqət yetirmişdir. O, Elmler akademiyasına, bütövlükdə Azərbaycan elminə, ziyalılara həmişə yüksək qiymət vermiş, diqqət və qayşı göstərmiş, hər bir Azərbaycan vətandaşının təhsil alması, elm sahəsində uğurlu addım atmaları üçün əlindən gələni əsirgəməmişdir. Azərbaycan cəmiyyəti, eləcə də Azərbaycan elmi Heydər əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə daha sürətli inkişaf etmişdir və elm sahəsində daha çox nailiyyətlər əldə olunmuşdur. Azərbaycan elmi xüsusilə Elmler akademiyası onun güclü siyasəti və yaradıcılıq qabiliyyəti sayəsində dünyada şöhrət qazandı. Heydər Əliyev qətiyyətli şəkildə səsləndirmişdir ki, "Elmlər Akademiyasi xalqın tarixi nailiyyətidir". Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdə akademiya dağılmaq üzrə idi. Fikirləşirdilər ki Azərbaycanın elmlər akademiyası dağılmalıdır verilməlidir bəzi institutlara.Lakin Heydər Əliyev buna ciddi şəkildə qarşı çıxırdı və deyirdi ki, "Bir ölkənin ki alimi yoxdur onda o ölkə gələcəkdə başqa ölkələrə yem olacaq. Çünki ölkə alim yetişdirməlidir, ölkədə savadlı kadrlar olmalıdır. Bəs bu ölkəni gələcəkdə kim idarə etsin əgər savadlı kadrlarımız yoxdursa?". 44 günlük vətən müharibəsi zamanı müxtəlif ölkələrdən nə qədər öyrədilmiş jurnalistlər gəlmişdi İlham

Əliyevdən müsahibə almaq üçün, düşünülmüş,təhrikedici bizim əleyhimizə olan suallar verirdilər ancaq İlham Əliyev güclü savadı, hər sahə üzrə yiyələndiyi biliyi sayəsində onların hər birini faktlarla susudurmağı bacarırdı. Bu elmə yiyələnməyin savadlı kadr olmağın və yetişdirməyin vacibliyini bir daha təsdiq edən bariz nümunələrdən biridir. Çoxsaylı müxbirlərin, elm adamlarının, elmi idarələrin rəhbərlərinin iştirak etdiyi görüşdə Heydər Əliyev demişdir ki, “Azərbaycan elmi, Azərbaycan təhsili elə olmalıdır ki, təhsil alim yetişdirsin, alimlərin elmi-tədqiqatları isə azərbaycan xalqına, vətənimizə xidmət etməlidir. Azərbaycanın problemləri elmi-surətdə həll edilməlidir. Məsələn, Azərbaycan neft ölkəsi kimi tanınır bizə neft sahəsində görkəmli alimlər lazımdır və digər elm sahələrində də eynilə”. Ulu Öndər Azərbaycanı elmi mərkəzlərdən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayını artırılmasına çalışır və onlara qayğı göstərirdi, alimləri və elmi idarələrin rəhbərlərini elmin ən müasir sahələri üzrə elmi-tədqiqat işlərinin aparılmasına yönləndirirdi. O, Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərmiş, görkəmli alimlərin dövlətin müxtəlif orden, medal və mükafatları ilə təltif edilməsinə nail olmuş, milli ruhlu alimləri təqib və təzyiqlərdən qorumuş, onların yaradıcılığı üçün hər cür şərait yaratmışdır.“Təhsil millətin gələcəyidir”. Xalqımızın Ümummilli Lideri, Ulu Öndər, Dahi şəxsiyyət Heydər Əliyevin bu kəlamı əslində özündə olduqca dərin bir məna əks etdirir. “Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir.O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır”, ─deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edib. Cəmiyyətin xoşbəxt gələcəyini məhz təhsillə bağlı olduğunu vurğulayan Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə təhsilə, təhsilin inkişafına, təhsil şəbəkələrinin genişləndirilməsinə, yeni-yeni məktəb binalarının tikilib istifadəyə verilməsinə, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyasına, Azərbaycan gənclərinin dünyanın ən nüfuzlu ali məktəblərində təhsil almalarına diqqət və qayğı ilə yanaşmış, dövlət-təhsil siyasətinin əsaslarını yaratmışdır. Azərbaycan təhsilinin milli tariximizdə coşqun yüksəlişi, əsl intibah illəri kimi daxil olan ilk mərhələsi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrə təsadüf edir. Həmin illərdə ölkəmizdə yüzlərlə yeni məktəb binaları tikilmiş, məktəblərin maddi-teniki bazası daha da zənginləşdirilmiş, təhsilin yüksək səviyyədə inkişafı üçün geniş şərait yaradılmışdır. Heydər Əliyev gənclərin hərtərəfli inkişafına böyük diqqət yetirirdi. Hələ Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi Sovet hakimiyyəti illərində, 1970-ci ildən başlayaraq yüzlərlə Azərbaycanlı gənclərin SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi respublikanın milli kadr potensialının daha da möhkəmlənməsinə imkan yaratmışdır. Həmin milli kadrlar daha sonralar ölkəmizin sosial-iqtisadi, mədəni və siyasi həyatında müstəsna rol oynamışdır. Həmin illərdə Azərbaycanda 5 yeni ali təhsil müəssisəsi yaradlılmış, ali təhsil müəssisələrində təhsil alan gənclərin sayı 70 mindən 100 minə çatdırılmışdır. Təhsilin inkişafına göstərilən diqqət və qayğı Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi ikinci dövrdə də davam etdirilmişdir. Qısa zaman ərzində ölkəmizin təhsil şəbəkəsi yenidən genişləndirildi. Ulu Öndər Heydər Əliyev bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirərək, mühüm tarixi fərman və sərəncamlar imzaladı. Təhsil sahəsində yeni islahatlar dövrü başladı. Təhsilin inkişafındakı bütün maneələr aradan qaldırıldı. Azərbaycan təhsili dünya standartlarına uyğun, müasir çağırışlara cavab verəcək

səviyyəyə çatdırıldı. Təhsilin məzmun standartları müasir tələblərə uyğunlaşdırıldı. Təhsil infrastrukturu daha da zənginləşdirilərək, müasirləşdirildi. Müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi üçün konkret əməli addımlar atıldı. Hazırda müstəqil və müasir Azərbaycan Ulu Öndər Heydər Əliyev siyasəti ilə Prezident İlham Əliyev tərəfidən layiqincə davam etdirilir. Heydər Əliyevin siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, habelə sosial-iqtisadi tərəqqiyə nail olunması kimi taleyüklü məsələlərdə uğurla sınaqdan çıxmışdır. Bu gün əminliklə qeyd etmək olar ki, Prezident İlham Əliyevin Ümummilli Lider Heydər Əliyev irsinin layiqli davamçısı kimi təhsilin inkişaf strategiyasının uğurla davam etdirilməsi sayəsində Azərbaycan təhsili sözün əsl mənasında özünün yüksəliş dövrünü yaşayır.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİ

***Cəfərova Sevil Raqif qızı***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***seva.jafarova.69@mail.ru***

***Xülasə:*** *Məqalədə Heydər Əliyev respublikamıza rəhbərliyə gəldiyi ilk günlərdən elmin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş, ona daim qayğı göstərmiş, elmin sürətli inkişafı üçün mühüm qərarlar vermişdir. Ulu Öndərin hakimiyyəti illərində Azərbaycan dilinə, Azərbaycan tarixinə, mədəniyyətinə dair elmi-tədqiqatların aparılması və monoqrafiyaların nəşri xeyli artırıldı. Yeni-yeni əsərlər yazılaraq nəşr edilirdi. Azərbaycan tarixi və dilçilik sahəsində yazılmış bir sıra əsərlərə dövlət mükafatları verilirdi. Ulu Öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət eyni zamanda Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunması haqqından bəhs edilir.*

***Açar sözlər:*** *Heydər Əliyev, Uzaqgörən siyasətçi, elmi-tədqiqat, elm, alim.*

Müasir dövrdə hər bir dövlətin, xalqın gələcəyi və inkişaf səviyyəsi həm də onun malik olduğu elmi-mədəni potensialla ölçülür. İndiyə qədər bəşər tarixində əbədilik qazanmış dahi şəxsiyyətlərin elmə, elm xadimlərinə münasibəti, bu fəaliyyət sahəsinin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən birinə çevrilmişdir.

Bu baxımdan müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri də misilsizdir. Elm sahəsində qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin mühüm şərti kimi nəzərdən keçirmiş ulu öndərimiz Azərbaycana rəhbərliyinin bütün dövrlərində bu sahəyə diqqət və qayğısını əsirgəməmiş, daim milli elmimizin qüdrətli hamisi kimi çıxış etmişdir. O, Azərbaycan elminə, ziyalılara həmişə yüksək qiymət vermiş, diqqət və qayğı göstərmişdir.

Azərbaycan cəmiyyəti, eləcə də Azərbaycan elmi XX əsrdə çox sürətlə inkişaf etmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər isə bu cəhətdən xüsusilə seçilir. Elmin, elm ocağının yeni yüksəlişi məhz ulu öndərin adı ilə bağlı idi.

Ümummilli Lider dünyada tanınan və qəbul edilən görkəmli siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də böyük bir elm adamı idi. Onun müdrik siyasətinin uzaqgörənliyi və dərinliyi məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala arxalanmasında idi. Azərbaycan elminə və elm adamlarına göstərdiyi qayğı və dəstək elə bundan qaynaqlanırdı. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. O, cəmiyyətin, xalqın inkişafını elmdə, intellektdə görürdü.

Heydər Əliyev respublikamıza rəhbərliyə gəldiyi ilk günlərdən elmin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş, ona daim qayğı göstərmiş, elmin sürətli inkişafı üçün mühüm qərarlar vermişdir. O, avqust (1969) plenumunda respublika elminin inkişafında yaranmış vəziyyətdən narahat olaraq demişdir: "Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Dissertasiyaların heç də hamısı lazımi nəzəri səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir... Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər...".

Azərbaycan aliminə və elminə elə ilk gündən yüksək qayğı göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini də ardıcıl və sistemli şəkildə həyata keçirirdi. Onun diqqət və qayğısı nəticəsində elmi-tədqiqat institutlarının və elmi işçilərinin sayı artır. Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərilir, elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlir, elmin tətbiq sahələri genişlənir, elm adamlarına yaradıcılıq şəraiti yaradılır, görkəmli alimlərin fəaliyyətləri təqdir olunur, onlar mükafatlandırılırdı, Azərbaycan dili, ədəbiyyatı və tarixi üzrə aparılan tədqiqatların genişləndirilməsinə xüsusi fikir verilirdi və s.

Görkəmli dövlət xadimi Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda elmi işçilərin sayı artır, alimlərin hazırlanmasına xüsusi diqqət verilirdi. 1970–1980-ci illərdə respublikamızda 258 elmlər doktoru, 2677 elmlər namizədi hazırlanmışdı. Respublika Elmlər Akademiyasının 56 həqiqi üzvü və 71 müxbir üzvü var idi. 123 elmi idarə və 17 ali məktəbin kafedralarında 22 min elmi əməkdaş, o cümlədən 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi çalışırdı.

Keçən əsrin 70–80-ci illərində yeni elm sahələrinin, elmi istiqamətlərin yaranması respublikamızda elmin inkişafına çox müsbət təsir göstərmişdi. Uzaqgörən siyasətçi Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi və bilavasitə iştirakı ilə kimya, neft emalı və neft-kimya sənayesinə kapital qoyuluşu artırılmış, bu sahədə ən qabaqcıl texnologiya tətbiq olunmuşdur. Neft-kimya sənayesi modernləşdirilmiş və yenidən qurulmuşdur. Astronomiya, kosmik tədqiqatlar, biokimya, molekulyar biologiya, biofizika, biotexnologiya kimi sahələr inkişaf etdirilmişdi. Ulu öndərin uzaqgörənliyi ilə Azərbaycanda onlarla nəhəng sənaye kompleksi-neft emalı, neft-kimya, maşınqayırma, cihazqayırma müəssisələri yaradıldı ki, bunlar da elmin sürətli inkişafını təmin etdi.

Heydər Əliyev respublika alimlərini və elmi idarələrin rəhbərlərini elmin ən müasir sahələri üzrə elmi-tədqiqat işlərinin aparılmasına yönəldirdi. Bilavasitə bu dahi insanın himayəsi altında ölkəmizdə elmin ən perspektivli sahələri üzrə elmi-tədqiqat işləri aparılırdı. Təkcə 1979-cu ildə təbiət və ictimai elmlər sahəsində respublikada aparılan elmi-tədqiqatların 55 nəticəsi sovet elminin

ən mühüm nailiyyətləri sırasında qeyd edilmişdi. Xalqımızın mənəvi həyatında əlamətdar hadisə olan çoxəsrlik tariximizdə ilk universal-milli on cildlik Azərbaycan Ensiklopediyasının meydana gəlməsi də Heydər Əliyevin adı ilə sıx bağlıdır. Bu ensiklopediya Heydər Əliyev dövrünün təkzibedilməz mənəvi abidəsidir.

Ümummilli Lider bütün ictimai-siyasi fəaliyyəti boyunca tarixə, ədəbiyyata, mədəniyyətə, ümumilikdə humanitar elmlərə yüksək qiymət və əhəmiyyət vermiş, onların xalqın mənəvi həyatında oynadığı rolu layiqincə dəyərləndirmişdir. Öz xalqını və dilini dərindən sevən Heydər Əliyev rəhbərliyə gəldiyi ilk günlərdən başlayaraq, respublika iqtisadiyyatı və mədəniyyətinin yüksəlişi, xalqın güzəranının yaxşılaşması uğrunda apardığı mübarizədə Azərbaycan dilinin fəaliyyət dairəsinin genişlənməsi və inkişafına da daima diqqət yetirmişdi. Ulu Öndərin hakimiyyəti illərində Azərbaycan dilinə, Azərbaycan tarixinə, mədəniyyətinə dair elmi-tədqiqatların aparılması və monoqrafiyaların nəşri xeyli artırıldı. Yeni-yeni əsərlər yazılaraq nəşr edilirdi. Azərbaycan tarixi və dilçilik sahəsində yazılmış bir sıra əsərlərə dövlət mükafatları verilirdi.

Keçən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlləri Azərbaycan üçün ən çətin, ağır dövrə çevrildi. Həmin illərdə mövcud hadisələrin müharibə alovunun fonunda Azərbaycan elminə də ciddi zərbələr vurulmuşdur. Bütün sahələrdə olduğu kimi, elm sahəsində də durğunluq hökm sürürdü.

1993-cü il Azərbaycan tarixində, müstəqil dövlətçilik tariximizdə, respublikamızın ictimai-siyasi fikir tarixində dönüş ili kimi yadda qalmışdır. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elmə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərmişdi.

Xalq 1993-cü ildə Heydər Əliyevi Azərbaycanın xilaskarı kimi ikinci dəfə hakimiyyətə gətirdi. Azərbaycan dövləti parçalanmaq, məhv olmaq təhlükəsindən xilas oldu, Bu, eyni zamanda, Azərbaycan elminin xilası demək idi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı ziyalıya, alimə və elmə hörməti də geri qaytardı.

Müstəqil dövlətin davamlı sosial-iqtisadi və mədəni inkişafında elmin mühüm rolu vardır. Bunu uzaqgörənliklə nəzərə alan ölkə başçısı elmin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması, elmi-texniki potensialın qorunub saxlanılması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etdi.
2002-ci ildə dövlət başçısı Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq,

Azərbaycan elmi və elm adamları Ümummilli Lider Heydər Əliyevin qayğısı və himayəsi sayəsində inkişaf etmiş və formalaşmışdır.

Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini, müəyyənləşdirdiyi siyasəti inamla və uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev praqmatik və rasional düşüncəli siyasətçi kimi xalqın gələcəyini məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında dəfələrlə vurğulamışdır. Möhtərəm Prezident İlham Əliyevin 2010-cu ildə AMEA-nın illik yığıncağında iştirakı və alimlər qarşısında dərin məzmunlu nitq söyləməsi, elmin inkişaf perspektivləri ilə bağlı dəyərli tövsiyələr verməsi, habelə akademiyanın binası ətrafında aparılan yenidənqurma, abadlıq işləri ilə yaxından tanış olması bu sahəyə dövlət qayğısının davamlı səciyyə daşıdığını göstərir. Prezident İlham Əliyev proqram xarakterli nitqində Azərbaycanın inkişafında elmin rolunu bir daha xüsusi diqqətə çəkmişdir: Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə

müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük verir. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir".

Ulu Öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət eyni zamanda Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.

**Ədəbiyyat:**


1. Milli Kitabxana.
2. Xaq qəzeti.
3. İnternet resursları.


## AZƏRBAYCAN TƏHSİLİNİN GƏLƏCƏK İNKİŞAFINA ZƏMİN YARADAN İSLAHATLAR


***Səfərov Səbuhi Allahverdi oğlu***
***"İctimai təbiət fənnləri və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***
***sbhi.sfrv49@gmail.com***



***Xülasə:*** *Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, Azərbaycan iqtisadi inkişaf tempinə görə regionda lider ölkəyə çevrilmiş, siyasi sabitlik və iqtisadi inkişaf təhsil sisteminin təşəkkülünə və islahatların aparılmasına da zəmin yaratmış, bu sahədə əsaslı nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur. Azərbaycanda təhsilin inkişaf tarixinin təhlili göstərir ki, Heydər Əliyevin bütün islahat təşəbbüsləri İlham Əliyev tərəfindən yeni müstəvidə və beynəlxalq təcrübə əsasında davam və inkişaf etdirilmiş, ölkəmizin tərəqqisinə böyük töhfə vermişdir.*



***Açar sözlər:*** *elm, təhsil, islahat, mədəniyyət*


Ötən əsrin 70-ci illərindən etibarən 30 ildən artıq bir müddətdə Azərbaycanda elm, təhsil, mədəniyyət və iqtisadiyyatın təşəkkülü və inkişafı bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Onun genişmiqyaslı fəaliyyətində təhsilin inkişafı prioritet sahə kimi mühüm yer tuturdu. Təhsilin cəmiyyətin inkişafında rolunu və şəxsiyyətin formalaşmasında əhəmiyyətini daim yüksək qiymətləndirən dahi rəhbərin qəbul etdiyi qərarlar, uzaqgörənliklə irəli sürdüyü konseptual fikirlər və ideyalar, tarixi tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə öz töhfəsini verməkdədir. Müasir Azərbaycanın dönüş mərhələsini təşkil edən 14 iyul 1969-cu il milli tariximizə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir dövrün başlanğıcı kimi daxil olmuşdur və həmin ildən başlanan tarixi mərhələ Azərbaycan təhsilinin, elminin və mədəniyyətinin intibah dövrü kimi dəyərləndirilir. Bu bir həqiqətdir ki, bütün sahələrdə olduğu kimi, Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına cavab verən hazırkı səviyyəyə çatması və inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu gün ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər, ümumi, peşə, orta ixtisas və ali təhsil

müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedaqoji kadr potensialı öz mənbəyini məhz ötən əsrin 70-ci illərindən Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu gələcək inkişafın güclü təməlini yaratmışdır. Həmin dövrdə Azərbaycanda bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə yüksəlmiş, bu istiqamətdə aparılan ardıcıl dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamışdır.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, Azərbaycan iqtisadi inkişaf tempinə görə regionda lider ölkəyə çevrilmiş, siyasi sabitlik və iqtisadi inkişaf təhsil sisteminin təşəkkülünə və islahatların aparılmasına da zəmin yaratmış, bu sahədə əsaslı nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur. Azərbaycanda təhsilin inkişaf tarixinin təhlili göstərir ki, Heydər Əliyevin bütün islahat təşəbbüsləri İlham Əliyev tərəfindən yeni müstəvidə və beynəlxalq təcrübə əsasında davam və inkişaf etdirilmiş, ölkəmizin tərəqqisinə böyük töhfə vermişdir.

Heydər Əliyev tərəfindən yaradılmış etibarlı iqtisadi zəmin və siyasi sabitlik əsasında təhsilin inkişafı ilə bağlı mühüm strategiya və proqramların qəbul edilməsi mümkün olmuş, nəticədə dövlət büdcəsindən təhsilə ayrılan xərclər əhəmiyyətli şəkildə artmış, 2003-cü ilə nisbətən 9 dəfədən çox artaraq cari ildə 2.3 milyard manata çatdırılmışdır.

Son illər təhsil siyasətində məktəbəhazırlıq prioritet istiqamətlərdən birini təşkil etmiş, ilk dəfə olaraq ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına məktəbəhazırlıq qrupları təşkil olunmuş, 5 yaşlı uşaqların təhsilə cəlb edilməsi səviyyəsi 2003-cü ildəki 15 faizdən 75 faizə çatdırılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində tarixən məktəbəqədər təhsil müəssisələri olmayan yaşayış məntəqələrində, ucqar kəndlərdə də uşaqların məktəbəhazırlığı təmin edilmişdir. Növbəti illərdə bütün 5 yaşlıların məktəbəhazırlığa cəlb edilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

Heydər Əliyev sosial-iqtisadi və mədəni yüksəlişə gedən yolun məhz ümumi təhsildən keçdiyini dərindən bilərək əsas diqqəti bu sahəyə yönəltmiş, ümumi orta təhsilə keçidin başa çatdırılması, kənd məktəblərinin iş şəraitinin daha da yaxşılaşdırılması barədə ardıcıl qərarlar qəbul etmişdi. Həmin qərarların həyata keçirilməsi nəticəsində qısa bir zamanda ümumtəhsil məktəblərinin şəbəkəsi genişlənmiş, əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdi. 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən 3 dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdırılmışdı. Ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sayı isə 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minədək artmışdı.1970-80-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verilmişdi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi. Bu sahədə həyata keçirilən tədbirlər məktəblərdə növbəlilik üzrə göstəricilərin yaxşılaşdırılmasına güclü təkan vermiş, şagirdlərin ikinci növbədə oxuma göstəricisi 1970-ci ildəki 40,2 faizdən 1980-ci ildə 28,1 faizə enmişdi.1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında Ümummilli Lider Heydər Əliyev məktəb tikintisinə diqqətin artırılması barədə iş adamlarına çağırış etdi. Həmin çağırışdan sonra bu sahəyə diqqət əhəmiyyətli şəkildə artdı, dövlət təşkilatlarının vəsaitləri, beynəlxalq təşkilatların qrant və kreditləri, iş adamlarının, xeyriyyəçilərin vəsaitləri hesabına yeni məktəb binalarının tikintisinə başlandı. ABŞ-ın humanitar təşkilatları,

Yaponiya hökuməti, Səudiyyə İnkişaf Fondu, İslam İnkişaf Bankı, bir sıra nazirliklər və dövlət şirkətlərinin maliyyə vəsaitləri hesabına ölkənin müxtəlif regionlarında yeni məktəb binaları inşa edildi.Sonrakı illərdə bu istiqamətdə işlər daha intensiv şəkildə davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür. 2003-2018-ci illər ərzində 3200-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmiş, başqa sözlə, ölkənin bütün məktəblərinin 72 faizinin binası yeni tikilmiş və ya əsaslı təmir olunmuşdur. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmış, ikinci növbədə oxuyan şagirdlərin sayı 16.8 faizə enmiş, başqa sözlə, şagirdlərin 83.2 faizinə birinci növbədə təhsil almaq imkanı yaradılmışdır. Bu nailiyyətlərin əldə edilməsində Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının müstəsna rolu olmuşdur.

Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı ölkə Prezidenti İlham Əliyev tərəfindən cari il iyunun 18-də imzalanmış sərəncamlar təhsilin inkişafına davamlı dövlət qayğısının daha bir parlaq nümunəsi olmuşdur. Sərəncamlara əsasən, regionlarda modul tipli məktəblərin quraşdırılması, Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi, təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə ümumilikdə 62.7 milyon manat vəsait ayrılmışdır. Bu istiqamətdə həyata keçiriləcək tədbirlər təhsil infrastrukturunun müasirləşdirilməsinə və keyfiyyət göstəricilərinin daha da artırılmasına imkan verəcəkdir.

Son illərdə ölkəmizdə formalaşmış müsbət demoqrafik şəraitə görə birinci siniflərə qəbulda artım dinamikası müşahidə edilir. Belə ki, 2013-cü ildə bu göstərici 138 min olmuşdusa, bu il birinci siniflərə 165 mindən çox uşağın qəbul edilməsi gözlənilir. Ümumilikdə şagird sayında da müsbət dinamika müşahidə edilməkdədir. Belə ki, 2013-cü illə müqayisədə şagirdlərin sayı 240 mindən çox artaraq 1 milyon 600 min nəfəri ötmüşdür. Təhsil Nazirliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində son 5 ildə müəllim-şagird nisbəti əhəmiyyətli şəkildə yaxşılaşmış, 8.5-dən 10.6-ya yüksəlmişdir. Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə ötən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və yüksəkixtisaslı kadr hazırlığı istiqamətində böyük işlər görülmüşdü. Ali məktəblər üçün çoxlu sayda tədris korpusları, yataqxana kompleksləri tikilmişdi.Ümumiyyətlə, 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, yüzlərlə yeni ixtisaslar açılmış, kafedralar, problem laboratoriyaları fəaliyyətə başlamışdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu illərdə ali məktəblərdə təhsilalanların sayı 70 mindən 100 minə yüksəlmişdi.Müstəqillik illərində də Ümummilli Lider tərəfindən ali təhsilin inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. 2000-ci ildə ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırıldı, onlara universitet statusu verildi. 1993-1994-cü tədris ilindən ödənişli təhsil tətbiq edildi. Həmin dövrdə ödənişli təhsilin tətbiqi, demək olar ki, çətin iqtisadi şəraitdə ali təhsil müəssisələrinin

maliyyə imkanlarını xeyli yaxşılaşdırdı. 1997-ci ildə bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsilə başladılar.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə ali təhsilin inkişafı əsas prioritetə çevrilmiş, insan kapitalının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Məhz bu dövrdə ali təhsil müəssisələrinin şəbəkəsi daha da inkişaf etmiş, onların sayı 2003-cü ildəki 46-dan hazırda 51-ə, təhsilalanların sayı isə 120 mindən 171 minə çatdırılmışdır.Azərbaycanda ən müasir tələblərə cavab verən və milli brendə çevrilmiş ADA Universiteti, Bakı Ali Neft Məktəbi yaradılmışdır. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialları yaradılmışdır. Azərbaycan Respublikası vətəndaşlarına xaricə getmədən aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə Azərbaycan-Fransız Universiteti (UFAZ) fəaliyyətə başlamışdır. Burada 4 ixtisas üzrə (kimya mühəndisliyi, kompüter elmləri, geofizika mühəndisliyi, neft və qazın kəşfiyyatı və istismarı) ingilis dilində tədrisə başlanmış, Fransanın Strasburq və Renn 1 universitetləri ilə ikili diplomun verilməsi nəzərdə tutulmuşdur. Son illərdə bir sıra ali təhsil müəssisələri üçün ən müasir kampuslar yaradılmış, bütün ali təhsil müəssisələrinin maddi-texniki və tədris bazası əhəmiyyətli şəkildə yenilənmişdir.Dövlət başçısı tərəfindən ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksək-ixtisaslı, peşəkar kadrların hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Ölkə Prezidentinin sərəncamına əsasən təqaüd sistemi təkmilləşdirilmiş, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı cari il martın 1-dən 16 min vahid artırılmış, təqaüd alan tələbələrin sayının növbəti iki ildə 50 faizə çatdırılması nəzərdə tutulmuşdur. Bununla yanaşı, tələbələrə verilən təqaüdlərin məbləği də orta hesabla 20 faiz artırılmış, bu tədbirlər 110 mindən çox tələbəni əhatə etmişdir. Eyni zamanda ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi yerləri 66 faiz artırılaraq qəbul planının ötən ilki 27 faizdən 42 faizə çatdırılmışdır.Onu da qeyd edək ki, ölkə Prezidentinin sərəncamlarına əsasən məcburi köçkün statusu olan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, şəhid ailəsi statusu almış ailənin üzvləri, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər, I və II dərəcə əlilliyi olan, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin təhsil haqqı xərcləri büdcə vəsaitləri hesabına ödənilir. Peşə təhsili müəssisələrində təhsil alan I, II və III qrup əlillər, şəhid ailəsinin üzvləri, 20 yaşına çatmamış və I qrup əlil valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər də təhsil haqqından azad edilmişdir.

**Ədəbiyyat:**

1. Milli Kitabxana.
2. https://azertag.az › xeber › azerba...
3. https://president.az › articles › view

# ÜMUMMİLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN ELM SİSTEMİ

***Süleymanov Seymur Elman oğlu, dosent***
***Tədris və elmi işlər üzrə direktor müavini***
***Nəsirova Sahibə İsmayıl qızı***
***Kompüter mərkəzinin müdiri***

***Xülasə:*** *Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında bu dahi insanı xatırlayır, onun nəcib və uzaqgörən əməllərinin xoş nəticələri ilə rastlaşırıq. Heydər Əliyev irsindən qaynaqlanacaq, xalqımızın bu dahi oğlunun fəaliyyəti elmi və elmi-pedaqoji cəhətdən daha mükəmməl öyrəniləcəkdir. Təbii ki, bu kitablarda Ümummilli Lider Heydər Əliyev bir hakimiyyət ustadı kimi, qətiyyətli dövlət başçısı kimi, müdrik siyasətçi, məsuliyyətli vətəndaş kimi, cəsur və tədbirli sərkərdə, Vətənini və millətini hədsiz məhəbbətlə sevən bir insan kimi, çətin anlarda hər zaman millətinin yanında olmağı bacaran şəriksiz və alternativsiz Lider kimi hərtərəfli öyrənilməlidir. Bütün bunlar gənc nəsil üçün xüsusilə vacibdir.*

***Acar sözlər:*** *Heydər Əliyev irsi, Heydər Əliyevin təhsil siyasəti, elmi-pedaqoji, elm-təhsil sahəsi, təhsil strategiyası*

Ümummilli Liderin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövrü Azərbaycanın təhsil tarixinə tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Bütün sahələrində görünməmiş uğurlar qazanıldı.

Buna görə Dahi Öndər cəmiyyətin inkişaf zəminini düzgün olaraq təhsildə və maarifçilikdə görürdü, bu sahənin inkişafına diqqət və qayğısını əsirgəmirdi.

Keçmiş sovetlər dövründə Ulu Öndər Azərbaycan təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmış, mövcud potensialı ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, respublikanın mədəni intellektual resurslarının gücləndirilməsinə, Azərbaycan üçün layiqli vətəndaşların yetişdirilməsi işinə səfərbər etmişdir. Məhz həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yenilənmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır. [1, 2].

O illərdə Azərbaycanın əldə etldiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması idi. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdır.

Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, o cümlədən elm və təhsilə diqqət və qayğı daha da

artırıldı. Bu təsadüfi deyildi. Çünki bu Dahi Şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.

1993-cü ilin iyununda xalqın istəyi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması Azərbaycan mədəniyyətinə yeni ab-hava gətirdi. Təhsil işçiləri, ziyalılar dövlətin yüksək qayğısı ilə əhatə olundular.

Yuxarıda qeyd etdiyimiz kimi, Ümummilli Lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə təhsilin böyük önəm verirdi. Ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, respublika elmlər akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdır. [3, 4].

Ümummilli Lider Heydər Əliyev öhdəsinə düşən bütün işləri yüksək səviyyədə reallaşdırdığı üçün məhz 1983-cü ildə SSRİ-də məktəb islahatı da Nazirlər Soveti sədrinin birinci müavini kimi ona tapşırılmışdı. Ulu Öndərin bu işin öhdəsindən layiqincə gəldiyini yaxşı xatırlayırıq.

1993-cü ilin iyununda Bakıya qayıdan Ümummilli Liderin xüsusi diqqət yetirdiyi məsələlərdən biri təhsil sisteminin yaxşılaşdırılması ilə bağlı idi. Buna görə də Ulu Öndər təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatlar proqramının hazırlanaraq reallaşdırılması vəzifəsini qarşıya qoydu. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncamı imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. Çox qısa müddətdə komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə minmişdi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi. Ulu Öndər Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli Liderimizin fikrincə, ana dili azərbaycançılığın təməl prinsipi idi. Eyni zamanda, xatırlamaq yerinə düşər ki, Ulu Öndər o dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərə də tövsiyə edirdi. Başqa bir fakt 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, Azərbaycan dilinin ana dili kimi təsbitlənməsi də Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının sevgisinin əyani təzahürü idi. bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" - deyən Heydər Əliyevin azərbaycançılığa, Azərbaycan dilinə sevgisi bitib-tükənməz idi, kökdən gəlirdi. Ona görə də dilin saflığı, təmizliyi uğrunda daim mübarizə aparırdı. [4, 5].

Bu gün iftixar hissi ilə qeyd edə bilərik ki, Heydər Əliyev siyasəti, banisi olduğu milli dövlətçilik strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam

etdirilir. Bu siyasətin bundan sonra da davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır. Siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq - Heydər Əliyev siyasi məktəbinin əsasını təşkil edən bu amillər Vətənə və xalqa xidmət naminə real siyasətlə məşğul olan hər bir kəs üçün tarixi örnəkdir. Çünki Heydər Əliyev şəxsiyyəti özlüyündə bir tarixi hadisə idi. Bu böyük insanın ideyaları bundan sonra da daim yaşayacaq, gələcək nəsillərə örnək olaraq qalacaqdır.

**Ədəbiyyat:**


1. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. "Kurikulum" jurnalı, 2008.
2. Mərdanov M., Ə.Quliyev -Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı,"Təhsil", 2002.
3. Mərdanov M.C. "Azərbaycan təhsili dünən, bu gün, sabah". Bakı, "Təhsil", 2006.
4. Mərdanov M.C., F.Ş. Şahbazlı. Azərbaycanın təhsil siyasəti. Bakı, "Çaşıoğlu", 2005.
5. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, "Çaşıoğlu", 2009.


## HEYDƏR ƏLİYEVİN ELM VƏ TƏHSİL SİYASƏTİ


***Quliyeva Ülviyyə İnqilab qızı***

***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***



***Xülasə:*** *Azərbaycan Respublikasının demokratik, milli və bəşəri dəyərlərə sadiq müstəqil dövlət kimi təşəkkülü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev müasir müstəqil Azərbaycanın memarı və qurucudur. Və bu, uzun illər millətinə və Vətəninə dərin məhəbbətin, sədaqətin və əzmkarlıqla həyata keçirilmiş quruculuq fəaliyyətinin nəticəsidir.*



***Açar sözlər:*** *Ümummilli Lider, ümummədəni, intellektual, inteqrasiya, vətənpərvər, konseptual*


Ulu Öndərin birinci dəfə 1969-1982-ci illəri əhatə edən quruculuq fəaliyyəti qədim dövlətçilik tariximizin ən böhranlı dövrlərindən hesab edilən 1990-cı illərin həlledici məqamında ikinci dəfə siyasi hakimiyyətə gəldiyi zaman yeni vüsət aldı. 1993-cü ilin iyun ayında xalqın istəyi və tələbi ilə Azərbaycan Respublikasında siyasi hakimiyyətə Heydər Əliyevin qayıdışı Azərbaycanın nicat günü, milli kimliyimizin yenidən dərki və xoşbəxt gələcəyin ilk təməlinin qoyulduğu müstəqillik tariximizdir.

Ulu Öndər Heydər Əliyev deyirdi ki, "Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, milli mənafelər əsasında qurulmalıdır". Bu məqsədlərə xidmət edən təhsil islahatları bilavasitə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilməyə başladı.

Ulu Öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun".

1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın tərəqqisi, elm, təhsil və mədəniyyətinin yüksəlməsi üçün çox məharətlə düşünülmüş strategiya və taktika seçməyə nail oldu.

Bu illər ərzində Azərbaycanda təhsilin inkişafı geniş vüsət almışdı. Məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə çıxaraq, Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində böyük rol oynadı.

1970-1980-ci illərdə Azərbaycanda yeni texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması həm də həmin sahələr üzrə ali və orta ixtisas təhsili müəssisələrinin, elmi tədqiqat institutlarının yaradılmasına imkan verirdi.

Ümummilli Lider Heydər Əliyev ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra təhsil sahəsində ardıcıl, davamlı dövlət siyasəti müəyyən edildi. Onun qəbul etdiyi qərarlara, imzaladığı fərman və sərəncamlara uyğun olaraq təhsil sahəsində düşünülmüş, Avropa təhsil məkanına inteqrasiyanı və ölkənin iqtisadi inkişafını təmin edə biləcək mütəxəssis hazırlığı ilə bağlı köklü islahatlara başlanıldı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu ilin 15 iyununda "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nı təsdiq etdi. Üç mərhələdən ibarət olan bu islahat proqramı miqyasına, əhatə dairəsinə və müddətinə görə ən böyük Dövlət Proqram idi və təhsilin sisteminin XXI əsrin çağırışlarına, iqtisadi inkişafın davamlı və dayanıqlı olmasına, Avropa əmək bazarına çıxışın təmin edilməsinə yönəlmişdi. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Azərbaycanın təhsil sistemində keçmiş ənənələrdən, nailiyyətlərdən, böyük potensialdan istifadə edərək təhsil sistemini yeni tələblərə uyğunlaşdırmaq, islahatlar həyata keçirmək işi başlanmışdır və bunlar da öz müsbət nəticəsini verir". Bu islahat proqramı müstəqil dövlətin təhsil sisteminin XXI əsrin çağırışlarına uyğun yenidən qurulmasının təmin edilməsinə yönəlmişdi.

Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 13 iyun 2000-ci ildə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı.

Fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Yeni Minilliyin milli təhsil sisteminin yaradılmasına yönəlmişdi. Hesab edirik ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə-1993-2003-cü illərdə, həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan təhsilinin davamlı inkişafının dayanıqlı bünövrəsi yaradıldı.

Ulu Öndər 2002-ci il oktyabrın 4-də "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncam imzaladı. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq

edilməsi haqqında" sərəncamı ümumtəhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsində və müasirləşdirilməsində əhəmiyyətli rol oynadı.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar da təhsilin inkişafında böyük əhəmiyyətə malik idi. Tarixi, siyasi və milli əhəmiyyət kəsb edən latın qrafikasına keçidin təmin edilməsi həm müstəqilliyin möhkəmlənməsi, həm də türkdilli dövlətlərin gələcək birliyi istiqamətində həyata keçirilmiş uğurlu layihələrdən biri oldu.

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə üçün Prezident təqaüdünün təsis edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin "Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli fərmanı da Ulu Öndərin gənclərin ali təhsil almalarına böyük dəstəyinin bariz təzahürü idi. Prezident təqaüdü gənclər arasında yüksək bilik, bacarıq, səriştələr və yüksək əxlaqi dəyərlər qazanmaq uğrunda yarışa çevrildi. Bu, xalqa, müstəqil dövlətə sədaqətlə xidmət edəcək yaradıcı şəxsiyyətin formalaşdırılmasına verilən böyük töhfələrdən biri idi.

Ümummilli Lider Heydər Əliyevin 29 avqust 1997-ci ildə Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin biq qrupu və onların valideynləri ilə görüşdə demişdi: "Biz 1970-ci ildən başlayaraq Azərbaycandan gənclərin keçmiş Sovetlər İttifaqının ən böyük universitetlərinə, ali məktəblərinə oxumağa göndərilməsinə nail olduq. Onların sayı hər il artırıldı. Mənim xatirimdədir, 70-ci illərin sonunda ildə 800-900 nəfər və 80-ci illərin əvvəlində ildə 1000-1400 nəfərə qədər gənclərimiz respublikamızdan kənardakı ali məktəblərə göndərildi. Bunun böyük əhəmiyyəti var idi. İndi biz bunun müsbət nəticələrini görürük."

Ulu Öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır".

Heydər Əliyev Azərbaycan təhsilinin məqsəd və vəzifələrini müəyyən etməklə yanaşı, həm də müəllimlərin özlərinin vətənpərvər, dövlətə və millətə sadiq olmalarını xüsusi vurğulayır: "Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".

Müstəqillik əldə edildikdən sonra inkişaf etmiş ölkələrə azərbaycanlı gənclərin təhsil almağa göndərilməsi dövlətin mühüm vəzifələrindən birinə çevrildi.

Müstəqil Azərbaycan dövlətində Ulu Öndər Heydər Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət nəticəsində milli təhsil sisteminin yenidən qurulması layihəsini gerçəkləşdirmək mümkün oldu. Yeni təhsil sisteminin yaradılması, yeni dərsliklərin və proqramların hazırlanması çətin olsa da, müstəqil yeni nəsli formalaşdırmaq, torpaqlarını erməni işğalından azad etmək, demokratik, hüquqi dövlət qurmaq istəyən Azərbaycan üçün xüsusi əhəmiyyətə malik idi.

Milli təhsil sistemi üçün Azərbaycan əlifbasının qəbulu və Azərbaycan dilinin inkişaf etdirilməsi olduqca əhəmiyyətli hadisə idi.

Ulu Öndər ümumi təhsilin qarşısında duran vəzifələri müəyyən edərkən bir məsələyə xüsusi diqqət ayrılmasını mühüm hesab edirdi. Onun fikrincə, uşaqlar tədris edilən fənlərin hamısını yaxşı mənimsəməlidirlər, bilikli olmalıdırlar, ancaq hamısından daha çox "Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər".

Ana dilinin şəxsiyyətin yaradıcı təfəkkürünün inkişafında oynadığı rolu Heydər Əliyev belə ifadə edirdi: "Ancaq bir var ki, Azərbaycan dilində oxuyursan, bir də var ki, dilinin incəliklərini bilirsən, Azərbaycan dilində yüksək səviyyəli söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq edə bilirsən. Bu, hələ bizdə çox çatışmayan bir sahədir".

Ulu Öndər Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanı ilə avqustun 1-i Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi müəyyən edildi. Prezidentin 30 sentyabr 2002-ci il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edildi. Latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkədə 2001-ci ilin avqustunda bütövlükdə təmin edilməsi, yeni əlifbadan istifadə müstəqil Azərbaycanın ictimai-siyasi həyatında əlamətdar hadisə, Ümummilli Lider Heydər Əliyevin uğurlu siyasətinin təntənəsi idi.

İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi ötən əsrin 70-ci illərindən etibarən diqqət mərkəzində olmuş, bu vacib iş sahəsinin mühüm prioritetlərdən biri kimi irəli sürülərək reallaşdırılması istiqamətində ciddi addımlar atılmışdır.

Ulu Öndərin müəyyənləşdirdiyi təhsil siyasəti bu gün Azərbaycan Respublikasının I vitse-prezidenti xanım Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən də uğurla davam etdirilir. Azərbaycanda ilk dəfə fondlar tərəfindən yeni məktəb binalarının inşasının və ya əsaslı təmirinin, maddi-texniki bazasının möhkəmləndirilməsinin əsası məhz həmin fond tərəfindən qoyuldu. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin, musiqisinin təbliğinə və təhsilinin inkişafına özünün böyük töhfələrini verir.

"Azərbaycanda elmin, təhsilin, mədəniyyətin və incəsənətin inkişafında, milli-mənəvi dəyərlərin dünya miqyasında tanınmasında Heydər Əliyev Fondunun xüsusi əməyi var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına daim diqqət və qayğı ilə yanaşaraq bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirir. Ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı, "Təhsilə dəstək" kimi dövlət maraqları baxımından xüsusi əhəmiyyət daşıyan bir sıra layihələri fond uğurla gerçəkləşdirir"

Burada bir məsələni də xüsusi olaraq qeyd etmək istərdik. İnteqrasiyalı təhsil, inklüziv təhsil sahəsində Heydər Əliyev Fondunun fəaliyyəti nəinki təqdirəlayiqdir, həm də ən yaxşı nümunə və örnəkdir.

Eyni zamanda, son illər müvafiq qanunlarda dəyişikliklər edilərək xüsusi təhsilin konseptual baxımından tibbi modelindən sosial modelinə keçidin, o cümlədən şəxsiyyət mərkəzli təhsilə keçidin hüquqi bazası xeyli möhkəmləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yeni dövrün yeni təhsil sisteminin, o cümlədən yeni ali təhsil sisteminin yaradılması məqsədi ilə insan kapitalının yaradılması konsepsiyasını irəli sürdü. Təhsilin inkişaf etdirilməsi ilə bağlı yeni dövlət proqramlarını təsdiq edildi. Azərbaycanda ali təhsilin inkişafını təmin etmək, Avropa təhsil və əmək məkanına sərbəst çıxış əldə edə biləcək mütəxəssis hazırlığını təmin etmək məqsədilə ölkəmizin Bolonya prosesinə qoşulması ilə bağlı qərar qəbul edildi və Azərbaycan 2005-ci ildə Bolonya prosesinə qoşuldu. Bununla da faktiki olaraq ali təhsildə aparılacaq islahatların istiqaməti müəyyən edildi.

Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edildi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları nəticəsində "maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi" siyasəti Azərbaycanın davamlı inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi gerçəkləşdirilir. Prezidentin təhsilə olan xüsusi diqqəti, qarşıya qoyulan vəzifələrin ardıcıl surətdə həlli, təhsil sahəsində genişmiqyaslı dövlət proqramlarının təsdiqi və icrası, həyata keçirilmiş islahatlar keyfiyyətli təhsilin maddi-texniki bazasını və kadr potensialını möhkəmləndirmişdir.

Azərbaycanda təhsil sahəsində islahatlar davamlı xarakter daşıyır və dövlətin təhsil strategiyası ən müasir təhsil müəssisələrinin yaradılmasını, vətəndaşların keyfiyyətli təhsil almalarını təmin edir.

Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2022-ci il tarixli sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edildi. Hal-hazırda yüzlərlə gənc dövlət hesabına dünyanın ən qabaqcıl universitetlərində təhsil alır.

Bu gün milli təhsilimiz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən Azərbaycanın təhsil strategiyası uğurla davam etdirilir və müstəqilliyimizi, iqtisadi yüksəlişi təmin edir.

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Bakı, 2007, 21-ci cild, səh.254.
2. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"//https://e-qanun.az/framework/5363
3. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Bakı, 2007, 21-ci cild, səh.247.
4."Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanı // https://e-qanun.az/framework/767
5. Yenə orada
6. Yenə orada

7. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında // https://e-qanun.az/framework/2811
8. "Azərbaycan Respublikasında dövlət dili haqqında" [11]Azərbaycan Respublikasının Qanunu // https://e-qanun.az/framework/1865
9. Yeniləşən Azərbaycanın yeni məktəbləri // https://mehribanaliyeva.preslib.az/media-f6qpismnk9.html

## AZƏRBAYCANIN ÜMUMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV MÜASİR ELM VƏ TƏHSİL SİSTEMİNİN YARADICISIDIR

***Qurbanov Qurban Fikrət oğlu***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası"kafedrasının müəllimi***
***qurban6891@gmail.com***

**Xülasə:** *Ümumilli lider Heydər Əliyev hakimiyyətə gəlməsi ilə Azərbaycanın müasir elm və təhsilinin inkişafına böyük töhvələr vermişdir. Beləliklə, EA-nın maddi-texniki infrastrukturu gücləndirilmiş, Azərbaycan dili, ədəbiyyatı və tarixi üzrə tədqiqatlar genişləndirilmiş, yeni mərkəzlər açılmış, elmi işçilərin, elmi-tədqiqat institutlarının və laboratoriyaların sayı artırılmış, aparıcı elmi kadrların sayı artırılmışdır.*

**Açar sözlər:** *Ümumilli Lider, Heydər Əliyev, İlham Əliyev, Elm, Azərbaycan, Təhsil, Kadr, Qanun.*

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, o cümlədən elm və təhsilə diqqət və qayğı daha da artırılmışdır. Bu qəza deyildi. Çünki bu dahi şəxsiyyət çox gözəl bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu ali təhsildən və xalqın maariflənməsindən, fundamental və humanitar elmlərə önəm verməkdən keçir.

Ölkənin sürətli və hərtərəfli inkişafında elmin, texnikanın və təhsilin fövqəladə rolunu dərindən dərk edən ümummilli lider bu sahələrin inkişafına xüsusi diqqət və qayğı göstərirdi. Çünki dünyada elmi, texnologiyası, təhsili inkişaf etmiş ölkələr söz sahibidir. Elmin, texnikanın, təhsilin inkişafında elmin, elmi kadrların xüsusi rol oynadığını dərindən dərk edən Ulu Öndər bu sahədə inkişafa mane olan problemlərin üzə çıxarılması və qısa müddətdə aradan qaldırılması üçün böyük səylər göstərmişdir.

1969-1978-ci illərdə orta məktəblərin sayı 77 faiz artmışdır. 1979-cu ildə SSRİ-nin 43 şəhərində 152 ali məktəbdə 3315 azərbaycanlı təhsil alırdı. Ulu Öndər ilk növbədə Azərbaycanın intellektual gələcəyini düşünmüş, sovet dövründə respublikada yaradılmış zəngin elmi potensiala istinad etmiş, onun elm və təhsildən mükəmməl anlayışını ortaya qoymuş, bu sahənin problemlərinə diqqət yetirmişdir. Onun milli tərəqqi üçün strateji əhəmiyyəti var. Ümummilli Liderin elm və təhsil anlayışının təməl prinsipi müstəqilliyi daha da möhkəmləndirmək, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesini yüksək dinamizmlə həyata keçirmək, dövlətin iqtisadi potensialını

gücləndirmək idi. Ümummilli Lider Azərbaycanda bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də uğurlu islahatların müəllifi kimi tanınıb.

1970-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi və müvafiq üzvlərinin müşavirəsində ümummilli lider respublikamızda elmin bugünkü vəziyyətini təhlil etmiş, problemlərə diqqəti cəlb etmiş, onların həlli yollarını göstərmişdir. Bu məsləhətləşmədən sonra Azərbaycan SSR Elmlər Akademiyasının fəaliyyətində köklü dəyişikliklər baş verdi. Belə ki, EA-nın maddi-texniki infrastrukturu gücləndirilmiş, Azərbaycan dili, ədəbiyyatı və tarixi üzrə tədqiqatlar genişləndirilmiş, yeni mərkəzlər açılmış, elmi işçilərin, elmi-tədqiqat institutlarının və laboratoriyaların sayı artırılmış, aparıcı elmi kadrların sayı artırılmışdır. yüksək ixtisaslı kadrlar hazırlamaq məqsədi ilə keçmiş Sovet İttifaqının institutları yaradılmış, mərkəzlərin və ali təhsil müəssisələrinin laboratoriyalarına göndərilmişdir.

1993-cü ilin iyununda Bakıya qayıdan Ümummilli Liderin xüsusi önəm verdiyi məsələlərdən biri də təhsil sisteminin təkmilləşdirilməsi olmuşdur. Ona görə də Ulu Öndər təhsilin milli tərəqqinin real amilinə çevrilməsi üçün geniş islahat proqramını hazırlayıb həyata keçirməyi qarşısına vəzifə qoymuşdu. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" fərmanın imzalanması bu sahədə mütərəqqi qanunvericilik bazasının yaradılması və təhsilin hüquqi bazasının yaradılması məqsədindən irəli gəlirdi. təhsil konsepsiyası. Komissiya tərəfindən çox qısa müddətdə hazırlanmış "Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar proqramı" hərtərəfli danışıqlardan sonra 1999-cu ilin iyununda imzalanmış və qüvvəyə minmişdir. Bu proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğun olmasına və milli təhsil ənənələrinə sadiq qalmasına imkan yaradıb.

Ulu Öndər Heydər Əliyevin hərtərəfli dəstəyi və diqqəti və yerli alimlərin səyi nəticəsində Azərbaycanda rabitə, elektronika sənayesi, informasiya texnologiyaları, kosmik tədqiqatlar yaradılmış, elektronika və cihaz istehsalı müəssisələri açılmış, xüsusi konstruktor büroları fəaliyyətə başlamışdır. fəaliyyət göstərir. İşləmək üçün. Elmə, elm işçilərinə, alimlərə göstərilən qayğı nəticəsində fizika, riyaziyyat, kimya, tibb, yer elmləri, texnologiya, biologiya və kənd təsərrüfatı elmləri sahələrində mühüm uğurlar əldə edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublikamızda elmin sürətli inkişafını təmin etmək məqsədilə 2009-2015-ci illərdə Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramını təsdiq etmişdir. , onun praktikada tətbiqi, dünya elminə inteqrasiyası və ölkəmizin iqtisadiyyatına fayda verməsi "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı"nı təsdiq edərək, bu strategiyanın və onun çərçivəsində dövlət proqramı həyata keçirilmişdir. liderlik. Elmin İnkişafı Fondu elmi tədqiqatları dəstəkləmək, xaricdə və ölkəmizdə keçirilən beynəlxalq elmi tədbirlərdə elmi mütəxəssislərin və alimlərin təmsil olunmasını təmin etmək məqsədilə yaradılmış və hazırda da fəaliyyət göstərir. Elmi fəaliyyətin hüquqi əsaslarının təmin edilməsi və möhkəmləndirilməsi məqsədilə 2016-cı ildə "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir.

**Ədəbiyyat:**

1. https://www.anl.az › xalqqazeti

2. https://www.muallim.edu.az

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİX ELMİ

***Səmədov Yaqub Abbasqulu oğlu***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
***yaqub.semedov63 @mail.ru***

***Xülasə:*** *Məqalədə Ulu Öndər Heydər Əliyev tərəfindən irəli sürülən tariximizlə bağlı nəzəri – metodoloji istiqamətlərin mahiyyəti təhlil olunmuş və tariximizin müxtəlif problemlərinin tədqiqində, öyrənilməsində bu konsepsiyanın əhəmiyyəti xüsusi olaraq vurğulanmışdır.*

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, tarix elmi, tarix məsələləri, obyektiv tədqiqat*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev XX əsr Azərbaycan tarixində böyük rol oynamış, geniş və hərtərəfli fəaliyyəti ilə Azərbaycanın ictimai-siyasi həyatında əsaslı dönüş yaratmışdır. Azərbaycanın müstəqillik dövrünə qədəm qoyduğu müasir dövrdə cəmiyyətimizin qarşısında duran mühüm vəzifələrdən biri də ictimai-siyasi mədəni inkişafda ümumbəşəri dəyərlərə istiqamətlənməklə milli - mənəvi dəyərləri qorumaq və daha da inkişaf etdirmək olmuşdur. Bununla əlaqədar, Heydər Əliyev irsinin öyrənilməsi, onun elmi-nəzəri - təhlillər əsasında Azərbaycan tarixinin ayrı-ayrı məsələlərinin araşdırılması böyük elmi əhəmiyyət kəsb edir [1, s. 3].

Döğurdan da, zəngin və dərin tarixi, fəlsəfi, biliyə malik olan Heydər Əliyev Azərbaycan tarixinin bir sıra aktual məsələlərini, o cümlədən xalqımızın mənşəyi, dövlətçiliyimizin təşəkkülü və formalaşması, şanlı keçmişimizin ümumdünya tarixində yeri və sair bu kimi mühüm tarixi problemlərin hərtərəfli, dərindən, ən başlıcası obyektiv tədqiqini tarixçilər qarşısında aktual və təxirəsalınmaz vəzifə kimi qoymuşdu [2].

Heydər Əliyev həm də dahi tarixçi idi. Azərbaycan və dünya tarixini incəliklərini dərindən bilən Heydər Əliyev ömrünün bütün anlarında Azərbaycan tarixi məsələlərini daim diqqət mərkəzində saxlamış və tarix elmimizin inkişafına xüsusi diqqət yetirmişdi [3, s.7]. Bu baxımdan Heydər Əliyevin Azərbaycan tarixində müstəsna rolu olan Azərbaycan Xalq Cumhuriyyətinin tədqiqinə verdiyi dəyəri xüsusi olaraq vurğulamaq lazımdır. Belə ki, Heydər Əliyev hələ Naxçıvan MR Ali Məclisinin deputatı olduğu zaman, Məclisin 14 yanvar 1991-ci il tarixli sessiyasında Azərbaycan Xalq Cumhuriyyətinin tarixinin daha dərindən tədqiqi məsələsini - mühüm məsələ kimi irəli sürmüşdü. Ulu Öndər bununla əlaqədar qeyd etmişdir ki, "Əgər 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikası Azərbaycan xalqının həyatında əlamətdar və tarixi bir hadisədirsə, biz bunu açıq deməliyik və bu Azərbaycan dövləti tərəfindən müəyyən qədər qanuniləşdirilməlidir. Əgər biz bunu qəbul ediriksə, 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının devrilməsi pislənməlidir, qeyri-qanuni bir hal kimi qəbul olunmalıdır" [4, s.6-7].

Digər tərəfdən, Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", həmçinin 26 mart 1998-ci il "Azərbaycanlıların soyqırımı haqqında" sərəncamlarını da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Həmin sərəncamlar XX yüzillikdə

tədqiqinə yasaq qoyulmuş, üstündən sükutla keçilmiş ermənilərin XX əsr boyu başımıza gətirdiyi müsibətləri, xalqımıza qarşı həyata keçirdiyi soyqırımların və s-nin sistemli şəkildə tədqiqinə yaşıl işıiq yandırdı, dissertasiyalar yazılıb müdafiə olundu, çoxsaylı monoqrafiya, kitab və məqalələr nəşr edildi [5].

Azərbaycan alimləri və tarixçiləri ilə sıx əlaqə saxlayan və vaxtaşırı görüşlər keçirən Ulu Öndər çoxcildli "Azərbaycan tarixi", "Azərbaycan şəhərlərinin tarixi", "Azərbaycan xanlıqlarının tarixi", "Azərbaycan xalqının hərbi tarixi" kimi fundamental əsərlərin, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini işıqlandıran monoqrafiyaların da nəşr edilməsini mühüm elmi vəzifə kmi qarşıya qoydu [6].

Tariximizin ayrı-ayrı dövrlərinin yazılmasında birtərəfliliyə yol verilməsi, bir sıra hadisə və faktların məqsədli şəkildə təhrif olunması və s. bu kimi mənfi hallar da Heydər Əliyevi daim düşündürmüş, həm də ciddi narahat etmişdi. Odur ki, ziyalılarla görüşündə Ulu Öndər bu məsələ üzərində xüsusi olaraq dayanmış, özünün irad və tövsiyələrini bildirmişdi: "Ötən 70 illik dövrdə tariximiz təhrif edilmişdir. Həm XIX əsrin, həm XX əsrin, həm də ondan əvvəlki dövrlərin tarixi təhrif olunmuşdur. Demirəm ki, tamam təhrif edilmişdir, amma tarixə dair əsərlərimizdə təhrif ünsürləri var. İndi isə bir qütbdən o biri qütbə keçmək meyli görünür. O nədən ibarətdir? Ondan ibarətdir ki, deyirlər bütün bu 70 ildə olanların hamısı yaramazdır, pisdir, Azərbaycan xalqı üçün bəladır." Bu cür düşüncələrin əleyhinə olan dahi rəhbər tarixçilərə tövsiyə edərək bildirirdi ki, tariximizin bütün dövrləri bizim üçün əzizdir" [7].

Azərbaycanın qədim dövr tarixinin də dəyərləndirilməsi Heydər Əliyev irsində xüsusi yer tutmuş və Azərbaycanın orta əsr tarixi məsələləri aşağıdakı prinsipial məqamları özündə ehtiva ermişdir:

- Azərbaycanın orta əsrlər tarixinin ayrı-ayrı məsələləri xüsusi olaraq dəyərləndirilmişdir;
- orta əsrlər dövrünə aid tarixi abidələrin bərpası və qorunub saxlanılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir;
- "Kitabi- Dədə Qorqud" dastanının 1300 illiyi dövlət səviyyəsində qeyd olunmuş və tariximizin qədimliyi bütün dünyaya bəyan edilmişdir;
- tarixi şəxsiyyətlərin və tarixçi alimlərin fəaliyyətləri layiqincə qiymətləndirilmişdir;
- orta əsrlər dövründən formalaşmış milli-mənəvi dəyərlər dirşəldilmiş və qorunmuşdur;
- orta əsr tarixi məsələləri sovet ideologiyasından təmizlənmişdir [8].

Heydər Əliyev Azərbaycanın XX əsr tarixini də uzaqgörənliklə bütövlükdə aşağıdakı inkişaf mərhələlərinə ayırmışdır:

- Birinci mərhələ - Azərbaycan Xalq Cümhuriyyəti qurulmazdan əvvəl mövcud tarixi dövr. Bu dövr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulması ilə başa çatır.
- İkinci mərhələ - Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövr (1918 – 1920-ci illər).
- Üçüncü mərhələ - 1920-ci il aprel işğaından başlanan Sovet dövrüdür. Bu dövr 1991-ci il oktyabrın 18- də "Azərbaycan Pespublikasının Müstəqilliyi Haqqında Konstitusiya Akti"nın qəbul olunması ilə başa çatır.

- Dördüncü mərhələ - 1991-ci ilin oktyabrında müstəqilliyimizin bərpası ilə başlanan dövrdür [8].

Beləlikilə, Heydər Əliyev tərəfindən tariximizlə bağlı irəli sürülən elmi müddəalar tariximizin obyektiv və daha dərindən araşdırılmasında müstəsna rol oynayır.

**Ədəbiyyat:**

1. Hüseynova L., Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri (müstəqilik dövrü). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı - 2014. 28 s.
2. Cəfərli F., Heydər Əliyev və Azərbaycan tarixi məsələləri. Xalq qəzeti. 24 noyabr 2023-cü il.
3. Hüseynova L., Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. (müstəqillik dövrü). Bakı, "Təhsil", 2011, 216 s.
4. https://dergipark.org.tr/en/download/article-file/3365015. Heydər Əliyev İrsində Müasir Azərbaycan Tarixinin Dəyərləndirilməsi.
5. Cəfərli F., Heydər Əliyev və Azərbaycan tarixi məsələləri. Xalq qəzeti. 24 noyabr 202.
6. Köçərli X., Tarix elmimizin böyük himayədarı. "Xalq qəzeti".-2013.-21 aprel.-N 84.-S.5.
7. Cəbiyev Q., Heydər Əliyev və Azərbaycan tarixi. "Xalq qəzeti".-2011.-15 may.-N 104.-S.3
8. https://lib.aliyev-heritage.org/az/48470251.html.Hüseynova L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. (müstəqillik dövrü). Bakı, 2014.

***Kompüter yığımı*** - *Sahibə Nəsirova, ADPU-nun Ağcabədi filialının kompüter mərkəzinin müdiri*

*Yığılmağa verilib: 06.12.2023*
*Çapa imzalanıb: 14.03.2024*
*F.Ç.V. 6.5*
*Tiraj 40*

***ADPU-nun Ağcabədi filialının kompüter mərkəzi***

---------------------------------------------------------------------------------------------------------------------

***E-mail:*** *sahibanasirova1963@mail.ru*